**UOT: 327**

# AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA TİCARİ-İQTİSADİ MÜNASİBƏTLƏRİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**İlyas HÜSEYNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 fevral 2019; çapa qəbul edilmişdir: 4 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 12 Februrary 2019; accepted: 4 July 2014; published online: 25 September

***Açar sözlər:*** *Yunanıstan, ticari-iqtisadi münasibətlər, Avropa İttifaqı, Trans Adriatik Boru Kəməri, Cənub Qaz Dəhlizi, diplomatiya, enerji təhlükəsizliyi, TAP, Şahdəniz*

## Giriş

Dünyanın ən qədim sivilizasiyalarından biri kimi Cənub-Şərqi Avropada yerləşən, Avropa Birliyinin və Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) üzvü olan Yunanıstanla Azərbaycan arasında ticari-iqtisadi münasibətlərin mövcud vəziyyətinin və inkişaf perspektivlərinin araşdırılması böyük aktuallıq kəsb edir. İkitərəfli iqtisadi münasibətlərə təsir edən əsas amillər sırasında enerji təhlükəsizliyinin təmin olunması əsas yer tutsa da, dövlət başçılarının qarşılıqlı səfərləri zamanı digər sahələrin də inkişaf etdirilməsi barədə dəfələrlə vurğulanmışdır. Bununla yanaşı, iki ölkənin iş adamlarının iştirakı ilə biznes forumların keçirilməsi də Azərbaycanla Yunanıstan arasında iqtisadi münasibətlərə və ticarət dövriyyəsinə öz töhfəsini verməkdədir.

## 1. İkitərəfli ticari-iqtisadi münasibətlərin inkişafında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rolu

Yunanıstan lap əvvəldən Azərbaycanın həm siyasi, həm də iqtisadi əhəmiyyətini və gələcəyini müəyyən etmişdir. Azərbaycan müstəqillik əldə etdikdən çox qısa vaxt sonra diplomatik əlaqələrin əsası qoyulmuşdur. Yunanıstan iki ölkəni bir-birinə tanıtmaq və hər iki xalqı mümkün qədər bir-birinə yaxınlaşdırmaqla dostluq, əminlik və qarşılıqlı inam üçün tədricən və ehtiyatla qəti və sürətli addımlar ataraq Azərbaycanda səfirlik açmışdır.

Azərbaycan və Yunanıstan arasında olan ticari-iqtisadi münasibətlərin inkişafında Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Yunanıstanın yerləşdiyi geosiyasi arealın önəmini dərindən bilən Heydər Əliyev Avropa Birliyinin üzvü kimi bu ölkənin dəstəyinə və iqtisadi-ticari münasibətlərdə qarşılıqlı faydalı əməkdaşlığa böyük ümidlərlə yanaşmışdır.

2003-cü il 18 iyun tarixində Ulu öndər Prezident sarayında Yunanıstanın Xarici İşlər nazirinin müavini İoannis Maqriotisi qəbul etmişdir. Görüşdə nazir müavini bildirmişdir. "TASİS proqramı çərçivəsində gözəl işlər görülmüş, proqram praktiki olaraq Azərbaycan reallıqlarına, tələblərinə uyğun modernləşdirilmişdir. Artıq Azərbaycanla Avropa Birliyi nümayəndələri arasında energetika məsələlərinə dair dialoq başlamışdır. Böyük məmnuniyyətlə demək istəyirəm ki, sizin qaz sənayesi sahəsindəki mütəxəssisləriniz bizim ölkəyə səfər ediblər və çox faydalı fikir mübadiləsi aparılmışdır. Bilirəm ki, enerji daşıyıcıları hasilatı Azərbaycan üçün, Avropa Birliyi üçün çox vacib sahədir. Deyə bilərəm ki, biz bu sahədə əlaqələrin yaradılmasında yeni bir mərhələ açırıq" (6, s. 123).

* doktorant, Bakı Slavyan Universiteti
*e-mail: ilyasdiplomat@gmail.com*

Görüşdə Azərbaycan iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi rolunu oynayan Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi və nəqli məsələləri də müzakirə olunmuşdur. Heydər Əliyev bildirmişdir: "Neft və qaz sahəsində əməkdaşlığın çox böyük perspektivləri var. Biz bu sahədə fəal iş görmək üçün çalışırıq. Lazımdır ki, Avropa Birliyi, xüsusən Yunanıstan bu məsələdə sona qədər eyni mövqedə olsun" (6, s. 125).

## 2. Azərbaycan və Yunanıstan arasında ticari-iqtisadi münasibətlərin inkişaf dinamikası

Hər iki ölkə hazırda siyasi və iqtisadi sahələrdə sıx münasibətlərə malikdir. Son illərdə möhkəm təməllər üzərində dayanan Azərbaycan-Yunanıstan əlaqələri ikitərəfli münasibətlər çərçivəsindən kənara çıxaraq, Avropa regionunu əhatə edən böyük əməkdaşlıq mərhələsinə qədəm qoymuşdur. Azərbaycan-Yunanıstan münasibətlərinin strateji tərəfdaşlığa doğru genişlənməsi üçün münbit şərait yaranmışdır. Tərəflər əməkdaşlığın çox geniş olan komponentləri üzrə razılaşma əldə etməklə, uzunmüddətli münasibətlərin möhkəmlənməsinə dərin əsaslar yaratmışlar.

Yunanıstan Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci dekabrın 31-də tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 1992-ci il aprelin 2-də qurulmuşdur. Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi 1993-cü ilin mayın 27-dən fəaliyyət göstərir. Azərbaycan Respublikasının Yunanıstan Respublikasındakı səfirliyi 2004-cü ilin aprelin 16-da açılmışdır (10).

Müstəqilliyimizin ilk illərindən bu günə qədər hər iki dövlətin başçılarının qarşılıqlı səfərləri baş tutmuş, parlamentlərarası dostluq qrupunun sədrlərinin görüşləri keçirilmiş, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərləri olmuşdur. Bütün görüşlərdə aparılmış danışıqların nəticəsi kimi imzalanan sənədlər, işgüzar dairələrin bir-birini tanıması və ticari-iqtisadi münasibətlərin yaradılması ilə bağlı mütəmadi olaraq biznes forumların keçirilməsi hər iki ölkənin iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir.

2004-cü ilin 20-22 iyun tarixlərində Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulosun Azərbaycana rəsmi səfəri iki ölkə arasında olan münasibətlərdə müsbət rol oynamış və bu səfərin ticari-iqtisadi münasibətlərə böyük təsiri olmuşdur. Səfər çərçivəsində Azərbaycan və Yunanıstan iş adamlarının iştirakı ilə Birinci Azərbaycan-Yunanıstan Biznes Forumu keçirilmiş və Konstantinos Stefanopulosu böyük tərkibdə yunanıstanlı biznesmenlər müşayiət etmişdir. Qeyd etmək lazımdır ki, Bakıya gələn iş adamları cənab Konstantinos Stefanopulosun prezidentliyi dövründə ölkə xaricinə səfər edən ən böyük nümayəndə heyəti olmuşdur.

Yunanıstan Respublikasının Prezidenti Konstantinos Stefanopulos öz çıxışında ölkələr arasında olan iqtisadi münasibətlərə toxunaraq, Birinci Azərbaycan-Yunanıstan Biznes Forumunun nəticələrindən böyük gözləntilərin olduğunu bildirmişdir: "İqtisadi sahədə əlaqələrimiz sürətlə inkişaf edir. Biz Yunanıstan iş adamlarının Azərbaycana böyük marağını görürük, hiss edirik. Bu gün Azərbaycanda keçirilən biznes forum bunun əyani sübutudur. Azərbaycanda bizneslə məşğul olmaq üçün çox gözəl şərait vardır. Çox gözəl sərmayə mühiti vardır. Biz əminik ki, Yunanıstan şirkətləri Azərbaycanda daha fəal işləyəcəklər, birgə layihələr həyata keçiriləcəkdir. Enerji sektorunda aparılan işlər deməyə əsas verir ki, Azərbaycanla Yunanıstan arasında bu istiqamətdə əlaqələr daha da güclənəcəkdir. Azərbaycanda həyata keçirilən böyük neft-qaz layihələri Yunanıstan tərəfini də maraqlandırır və aparılan danışıqlar nəticəsində ümid edirəm ki, Azərbaycan və Yunanıstan bu sahədə çox səmərəli əməkdaşlıq edəcəkdir" (3, s. 3).

Səfər zamanı Azərbaycan İqtisad Universitetinə təşrif buyuran Konstantinos Stefanopulos ilk əcnəbi prezident kimi universitetin tarixinə düşmüşdür. Konstantinos Stefa-

nopulosun tələbələrlə görüş zamanı Yunanıstanın Xarici İşlər nazirinin müavini Yevripidis Stilianidis Bakıda keçirilmiş biznes forumun nəticələri barədə bildirmişdir ki, biznes forumda 100-ə yaxın yunan və 200-dək azərbaycanlı iş adamı iştirak etmiş və bu tədbirin nəticəsi olaraq qeyri-neft sektorunu əhatə edən 7 memorandum imzalanmış və 3-4 sənəd də imzalanacaqdır (2, s. 3).

İkitərəfli ticari-iqtisadi münasibətlərdə neft və qaz sektoru əsas prioritet təşkil edir. 2009-cu il 16-17 fevral tarixlərində Yunanıstanda ilk dəfə dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın regiondakı rolunu diqqətə çatdırmış, ticari-iqtisadi münasibətlərdə neft və qaz sahəsi ilə yanaşı, alternativ enerji, turizm, gəmiqayırma, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın vacibliyini vurğulamışdır. Səfər zamanı “İşgüzar əməkdaşlığın imkanları” mövzusunda Azərbaycan-Yunanıstan Biznes Forumu da keçirilmişdir. Azərbaycan Prezidentinin beynəlxalq aləmdəki nüfuzundan, Azərbaycan-Yunanıstan əməkdaşlığının inkişafından narahatlıqlarını gizlədə bilməyən Afinadakı bir qrup erməni forumun keçirildiyi binanın qarşısında ucuz şou yaratsalar da, 5-10 ermənin bu hərəkəti, təbii ki, küçədən keçən insanların diqqətini cəlb etməmişdir.

Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın xüsusi rolunun olduğunu bildirən Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas bildirmişdir: “Xüsusi əhəmiyyət kəsb edən enerji sahəsində, Yunanıstan Azərbaycanı Türkiyə və Yunanıstan vasitəsilə İtaliya ilə birləşdirəcək təbii qaz boru kəmərinin çəkilməsi sahəsində ölkələrimiz arasında əməkdaşlığı səmimiyyətlə arzulayır” (4, s. 1).

Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın 2011-ci il 5-6 aprel tarixlərində Azərbaycana dövlət səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərini diqqətə çatdırmış və genişspektrli işlərin aparılmasının zəruri olduğunu vurğulamışdır: “Biz qədim tarixə və mədəniyyətə malik olan Yunanıstan ilə əlaqələrimizin inkişafına xüsusi əhəmiyyət veririk. Azərbaycan və Yunanıstan arasında turizm, bərpa olunan enerji, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur. Ölkələrimiz arasında, həmçinin fövqəladə hallar, ətraf mühitin mühafizəsi, dəniz nəqliyyatı kimi sahələrdə də əməkdaşlıq imkanları vardır” (1, s. 3). Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Karolos Papulyasın iştirakı ilə IV Azərbaycan-Yunanıstan Biznes Forumu keçirilmiş, hər iki ölkədən kənd təsərrüfatı və qida sənayesi, səhiyyə və əczaçılıq, enerji, informasiya-kommunikasiya texnologiyaları, maliyyə, logistika, tikinti və digər sahələrdə fəaliyyət göstərən 250-dək iş adamı iştirak etmişdir.

2014-cü il 16-17 iyun tarixlərində Yunanıstan Respublikasına dövlət səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikitərəfli münasibətlərin əsas tərkib hissəsi olan enerji təhlükəsizliyi ilə bağlı fikirləri səsləndirmiş və həyata keçirilən layihələrin önəmini vurğulamışdır. “Əlaqələrimizin mühüm hissəsi enerji təhlükəsizliyi ilə bağlıdır. Burada Yunanıstan-Azərbaycan əlaqələri strateji əhəmiyyət daşıyır. TAP layihəsi nəinki enerji təhlükəsizliyi layihəsidir, eyni zamanda, iki ölkə arasındakı dostluq əlaqələrini daha da yüksək pilləyə qaldıracaqdır. Azərbaycanın təşəbbüsü ilə icra edilən “Şahdəniz”, TANAP və TAP hazırda Avropanın ən böyük infrastruktur layihələridir. Bu layihələrin icrası nəticəsində bundan sonra onilliklər ərzində Azərbaycan Avropa bazarına öz təbii qazını ixrac edəcəkdir” (5, s. 3).

“Qarşılıqlı ticari və iqtisadi əlaqələrimizdəki müvəqqəti irəliləyiş və geriləmələrə baxmayaraq, ölkələrimiz arasındakı ticarətin həcmi 25 illik bir müddət üçün qənaətbəxş deyildir və ölkələrin sahib olduqları potensialla müqayisə belə edilə bilməz. Azərbaycanın Yunanıstana ixrac etdiyi məhsulların böyük bir hissəsini neft təşkil edir. Həmin neftin xeyli hissəsi emal olunaraq nəqliyyat vasitələri üçün yanacaq və sürtkü məhsulları şək-

lində geri qayıdır. Digər tərəfdən mərmər, alüminium, sement, lift, havalandırma sistemləri kimi yüksək keyfiyyətli yunan tikinti məhsulları, zeytun, zeytun yağları, konservləşdirilmiş meyvələr kimi dünyada məşhur olan kənd təsərrüfatı məhsulları, eləcə də dərmanlar və mükəmməl əl işi olan xəz-dəri geyimləri, bundan əlavə, ölkəyə üçüncü ölkə vasitəsilə daxil olan xeyli sayda yunan məhsulları artıq Azərbaycan bazarında öz yerini tutmuşdur. 2014-cü il üçün yunan məhsullarının idxalının nəzərəçarpan 12-17%-lik artımına baxmayaraq, mövcud rəqəmlər hələ də kiçikdir və əhəmiyyətli inkişaf üçün hələ də boşluqlar qalmaqdadır. Belə ki, Azərbaycan müvafiq qaydada inkişaf etdirilməyə ehtiyac duyulan geniş potensiala malikdir" (7, s. 320). Bu sözləri fəaliyyət dövrü 2017-ci ildə başa çatmış Yunanıstan Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Dimitrios Tsounqas bildirmişdir. Eyni zamanda, səfir iqtisadi münasibətlərin hazırkı vəziyyəti ilə bağlı öz müsahibəsində bildirmişdir: "Biz anlayırıq və bilirik ki, iki ölkə arasında əməkdaşlıq potensialı böyükdür. Biz Yunanıstan istehsalı olan müxtəlif çeşidli məhsulları Azərbaycanda, Azərbaycan istehsalı olan məhsulları isə Yunanıstanda görmək istəyirik" (8).

***Cədvəl 1. Azərbaycan və Yunanıstan arasında ticarət əlaqələri, 2010-2018-ci illər (min ABŞ dolları ilə)***

| İl | İdxal | İxrac | Ticarət dövriyyəsi |
|---|---|---|---|
| **2010** | 12075,9 | 255012,6 | 267088,5 |
| **2011** | 8863,6 | 208123,8 | 216987,4 |
| **2012** | 15204,5 | 833834,5 | 849039,0 |
| **2013** | 4780,1 | 810325,4 | 815105,5 |
| **2014** | 62789,7 | 255988,3 | 318778,0 |
| **2015** | 16175,5 | 145748,3 | 161923,8 |
| **2016** | 15316,0 | 201377,2 | 216693,2 |
| **2017** | 12135,8 | 159548,2 | 171684,0 |
| **2018** | 9490,4 | 161147,1 | 170637,5 |

***Mənbə*:** (9)

**Nəticə**

Azərbaycan üçün Afrikanın, Avropanın və Asiyanın kəsişmə nöqtəsində yerləşən Yunanıstanla siyasi, iqtisadi və humanitar sahədə münasibətlərin qurulması çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, öz enerji təhlükəsizliyini təmin etmək üçün böyük karbohidrogen ehtiyatlarına və əhəmiyyətli geosiyasi mövqeyə malik olan Azərbaycanla siyasi və iqtisadi münasibətlərin qurulmasında Yunanıstanın maraqlarına daxildir. Yunanıstan Avropa Birliyinin Azərbaycanla əlaqələrini gücləndirməklə bağlı bütün təşəbbüslərini dəstəkləyir. Hər iki tərəf biznes dairələri arasında əlaqələrin genişləndirilməsində maraqlıdır. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsinin işə düşməsi Azərbaycanla Yunanıstan arasında ticari-iqtisadi münasibətlərə müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT

1. Ali qonağın şərəfinə // Azərbaycan qəz., № 71 (5761), 6 aprel 2011-ci il.
2. Azərbaycan İqtisad Universitetində görüş // Azərbaycan qəz., № 144 (3759), 23 iyun 2004-cü il.
3. Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun birgə mətbuat konfransı // Azərbaycan qəz., № 143 (3758), 22 iyun 2004-cü il.
4. Azərbaycan Prezidentinin və xanımının şərəfinə ziyafət // Azərbaycan qəz., № 38 (5142), 18 fevral 2009-cu il.
5. Azərbaycan və Yunanıstan prezidentləri mətbuata bəyanatlarla çıxış etmişlər // Azərbaycan qəz., № 127 (6693), 18 iyun 2014-cü il.
6. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 45-ci kitab (2003 may - 2003 dekabr). Bakı: Azərnəşr, 2013, 392 s.
7. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə / məqalələr toplusu / Bakı: "BEST-TMS" MMC, 2016, 645 s.

***İnternet materialları:***

8. "Azərbaycanda olmaqdan böyük zövq alıram" – Yunanıstan səfiri (Müsahibə) // https://www.aznews.az/news/siyaset/134209.html
9. Azərbaycanın xarici ticarət əlaqələri / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr 2010-2018 – https://www.stat.gov.az/source/trade/
10. Azerbaijan – The Hellenic Republic relations, Brief information on diplomatic relations //http://www.mfa.gov.az/files/file/Azerbaijan_-_Greece_relations_14.08.2014.pdf

***Abstract***

**Ilyas Huseynov**

***Current state and prospects of trade and economic relations between Azerbaijan and Greece***

This article analyzes the current state and prospects of trade and economic relations between Azerbaijan and Greece, as well as the dynamics of development of trade and economic relations between the two countries after the proclamation of state independence of Azerbaijan. The great merits of the national leader of Azerbaijan Heydar Aliyev in establishing trade and economic relations between the two countries are explored, the results of state visits of President of the Republic of Azerbaijan Ilham Aliyev to Greece (2009, 2014), which played an important role in expanding bilateral trade and economic relations, are described in detail. Particular attention is paid to the fact that business forums between the countries have a positive impact on economic relations and trade turnover. In the article, information on imports, exports and general turnover in trade and economic relations between Azerbaijan and Greece for 2010-2018 is expressed in official figures. In recent years, a new stage of trade and economic cooperation between Azerbaijan and Greece has begun, and the energy sector is a key priority in bilateral trade and economic relations. In this regard, it should be noted that the choice of the TAP project, which will transport natural gas to Europe through Greece, will open up broad opportunities for cooperation in other sectors of the economy. Both sides are interested in developing cooperation in the auxiliary areas of energy sector, tourism, food industry, agriculture, construction, information technology, alternative energy sources and other areas. The bulk of trade turnover between two countries constitutes export of crude oil and natural gas from Azerbaijan. Main goods exported from Greece to Azerbaijan are paper products, pharmaceutics, pipes, aluminum profiles and furs. Cooperation in the energy sector serves as a driving force for bilateral trade and economic relations and creates tremendous opportunities for cooperation in the above-mentioned areas. Mutual visits on official and business level, economic forums, exhibitions and other types of events are regularly organized to explore the possibilities of bilateral cooperation opportunities in the non-oil sector. Greek-Azerbaijani Trade Chamber established in 2012 positively contributes to development of bilateral economic and trade relations and promotes direct contacts between the business circles of both countries. Greek-Azerbaijani Friendship and Cooperation Association established in June 2013 with headquarters in Thessaloniki serves for promotion of scientific, cultural and business cooperation based on mutual interest

with particular focus to Northern Greece. Transportation of natural gas via the Trans-Adriatic gas pipeline from the Azerbaijani sector of the Caspian Sea to European markets through Greece will contribute to the growth and strengthening of the national economies of both countries and will play an important role in ensuring the energy security of the European Union.

**Keywords:** *Greece, trade and economic relations, European Union, Trans Adriatic Pipeline, Southern Gas Corridor,diplomacy, energy security, TAP, Shah Deniz*

***Резюме***

***Ильяс Гусейнов***

***Текущее состояние и перспективы торгово-экономических отношений между Азербайджаном и Грецией***

В данной статье анализируется современное состояние и перспективы торгово-экономических отношений между Азербайджаном и Грецией, а также динамика развития торгово-экономических отношений между двумя странами после провозглашения государственной независимости Азербайджана. Исследуется великие заслуги общенационального лидера Азербайджана Гейдара Алиева в установлении торгово-экономических связей между двумя странами, подробно описывается результаты государственных визитов Президента Азербайджанской Республики Ильхама Алиева в Грецию (2009, 2014), которые сыграли важную роль в расширении двусторонних торгово-экономических связей. Особое внимание уделяется тому, что деловые форумы между странами положительно влияют на экономические отношения и товарооборот. В статье информация об импорте, экспорте и общем товарообороте в торгово-экономических отношениях между Азербайджаном и Грецией за 2010-2018 годы выражена в официальных цифрах. В последние годы начался новый этап торгово-экономического сотрудничества между Азербайджаном и Грецией, и энергетический сектор является ключевым приоритетом в двусторонних торгово-экономических отношениях. В этой связи нужно отметить, что выбор проекта ТАР, который будет транспортировать природный газ в Европу через Грецию, откроет широкие возможности для сотрудничества в других сферах экономики. Обе стороны заинтересованы в развитии сотрудничества во вспомогательных сферах энергетики, сельского хозяйства, пищевой промышленности, строительства, туризма, информационных технологий, альтернативных источников энергии и других областях. Основную часть товарооборота между двумя странами составляет экспорт сырой нефти и природного газа из Азербайджана. Основными товарами, экспортируемыми из Греции в Азербайджан, являются бумажная продукция, фармацевтика, трубы, алюминиевые профили и меха. Сотрудничество в энергетической сфере служит локомотивом двусторонних торгово-экономических отношений и создает огромные возможности для сотрудничества в вышеупомянутых областях. Регулярно организуются взаимные визиты на официальном и деловом уровне, экономические форумы, выставки и другие виды мероприятий, чтобы изучить возможности двустороннего сотрудничества в ненефтяном секторе. Греко-азербайджанская торговая палата, созданная в 2012 году, вносит позитивный вклад в развитие двустороннего торгово-экономического сотрудничества и способствует прямым контактам между деловыми кругами обеих стран. Греко-азербайджанская ассоциация дружбы и сотрудничества, созданная в июне 2013 года со штаб-квартирой в Салониках, содействует развитию научного, культурного и делового сотрудничества на основе взаимного интереса с особым акцентом на Северную Грецию. Транспортировка природного газа по Трансадриатическому газопроводу из азербайджанского сектора Каспийского моря на европейские рынки через Грецию будет способствовать росту и укреплению национальных экономик обеих стран и будет играть важную роль в обеспечении энергетической безопасности Европейского Союза.

***Ключевые слова:*** *Греция, торгово-экономические отношения, Европейский Союз, Трансадриатический трубопровод, Южный газовый коридор, дипломатия, энергетическая безопасность, ТАП, Шах-Дениз*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 32; 327**

# GEOSİYASİ REALLIQLAR VƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ PRİORİTET VƏZİFƏLƏRİN MÜƏYYƏNLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Kəmalə QURBANOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 23 fevral 2019; çapa qəbul edilmişdir: 17 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 23 February 2019; accepted: 17 June 2019; published online: 25 September

***Açar sözlər:*** *Heydər Əliyev, xarici siyasət, talassokratiya, tellurokratiya, rimlənd*

## Giriş

Şərqlə Qərbin, Şimalla Cənubun kəsişdiyi coğrafi məkanda yerləşən, zəngin maddi və mədəni irsə malik olan Azərbaycan tarixən özünün coğrafi-siyasi mövqeyinə görə sivilizasiyaların qovşağında olmuş və onların təsirini öz üzərində hiss etmişdir. XX əsrin əvvəllərində talassokratiya ilə (Qərb) tellurokratiya (sovet Rusiyası) arasında Qafqaz uğrunda, o cümlədən Azərbaycan uğrunda gedən mübarizə şəraitində Azərbaycan "rimlənd" (aralıq zona) rolunda olan ölkələr sırasında idi. "Rimlənd" isə potensial baxımından ya "talassokratiya"nın, ya da "tellurokratiya"nın fraqmentinə çevrilə biləcək mürəkkəb bir məkandır. Elə bu səbəbdəndir ki, "rimlənd" uğrunda mübarizə adi strateji mövqeyə malik olmaq uğrunda rəqabət deyildir [5, s. 27].

Qeyd edək ki, XX əsrin əvvəllərində, xüsusilə I Dünya müharibəsindən sonra bu zona uğrunda aparılan amansız mübarizə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətdə uğur qazanmamasına səbəb olan əsas amillərdən olmuşdur. Yaranmış ictimai-siyasi durumda yürüdülən birtərəfli xarici siyasət xətti Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin daha uzunmüddətli olmasına imkan verməyən başlıca amillərdən biri olmuşdur. Nəticədə isə dünyanın geosiyasi xəritəsinin hartlənd (əsas torpaq) hissəsində yerləşən Azərbaycan birmənalı olaraq quru hakimiyyətini-tellurokratiyanı təmsil edən SSRİ-nin tərkib hissəsinə çevrilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illiyi ilə bağlı imzaladığı sərəncamda deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir" [1].

## Yeni geosiyasi reallıqlar şəraitində Azərbaycan Respublikasının xarici siyasəti

XX əsrin 90-cı illərində isə SSRİ-nin süqutu ilə beynəlxalq siyasi-gerçəklik daha da mürəkkəbləşmiş və çoxcəhətli olmuşdur. Elə müstəqilliyimizin ötən 21 ilində keçid dövrünün mahiyyətini müəyyən edən sosial, iqtisadi və siyasi proseslər də bu gerçəklikdə öz əksini tapır. 70 illik bir dövr ərzində ikiqütblü dünyanın iki əsas güc mərkəzindən biri

* tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti
*e-mail: kamala-qurbanova@mail.ru*

olmuş SSRİ-nin süqutu ilə beynəlxalq münasibətlər sistemi həm tərkibinə, həm də xarakterinə görə dəyişdi. İlk dövrlərdə siyasi nəzəriyyəçilər tərəfindən dünyada ABŞ-ın şərtsiz liderliyi və təkqütblü dünya nəzəriyyəsi irəli sürülsə də, tarixi gedişat göstərdi ki, dünya təkqütblü deyil, çoxqütblü sistemin formalaşmasına doğru gedir. Həm də bu beynəlxalq sistemin qütblərində yalnız dövlətlər deyil, bir sıra digər yeni subyektlər – hökumətlərarası beynəlxalq və qeyri-hökumət təşkilatları, hətta transmilli korporasiyalar da durur. Bir çox hallarda isə qütblərarası mübarizənin taleyinin müəyyənləşməsində müxtəlif iqtisadi və siyasi rıçaqları əlində cəmləşdirmiş bu tip yeni subyektlər mühüm rol oynayırlar.

Azərbaycanın müstəqillik dövrü xarici siyasət xəttinə nəzər saldığımız zaman 3 mərhələni müşahidə etmək mümkündür. Birinci mərhələ suverenliyini və müstəqilliyini elan etməsinə baxmayaraq, hələ də SSRİ-nin və onun varisi olan Rusiyanın təsirindən çıxa bilməyən Azərbaycanın yeni şəraitdə məhdud xarici əlaqələri ilə xarakterizə edilə bilər. 1992-1993-cü illərin ortalarını əhatə edən ikinci mərhələ isə birmənalı şəkildə Qərbmeyilli siyasət yürütmək cəhdləri, regionun iri gücləri ilə münasibətlərin gözardı edilməsi şəraitində milli dövlətçiliyin ciddi təhlükələr girdabına sürüklənməsi ilə xarakterizə olunur. Bu dövrdə vüsət alan digər bir tendensiya – xarici siyasətin yalnız etnik və dini təəssübkeşlik üzərində qurulması da [4, s. 232] o dövrdəki Azərbaycan hökumətinin zamanın sınağından çıxa bilməməsinin əsas səbəblərindən biri olmuşdur. İlk iki dövrdə yürüdülən xarici siyasət xətlərinin heç birinin mahiyyətcə özünü doğrultmaması bir tərəfdən dünyada və regionda yaranmış ağır və qarışıq geosiyasi durumla bağlı idisə, digər tərəfdən xarici siyasət xəttinin, onun priortietlərinin müəyyənləşdirilməsi ilə bağlı təcrübəsizlikdən və bir çox hallarda avantürizmdən irəli gəlirdi. Bu isə müstəqil Azərbaycan Respublikasının taleyini sual altında qoyurdu.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin formalaşması həm də Azərbaycanda müstəqil dövlət quruculuğu prosesi ilə müşayiət olunduğundan dövlətin rastlaşdığı bütün problemler onun xarici siyasətinə də öz təsirini göstərmişdir. SSRİ-nin və keçmiş sosialist birgəyaşayış tərzinin təsirindən qurtarmaq, müstəqil xarici siyasət kursu formalaşdırmaq, onun əsas prioritetlərini, məqsəd və vəzifələrini, istiqamətlərini müəyyən etmək, dünya siyasəti müstəvisinə çıxmaq və beynəlxalq münasibətlər sisteminə qatılmaq gənc və təcrübəsiz dövlət üçün o qədər də asan bir iş deyildi. Odur ki, müstəqilliyin ilk illərində ölkənin xarici siyasət kursunda və hökumətin bu yönlü fəaliyyətində ciddi nöqsanlar, ziddiyyətli, qeyri-müəyyən və qeyri-ardıcıl qərarlar da olmuşdur ki, bütün bunlar Azərbaycanın həm daxili həyatına, müstəqil dövlət quruculuğu prosesinə, həm də onun dünya siyasəti və beynəlxalq münasibətlər sisteminə qatılması işinə öz mənfi təsirini göstərmişdir.

**Xarici siyasətdə Heydər Əliyev epoxası**

1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə xarici siyasətdə yeni bir mərhələ başladı. Bu mərhələ dünyanın geosiyasi güclərinin strateji və iqtisadi maraqlarının kəsişdiyi regionda yerləşən Azərbaycanın xilası mərhələsi idi. Heydər Əliyev dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin qurulmasını prioritet istiqamət kimi irəli sürərək regionda yerləşən iri güc mərkəzləri ilə münasibətləri yaxşılaşdırdı, eyni zamanda Azərbaycanın Qərb dövlətləri (ABŞ və Avropa dövlətləri) ilə inkişaf edən əlaqələrinin daha praqmatik xarakter almasını təmin etdi.

Hələ 1993-cü ilin oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi

andiçmə mərasimində ümummilli lider Heydər Əliyev xarici siyasətin məhz bu prinsiplərə əsaslanacağına işarə edərək deyirdi: "...respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. ...Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [4, s. 220].

Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdən başlayaraq xarici dövlətlərlə əlaqələr tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminatı üzərində qurulmağa başladı. Sovet Ittifaqının dağılmasından sonra Qafqaz uğrunda yenidən nüfuz mübarizəsinə qoşulmuş Avropa ölkələri və ABŞ-la, postsovet ölkələri, o cümlədən tezliklə keçmiş nüfuzunu özünə qaytarmaq niyyətində olan Rusiya ilə, Qərblə açıq qarşıdurma şəraitində olan İranla, müsəlman dünyası ilə, türkdilli dövlətlər və Türkiyə ilə, yeni dünya liderliyinə iddialı olan Çin, Yaponiya kimi ölkələrlə əlaqələrin normal məcraya yönəldilməsi məqsədi ilə xarici əlaqələrin prioritetləri müəyyənləşdirildi. Balanslaşdırılmış xarici siyasət xəttinin yürüdülməsi yeni qurulmaqda olan Azərbaycan dövlətinin güclənməsi, siyasi, iqtisadi və hərbi gücünü bərpa etməsi üçün ən ideal yol idi. Məlumdur ki, iqtisadi müstəqilliyi təmin etmədən, hərbi qüdrətə sahib olmadan siyasi müstəqilliyin uzunmüddətli qorunub saxlanılması qeyri-mümkündür. Təsadüfi deyildir ki, xarici siyasətdə Azərbaycandan fərqli yol seçən digər iki Cənubi Qafqaz ölkəsinin siyasi, iqtisadi və hərbi müstəqilliyi birbaşa olaraq fövqəlgüclərin mövqeyi ilə bağlıdır. Azərbaycan isə regionda maraqları toqquşan tərəflər arasında orta mövqeyi tutmaqla həm də geosiyasi tarazlığın tənzimləyicisi rolunda çıxış etməyə başladı. Məhz bunu nəzərə alan bir çox tədqiqatçılar qeyd edirlər ki, Heydər Əliyevin praktik nəzəri baxışları nəinki Azərbaycanın, o cümlədən, Qafqazın və Avropanın təhlükəsizlik konsepsiyasının təşəkkülündə böyük rol oynamışdır.

Təsadüfi deyildir ki, müstəqilliyini möhkəmləndirməyə başlayan Azərbaycanın regiondakı mövqeyi haqqında Amerikalı tədqiqatçı Zbiqnev Bjezinski yazır: "Ərazisinin miqyaslarının məhdud və əhalisinin say etibarı ilə əhəmiyyətsiz olmasına baxmayaraq, böyük enerji resurslarına malik Azərbaycan da geosiyasi planda həlledici əhəmiyyət kəsb edir. Bu, Xəzər dənizi hövzəsi və Orta Asiyanın zəngin resurslarının olduğu "bardağ"ın boğazındakı tıxacdır. Əgər Azərbaycan tam şəkildə Moskvanın nəzarətinə tabe edilmiş olarsa, Orta Asiya dövlətlərinin müstəqilliyini praktik olaraq əhəmiyyətsiz anlayış kimi nəzərdən keçirmək olar" [2, s. 72-73].

Balanslaşdırma siyasətinin praktikada ilk konturları artıq tarixi "Əsrin müqaviləsi" neft kontraktının imzalanması zamanı göründü. "Əsrin müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustondakı son mərhələlərinin xüsusilə ağır keçməsi də məhz bu siyasətlə birbaşa bağlı idi. Öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə fövqəladə əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın milli maraqlarını prioritet tutmaqla müxtəlif tərəflərin Azərbaycandakı maraqlarını da müəyyən mənada balanslaşdırılmış oldu. Təsadüfi deyildir ki, "Əsrin müqaviləsi"ni dünyanın 8 ölkəsinin, o cümlədən, ABŞ-ın, Böyük Britaniyanın, Rusiyanın, Türkiyənin, 13 ən məşhur neft şirkəti imzaladı [7, s. 532).

Məhz Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirmək

üçün tarixən formalaşmış xarici siyasi, iqtisadi və mədəni əlaqələrdən birbaşa imtina edilməsi kimi məhdud baxışlara əsaslanan xarici siyasətə son qoydu. Əksinə bu əlaqələrdən Azərbaycanın mənafeləri naminə səmərəli istifadə etməklə, region dövlətlərinin köklü mənafelərinə və maraqlarına toxunmamaq şərti ilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirilməyə başladı.

**Rusiya ilə əlaqələr**

Əvvəlki xarici siyasət xəttinin ən təhlükəli məqamlarından biri olan Rusiya ilə birmənalı qarşıdurma mövqeyi dəyişdirilərək, əlaqələr müsbət istiqamətdə inkişaf etdirilməyə başlandı. 1993-cü ilin sentyabrında ümummilli lider Heydər Əliyev Rusiyaya səfər etdi. Moskvada Rusiya prezidenti Boris Yeltsin və digər rəsmi şəxslərlə görüşlər keçirildi, sentyabr ayının 24-də isə Azərbaycan MDB-yə daxil oldu. Bu barədə ümummilli lider deyirdi: "Sentyabrın 24-də biz MDB-yə daxil olduq. Hesab edirəm ki, bu, lazımlı, mühüm addım idi və gələcəkdə Azərbaycan MDB-nin tərkibində olmalıdır" [3, s. 24]. Bununla da Azərbaycan Rusiyaya düşmən mövqedə olmadığını ortaya qoydu və Rusiyadakı imperiyapərəst qüvvələrin bütün bəhanələrini zərərsizləşdirərək, onların bitərəfləşdirilməsinə nail oldu.

1997-ci ilin iyul ayının 3-də isə ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasını təşkil edən əsas sənəd Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" müqavilə imzalandı. 2001-ci il yanvar ayının 9-10-da Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana ilk rəsmi səfəri ilə iki ölkə arasında qarşılıqlı münasibətlərin prinsiplərinin əsası qoyuldu. İkitərəfli əlaqələrlə bağlı Bakı Bəyannaməsi imzalandı. 2002-ci ilin yanvarında ulu öndər Heydər Əliyevin Rusiyaya dövlət səfəri isə iki qonşu dövlət arasında münasibətlərdə tamamilə yeni mərhələnin əsasını qoydu [9].

**Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələr**

1993-cü ildə Azərbaycan müdrik siyasətçi Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Yaxın və Orta Şərqin ən nüfuzlu və aparıcı ölkələri olan İran və Türkiyə kimi nüfuzlu və regionda qonşuluq, eyni zamanda təhlükəsizlik maraqları olan dövlətlərlə sıx qarşılıqlı münasibətlər formalaşdırıldı.

Türkiyə ilə əlaqələr ən yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatdırıldı.1993-cü ilin yayından başlayaraq Türkiyəyə münasibətdə xarici siyasət kursunda ciddi dəyişikliklər edildi. Azərbaycan-Türkiyə münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoydu. "Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin böyük bir tarixi var. Biz kökü eyni olan xalqlarıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyunca xalqlarımız bir-birinə bənzəyən yaxud çox az fərqlənən adət-ənənələrini, mədəniyyətini və elmini qorumuş və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş çiyin-çiyinə dayanmışlar". Ulu öndər Heydər Əliyevin bu fikirləri onun Azərbaycan qədər Türkiyəyə qarşı da sayqısının, sevgisinin ifadəsi olmuşdur. Azərbaycanı və Türkiyəni bir millətin iki dövləti olaraq xarakterizə edən Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin təməlini qoyarkən ilk növbədə Türkiyə Cümhuriyyətinin dəstəyinə arxalandığı kimi, qüdrətli və güclü Azərbaycanın gələcək iqtisadi və siyasi planlarını da qardaş Türkiyəni düşünərək müəyyənləşdirmişdir.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi, məhz onun hakimiyyəti dövründə Türkiyə ilə Azərbaycan arasında 90-a yaxın saziş və müqavilələrin imzalanması ümummilli lider Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin hansı səviyyədə olduğunun göstəricisi olmuşdur.

Etnik-mədəni bağlılıq, tarixi köklər, ortaq dəyərlərlə yanaşı ümummilli lider ortaq iqtisadi və siyasi maraqların təmin olunmasını da hər zaman əsas götürmüşdür. Təsadüfi deyildir ki, dünyanın ən zəngin neft yataqlarına sahib olan Azərbaycan öz neftinin digər ölkələrə nisbətən Türkiyə üzərindən dünya bazarına çıxarılmasına daha çox üstünlük vermişdir. Bu mənada Azərbaycan-Türkiyə münasibətlərinin daha yüksək səviyyəyə qalxmasında 1994-cü ilin 20 sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın müxtəlif ölkələrinin 11 böyük neft şirkəti arasında bağlanmış "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin əhəmiyyəti də böyük olmuşdur. Qeyd etmək lazımdır ki, müqavilənin imzalandığı ilkin dövrdə müqavilədə Türkiyənin payı 1,75 faiz olsa da, sonradan Türkiyə dövlət başçılarının istəklərini və Türkiyə-Azərbaycan ortaq maraqlarını nəzərə alan ümummilli lider müqavilə imzalanandan sonra Azərbaycana qalmış hissədən 5 faiz də Türkiyə şirkətlərinə yer ayırtdırmışdır. Beləliklə də, müqavilədə Türkiyənin payı 6,75 faizə çatdırılmışdı. Hələ o zaman ulu öndər uzaqgörənliklə bir məsələyə toxunaraq demişdir: "Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik".

Bütün bu amilləri nəzərə alan ümummilli lider Heydər Əliyev davamlı təzyiqlərə baxmayaraq müdrik və uzaqgörən qərar qəbul etmiş, 1996-cı ildə martın 8-də Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəlmişdilər. Bakı-Supsa xətti ilə neftin ixracı isə Azərbaycanla yanaşı birbaşa olaraq Türkiyənin də maraqlarına cavab verən məqam olmuşdur. Bakı-Supsa neft kəməri ilə ilkin Azərbaycan nefti 1999-cu il aprelin 17-də ixrac olunmağa başlanmışdır.

Aparılan gərgin və məqsədyönlü siyasət nəticəsində İranla gərgin siyasi-ideoloji qarşıdurma aradan qaldırıldı. 1993-cü ilin oktyabrında İran İslam Respublikasının Prezidentinin Azərbaycana, 1994-cü ilin iyun-iyul aylarında isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasına yüksəksəviyyəli səfərləri İranın müstəqil Azərbaycan Respublikasının tutduğu mövqe ilə bağlı nigarançılıqlarına əsasən son qoydu. Nəticədə isə İran dövləti ilə də hər iki ölkənin xalqlarının mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli siyasi, iqtisadi, mədəni münasibətlər yaradıldı. Qərb dövlətlərinin də iştirak etdiyi neft konsorsiumunda İrana da yer ayrıldı, "Şahdəniz" yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə də pay verildi. İki ölkə arasında münasibətlərin bütün sahələrini əhatə edən sənədlər imzalandı [6, s. 255].

**Avroatlantik məkan və beynəlxalq təşkilatlarla əməkdaşlıq**

Azərbaycanın xarici siyasət prioritetlərindən biri kimi Qərb ölkələrinin təmsil olunduğu Avropa Birliyi sisteminə və qlobal dünya siyasəti məkanı hesab edilən avroatlantik məkana inteqrasiya müəyyənləşdirildi. Qurulan düzgün ikitərəfli və çoxtərəfli münasibətlərin nəticəsi olaraq Avropa ölkələri və ABŞ-ın imkanlarından səmərəli istifadə edilməklə ölkənin daxili iqtisadi, sosial və digər strukturlarında islahatlara başlanıldı. Planetin strateji əhəmiyyət kəsb edən qlobal məsələlərinin həllində təsir gücünə malik olan ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi nüfuzlu dövlətlərin diqqətini Azərbaycan cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq ardıcıl iş aparıldı.

Ayrı-ayrı dövlətlərlə ikitərəfli əlaqələrini inkişaf etdirməklə yanaşı, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri də diqqətdə saxlanılmağa başladı. BMT, Avropa Birliyi, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatı çərçivəsində qurulan əlaqələr ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb oldu.

Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra xarici ölkələr  və beynəlxalq təşkilatlarla əlaqələr normallaşdırıldıqca Azərbaycan Respublikasına, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı informasiya blokadasının yarılması məqsədi ilə də ciddi addımlar atıldı.

Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə yanaşı, Azərbaycanın böyük bir ərazisinin Ermənistan tərəfindən blokadada saxlanılması gerçəklikləri də nüfuzlu beynəlxalq təşkilatların diqqətinə çatdırıldı.

Heydər Əliyevin hələ Azərbaycan prezidenti seçilməmişdən əvvəl dünyanın ən böyük beynəlxalq təşkilatı sayılan Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələrin inkişaf etdirilməsinə ciddi diqqət yetirirdi. 1993-ci ilin fevral ayının 2-də Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi Mahmud əs-Səid Naxçıvan Muxtar Respublikasına səfər etdi. Səfər çərçivəsində nümayəndə o zaman Naxçıvan MR Ali Məclisinin Sədri olan Heydər Əliyevlə görüşdü. Elə həmin il fevralın 11-də  Birləşmiş Millətlər Təşkilatının Qaçqınlarla iş üzrə Ali Komissarının Azərbaycan Respublikasındakı nümayəndəsi Petrik Smit və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin əməkdaşları Naxçıvandakı qaçqınların vəziyyətini öyrənmək üçün muxtar respublikaya səfər etdilər. Bu görüşdə müdrik siyasətçi Heydər Əliyev mövcud reallığı xarici nümayəndələrin diqqətinə çatdırdı.

Sonrakı dövrlərdə də Naxçıvan Muxtar Respublikası dünyanın ən nüfuzlu təşkilatının nümayəndələrinin tez-tez səfər etdiyi ölkə regionlarından biri kimi tarixə düşdü. 1997-ci ilin mart ayının 3-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ekspert qrupunun rəhbəri Kristofer Taleş və təşkilatın inkişaf proqramının müstəqil məsləhətçisi Zeynəb Özqan, 1997-ci ilin mayında Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi Paolo Lembo Naxçıvana səfər etdi. Keçirilən görüşlər zamanı  Naxçıvandakı mövcud durum, blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədi ilə həyata keçirilən işlər və mövcud olan problemlər barədə beynəlxalq təşkilat nümayəndələrinə məlumat verildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və BMT-nin nümayəndəsi Paolo Lembo tərəfindən Naxçıvanın regional inkişafına dair BMT proqramı imzalandı [8].

Ümummilli liderin müəyyən etdiyi xarici siyasətdə qonşu dövlətlərlə ticarət əlaqələrinin liberallaşdırılması diqqət mərkəzində saxlanılan məsələlərdən idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında" 17 dekabr 1996-cı il tarixli fərmanına əsasən 1997-ci ilin fevral ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən Naxçıvan Muxtar Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında fərman imzalandı. Fərman xarici ticarətin liberallaşdırılması, xarici ticarətdə rezidentlər üçün daha əlverişli şəraitin yaradılması məqsədi daşıyırdı. Fərmanların imzalandığı tarixdən sonrakı dövrdə muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi sürətlə artmağa başladı.

Naxçıvan Muxtar Respublikası müstəqilliyimizin ilk illərində olduğu kimi, 1993-cü ildən sonrakı dövrdə də qardaş Türkiyə Cümhuriyyəti ilə sıx iqtisadi, mədəni əlaqələrə malik olmuşdur. Əsası ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən qoyulan xarici siyasətdə Türkiyə Cümhuriyyəti ilə qarşılıqlı əməkdaşlıq xətti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən də uğurla davam və inkişaf etdirilməyə başladı.

Heydər Əliyevin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən İran rəsmiləri ilə qurduğu xoşməramlı əlaqələr öz bəhrəsini verməyə başladı. 8 mart 1993-cü il tarixdən Naxçıvanda fəaliyyətə başlayan İran İslam Respublikasının Baş Konsulluğu ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətli rol oynadı. Sonrakı mərhələdə də İranla, o cümlədən İranın həmsərhəd ostanlıqları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında əlaqələr yüksələn xətlə inkişaf etdirildi. Bir çox yüksəksəviyyəli qarşılıqlı səfərlər həyata keçirildi. Naxçıvan üçün həyati əhəmiyyət kəsb edən bir çox razılaşmalar əldə edildi.

**Nəticə**

Beləliklə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən balanslaşdırılmış xarici siyasət xətti müstəqil dövlətimizin regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə layiqincə təmsil olunmasına, milli mənafelərin praqmatik şəkildə müdafiəsinə imkan yaratdı.Ümummilli lider Heydər Əliyev dünyanın fövqəldövlətlərinin Azərbaycan və onun karbohidrogen ehtiyatları ilə bağlı toqquşan maraqlarını uzlaşdırmaqla Azərbaycanı gerçək müstəqillik yoluna çıxardı. Müdrik siyasət nəticəsində Azərbaycan Respublikası ilə qonşu olan regional liderlik iddiasında olan dövlətlərlə də münasibətlər Azərbaycanın milli-dövlət maraqları çərçivəsində inkişaf etdirildi. Azərbaycan Respublikası özünün təbii sərvətlərindən də istifadə etməklə bir çox məsələlərdə haqlı mövqeyinin dünyaya çatdırılmasını təmin etdi. Ermənistanı bütün regional iqtisadi layihələrdən kənarda saxlayacaq strategiyanın əsas konturları müəyyənləşdirildi.

## QAYNAQLAR


1. "Azərbaycan Xalq Cumhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 30.01.1998//Azərbaycan qəzeti, 31.01.1998-ci il.
2. Bjezinski Z. Böyük şahmat taxtası (Amerikanın hökmranlığı və onun geostrateji imperativləri), Bakı: Qanun nəşriyyatı, 2011, 328 s.
3. Əliyev H. Müstəqilliyimiz əbədidir II kitab, Bakı: Azərnəşr, 1997, 604 s.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.
5. Məmmədov N. Geosiyasətə giriş. I cild. Geosiyasətin nəzəri əsasları. Bakı: Azərbaycan, 2011, 573 s.
6. Məmmədov N. Geosiyasətə giriş. II cild. Müasir geosiyasi proseslər. Bakı: Azərbaycan nəşriyyatı, 2011, 413 s.
7. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi, Bakı: BDU nəşriyyatı, 2002, 532 s.
8. "Şərq qapısı" qəzeti, 1995-2000-ci illər, №32 (16.569).
9. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=13955


***Резюме***

***Камаля Гурбанова***

***Геополитические реалии и роль Гейдар Алиева в установленной внешне-политического приоритета Азербайджана***

Статья посвящена установление внешне-политического приоритета Азербайджана в геополитике установленной Гейдаром Алиевом, автор статью исследует проблему геополитической реализации Азербайджана. В начале XX века Азербайджан входил в число стран "промежуточного звена" (промежуточной зоны) в борьбе за талакократи, (западую) между теллурократией (Советская Россия) Кавказ, включая Азербайджан. Страна, имеющей богатое материально-культурное наследие в географической районе пересекаемом Востоком и Западом, исторически находился на перекрестке цивилизации и его влияние на географическое и политическое положение. Установив сбалансированную внешнюю политику Азербайджана благодаря общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым, позволила Азербайджану представлять свою независемую государство в основных экономических, политических и культурных процессах во всем миру и прагматично защищать интересы своего региона. Автор этой статьи хорошо отметил, что практические теоретические взгляды Гейдара Алиева сыграли важную роль в формировании концепции безопасности Азербайджана включая Кавказ и Европу. Первые контуры балансирующей безопасности политики были уже при подписании нефтяного договора «Контакта Века». Не случайно Збигнев Бжезинский, американский исследователь, описывает позицию Азербайджана в регионе в укреплении его независимости: «Несмотря на то, что масштабы его территории незначительны, а население незначительно, Азербайджан с большими энергетическими ресурсами (нефт и газ) также имеет решающее значение в геополитическом плане». Приоритетные национальные интересы Азербайджана, интересы различных сторон в Азербайджане также были сбалансированы. Неслучайно «Контракт века» подписали 13 самых известных нефтяных компаний из 8 стран, в том числе США, Великобритании, России, Турции. Таким образом, взвешенная внешняя политика, определенная общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым, позволила нам надлежащим образом представлять наше независимое государство в основных экономических, политических и культурных процессах, происходящих в регионе и во всем мире, и прагматичной защите национальных интересов.

***Ключевые слова:*** *внешняя политика, Гейдар Алиев, талассократия, теллурократия, римлянд*

***Summary***

***Kamala Qurbanova***

***Geopolitical realities and the role of Heydar Aliyev in establish foreign Political priorities of Azerbaijan***

Present articles is dedicate to establishing foreign political priorities in Azerbaijan owing national leader Heydar Aliyev, author research of geopolitical problem of realization in Azerbaijan. In beginning of XX century Azerbaijan was in numbers of countries “intermediate link” (intermediate zone) in fight for thalassocracy (western) between tellurocracy (Soviet Russia), Caucasus include Azerbaijan. The countries with a rich material and cultural heritage in geographical area intersected by East and West, historically located at the crossroads civilization and its influence on the geographical and political situation. Establishing a balanced foreign policy of Azerbaijan thanks to the national leader of the Azerbaijani people, Heydar Aliyev, allowed Azerbaijan to represent its independent state in the main economic, political and cultural processes throughout the world and pragmatically protect the interests of its region.  he author of this article noted well that the practical theoretical views of Heydar Aliyev played an important role in shaping the concept of security of Azerbaijan, including the Caucasus and Europe. The first contours of the balancing security policy were already at the signing of the oil contract “Contact of the Century”. It is not by chance that Zbigniew Brzezinski, an American researcher, describes Azerbaijan’s position in the region in strengthening its independence: “Although the size of its territory is insignificant and the population is insignificant, Azerbaijan with large energy resources is also of decisive importance in geopolitical terms. The priority national interests of Azerbaijan, the interests of various parties in Azerbaijan were also balanced. It is no coincidence that the “Contract of the Century” was signed by the 13 most famous oil companies from 8 countries, including the USA, Great Britain, Russia, and Turkey. Thus, a balanced foreign policy determined by the national leader of the Azerbaijani people, Heydar Aliyev, allowed us to properly represent our independent state in the main economic, political and cultural processes taking place in the region and around the world, and pragmatic protection of national interests.

***Key words:*** *foreign policy, Heydar Aliyev,  thalassocracy, tellurocracy, rimland*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327: 314.153**

# FARS KÖRFƏZİNDƏ İNGİLTƏRƏNİN GEOSİYASİ STRATEGİYASI

**Rəşad ƏYYUBZADƏ**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 13 may 2019; çapa qəbul edilmişdir: 27 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 13 May 2019; accepted: 27 June 2019; published online: 25 September

***Açar sözlər**: Fars körfəzi, Böyük Britaniya, xarici siyasət, strategiya, maraqlar, Yaxın Şərq*

## Giriş

Böyük Britaniyanın Fars körfəzi regionu ilə bağlı olan geosiyasi və geoiqtisadi maraqları ümumilikdə, onun Yaxın Şərqlə bağlı maraqlarının mühüm hissəsini təşkil edir. Hər şeydən öncə, nəzərə almaq lazımdır ki, region ölkələrinin əksəriyyəti vaxtilə Britaniya imperiyasının istilasında olmuşdur. XX əsrin ikinci yarısında Britaniya özünün nəzarət imkanları itirdikdən sonra o, bütövlükdə region ölkələri ilə geosiyasi qarşılıqlı münasibətlərinə yenidən baxmalı oldu. Böyük Britaniyanın regionla bağlı maraqlarına diqqət yetirsək, görərik ki, o, Fars körfəzini ayrıca deyil, Yaxın Şərq regionu strateji bir hissəsi kimi nəzərdən keçirir və müvafiq olaraq bütün region üçün vahid geosiyasi strategiya tətbiq etməyə çalışır.

## Fars körfəzində Böyük Britaniya və ABŞ maraqlarının uzlaşdırılması

Artıq qeyd edildiyi kimi, Fars körfəzi bir qayda olaraq Yaxın Şərqin cöğrafi sərhədləri çərçivəsində nəzərdən keçirilir. Bunun əsasında klassik ingilis geosiyasi fikirləri dayanır. Məsələn, məşhur ingilis geosiyasi nəzəriyyəçisi H.Makkinder Avrasiya regionunun (Hardlend) dünya hökmranlığını müəyyənləşdirdiyini əsaslandırmışdır. Avrasiyaya qarşı dura bilmək üçün regionun “daxili yarımayına” daxil olan dövlət üzərində nəzarəti ələ almaq lazımdır. Makkinderə görə, Fars körfəzi də daxil olmaqla, Yaxın Şərq Avrasiyanın kənar regionunu təşkil edir. Məhz bu ərazilər dəniz dövlətləri üçün əlçatandır. Yəni Makkinder bununla demək istəyirdi ki, Böyük Britaniyanın bu regionu nəzarətə götürmək imkanları kifayət qədər böyükdür [2, s. 163]. Bundan başqa, Makkinder bununla regionun olduqca böyük strateji əhəmiyyətini əsaslandırmış olur və dəniz dövlətləri tərəfindən bu regionun nəzarət altında saxlanılmasının vacibliyini nəzərə çatdırmışdır.

Burada dəniz dövlətləri kimi ABŞ və Böyük Britaniya nəzərdə tutulur. Makkinderdən başlayaraq Böyük Britaniyanın xarici siyasət nəzəriyyələrində həm ayrıca Fars körfəzinin, həm də ümumilikdə Yaxın Şərqin geosiyasi əhəmiyyəti ciddi şəkildə əsaslandırılmışdır və Böyük Britaniyanın bu regionla bağlı xüsusi strategiyasının hazırlanmasının vacibliyi qeyd edilmişdir. Məlumdur ki, bütün Soyuq Müharibə dövründə region ABŞ və SSRİ arasındakı qarşıdurmanın mərkəzində dayanmışdır. SSRİ-nin süqutu və bipolyar

[*] doktorant, AMEA Fəlsəfə İnstitutu
*e-mail: rashad.ayyubzada@gmail.com*

dünya sisteminin çökməsindən sonra bütövlükdə Yaxın Şərq regionunda siyasi vəziyyət əhəmiyyətli dərəcədə gərginləşmişdir. ABŞ və Böyük Britaniya regionda SSRİ-nin itirmiş olduğu mövqeləri ələ keçirmək üçün fəallıq nümayiş etdirirdilər.

Xüsusilə Fars körfəzi dövlətlərində sürətlə ABŞ və Böyük Britaniyanın mövqeləri güclənməyə başlamışdır. Regionda əsasən ABŞ koordinasiya olunmuş fəaliyyət göstərsə də Böyük Britaniya öz milli maraqları çərçivəsində xüsusi fəaliyyət göstərməyə çalışırdı. Bununla Böyük Britaniya dünya siyasətində özünün çəkisini müəyyənləşdirməyə can atırdı. Soyuq müharibədən sonra Rusiya ətrafında dairə əhəmiyyətli dərəcədə daralmışdır. SSRİ-nin keçmiş müttəfiqləri Atlantik Siyasi Doktrinasını qəbul etmişlər. Fars körfəzi dövlətləri də Qərblə daha yaxından əməkdaşlıq etməyə meylliliklərini büruzə verirdilər. Təbii ki, burada əsasən ərəb dövlətləri nəzərdə tutulur. Hesab edilir ki, Fars körfəzi regionu bütövlükdə Yaxın Şərq regionunda mövqelərin möhkəmləndirilməsi üçün unikal imkanlar verir. Yaxın Şərq regionu üzərində nəzarətin təmin olunması isə postsovet ölkələrinə real çıxış imkanları verirdi.

Bu baxımdan Böyük Britaniya və ABŞ Fars körfəzi regionunda bütün təsir vasitələrini ələ keçirmək üçün ardıcıl geosiyasi strategiya həyata keçirməyə başlamışlar. Bu strategiyanın əsas hədəflərindən biri isə bütövlükdə Avrasiya regionunda NATO-nun mövqelərinin gücləndirilməsindən ibarətdir. Deməli, yenə də Böyük Britaniyanın və ABŞ-ın mövqelərinin güclənməsi təmin olunmalıdır. Təbii ki, regionda cərəyan edən proseslərə təsir istiqamətində hazırkı mərhələdə də ABŞ, Rusiya və Avropanın fəallığı davamlı olaraq müşahidə olunmaqdadır. Avropanı isə, əsasən, Böyük Britaniya təmsil edir. Böyük Britaniyanın Fars körfəzindəki fəallığında onun ABŞ-la müttəfiq münasibətləri həlledici rol oynayır. ABŞ tərəfi Böyük Britaniya ilə xüsusi münasibətlərin inkişaf etdirilməsində olduqca maraqlıdır. Belə ki, ABŞ özünün strategiyasının həyata keçirilməsində Böyük Britaniyanın real dəstəyini hiss edir. Məsələn, ABŞ-ın sabiq prezidenti B. Obama ilə D. Kemeron Yaxın Şərqdə onların maraqlarına cavab verməyən rejimlərə qarşı birgə güc yolu ilə mübarizə aparmaq haqqında razılaşma əldə etmişlər [7]. Bir qrup analitiklər hesab edirlər ki, ABŞ və Böyük Britaniya hazırkı mərhələdə yeni müstəmləkəçilik siyasətini həyata keçirməkdədirlər. Bu da onu qeyd etməyə əsas verir ki, Böyük Britaniyanın ABŞ yanında daha ciddi mövqelərə malik olmaq imkanları vardır. Atlantik siyasəti Böyük Britaniyaya Böyük Yaxın Şərqin yenidən qurulmasında həlledici rola malik olmasını təmin edir. Təsadüfi deyildir ki, Fars körfəzi dövlətləri ilə ən yaxın əməkdaşlıq münasibətlərinə malik olan Avropa dövləti məhz Böyük Britaniyadır. Böyük Britaniya regionda öz fəallığını ABŞ tərəfindən dəstəklənən çoxsaylı beynəlxalq alətlər və institutlar vasitəsilə təmin edir. Etiraf etmək lazımdır ki, 2001-ci ildə ABŞ-da törədilmiş terror aktlar Böyük Britaniyanın xarici siyasi kursunda ciddi dəyişiklikləri şərtləndirmişdir.

Terrorizmə qarşı mübarizə Böyük Britaniya xarici siyasətinin əsas trendi kimi müəyyənləşdirilmişdir. 2001-ci ilin ortalarında Böyük Britaniyanın baş naziri Toni Bler bunu rəsmi olaraq elan etmişdir. Beləliklə, bütövlükdə Yaxın Şərqlə bağlı Böyük Britaniyanın xarici siyasətinin əsas şüarı terrorizmə qarşı mübarizə kimi qətiləşmişdir. Təbii ki, bu, terrorizmə qarşı mübarizədən daha çox regionda strateji maraqların həyata keçirilməsi strategiyası kimi qiymətləndirilməlidir. Xüsusilə, Fars körfəzi regionunda, həm də bütövlükdə Yaxın Şərqdə ABŞ-ın geosiyasi və geoiqtisadi strategiyasının reallaşdırılması qarşısında maneələrin aradan qaldırılması başlıca məqsəd kimi müəyyənləşdirilmişdir. Bu

mənada İranın zərərsizləşdirilməsi vacib geosiyasi vəzifə kimi qarşıya qoyulmuşdur. Bunu ABŞ-ın və Böyük Britaniyanın İrana münasibətdə sərgilədikləri mövqe də aydın göstərirdi [8].

Ümumilikdə, Yaxın Şərq regionunda Böyük Britaniyanın və ABŞ-ın hərbi-siyasi fəallıqlarının əsas istiqamətlərini müəyyənləşdirmək elə də çətin deyildir. Bu, o istiqamətlər idi ki, NATO liderləri onda özlərinin sərbəst fəaliyyətləri üçün maneə görürdülər. Məsələn, ABŞ lap əvvəldən İraqda Səddam Hüseyn rejiminin devrilməsi vacib prioritetlərdən biri kimi nəzərdən keçirirdi. Böyük Britaniya ABŞ-ın mövqeyini dəstəkləsə də nisbətən fərqli mövqedən çıxış edirdi. Belə ki, britaniyalı tədqiqatçı K.Blat hesab edirdi ki, 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra S.Hüseyn rejimindən gələn təhlükələr getdikcə daha real məzmun kəsb etməyə və üç əsas istiqamətdə nəzərdən keçirilməyə başlanmışdır [4, s. 882]:

- aqressiyaya meyllilik;
- kütləvi qırğın silahlarının əldə olunması, onların inkişaf etdirilməsi proqramına malik olmaq;
- terrorizm təhlükəsi.

Digər tədqiqatçı S.Dayson hesab edirdi ki, Bler ABŞ-ın beynəlxalq normalara zidd olan birtərəfli siyasi addımlar ata bilməsi ehtimallarından narahat idi. Həqiqətən ABŞ-ın fəaliyyətində beynəlxalq terrorizmə qarşı mübarizə aparmaqdan daha çox dünyanın strateji regionu olan Yaxın Şərqdə nəzarət elementləri üstünlük təşkil edirdi [5, s. 93].

Digər ingilis tədqiqatçıları da hesab edirdilər ki, ABŞ-ın beynəlxalq razılaşmalar çərçivəsində davranması daha məqsədəuyğundur. Böyük Britaniyanın da ABŞ-dan gözləntilərini əsasən bu təşkil edirdi. Böyük Britanıyanın konkret olaraq Fars körfəzi ilə bağlı geosiyasi prioritetlərini nəzərdən keçirsək, onda İraq probleminin prioritet təşkil etdiyini müəyyənləşdirmək mümkündür. Bununla yanaşı, regionda Böyük Britaniyanın digər vacib geosiyasi istəkləri də var idi.

Bütövlükdə isə Böyük Britaniya regionla bağlı strategiyasını ABŞ-a baxaraq müəyyənləşdirirdi. Bu baxımdan, nəhayətdə Böyük Britaniya ABŞ-la birgə İraqa hücum etmək qərarını qəbul etmişdir. Böyük Britaniya analitikləri Toni Blerin belə qərar qəbul etməsinin səbəblərini izah etməyə çalışmışlar. Belə ki, əsaslandırılırdı ki, T.Bler artıq uzun illərdən bəri İraqa münasibətdə strategiyanın müəyyənləşdirilməsindən əmin idi. Bu baxımdan, o, İraqa hücumda iştirak etməyə razılıq vermişdir [3, s. 138]. Belə ki, T.Bler də hesab edirdi ki, S.Hüseyin rejimi ciddi təhdid yaradır və ona qarşı səyləri birləşdirmək lazımdır [9, s. 168]. Əslində, S.Hüseyin rejimi təqdim olunan qədər də təhlükəli deyildi.

Çünki, beynəlxalq ictimai şüurda möhkəmlənmiş mövqe ondan ibarət idi ki, İraqla bağlı həyata keçirilən strategiya ümumilikdə ABŞ-ın milli maraqlarının diqtəsi altında formalaşmışdır. Bu cəhətdən təsadüfi deyildir ki, Böyük Britaniyanın İraqa qarşı hərbi kampaniyada iştirakı onun imicinə mənfi təsir göstərmişdir. Nəzərə almaq lazımdır ki, bu kampaniya təkcə Yaxın Şərqdə deyil, bütövlükdə dünya səviyyəsində neqativ qarşılandı. Böyük Britaniya bu hərbi kampaniya zamanı ABŞ əsas müttəfiqi rolunda İraqa 46 000 hərbçi göndərmişdir.

Qeyd etmək lazımdır ki, Böyük Britaniya həm İraqda, həm də Əfqanıstanda ABŞ-dan sonra sayına görə ikinci hərbi kontingentə malik idi. Göründüyü kimi, bu bir daha

sübut edir ki, Böyük Britaniya ilə ABŞ xarici siyasəti müəyyən mənada biri-birilərini tamamlayır. Yəni Böyük Britaniya özünün xarici siyasət strategiyasını ABŞ-a baxaraq müəyyənləşdirir. Bu baxımdan, İraqa qarşı həyata keçirilən hərbi kampaniya ABŞ-ın maraqları çərçivəsində reallaşdırılırdı. Böyük Britaniyanın regionla bağlı ayrıca maraqları olsa da, daha çox ABŞ strategiyasının dəstəkləyicisi rolunda çıxış edirdi.

Fars körfəzi ilə bağlı Böyük Britaniyanın xarici siyasətinin cizgilərini nəzərdən keçirən zaman ayrıca olaraq İran istiqamətini nəzərdən keçirilməsi vacibdir. Məlumdur ki, İranın nüvə proqramı onunla Qərb arasında münasibətləri gərginləşdirən ən başlıca amil rolunda çıxış edir. Əslində, İrana qarşı kampaniyanın əsas hədəfi başqa idi. Bu mənada yenə H.Makkinderə müraciət yerinə düşərdi. Belə ki, o, hesab edirdi ki, Rusiyanın Fars körfəzinə yaxın düşməsinə yol vermək olmaz.

Bu baxımdan Fars körfəzində status-kvo vəziyyətinin saxlanılması Böyük Britaniyanın əsas qayğılarından biri olmalıdır [6, s. 331]. Bu mənada İranla bağlı xüsusi strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi olduqca əhəmiyyətli kimi qiymətləndirilirdi. Çünki regionda Rusiyanın iştirakını təmin edən əsas dövlət kimi İran nəzərdən keçirilirdi. İranın zərərsizləşdirilməsi bütün hallarda Rusiyanın regionda fəallığının qarşısının alınmasında təsirli rol oynamalı idi. Ona görə də İranın nüvə proqramının təhlükəli xarakteri haqqında geniş kampaniyaya start verilmişdir və Avropanın əksər dövlətləri bu kampaniyanın yaxından iştirakçısına çevrilmişlər. Yəni ABŞ və Böyük Britaniya qəti əminliklərini bildirirdilər ki, İranın nüvə proqramı dinc xarakter daşımır və dünyanın buna qarşı tədbir görməsini vacib hesab edirdilər.

Böyük Britaniyanın rəsmi mövqeyi ondan ibarət idi ki, İrana nüvə silahı əldə etməyə imkan vermək olmaz. ABŞ-ın və Böyük Britaniyanın İrana münasibətdə sərt mövqeyinin arxasında təbii ki, həm də onun malik olduğu zəngin enerji ehtiyatları dayanırdı. Hər iki dövlətin (ABŞ və Böyük Britaniya) əsas qlobal hədəflərindən biri məhz dünya enerji ehtiyatları üzərində nəzarət imkanlarını qazanmaqdan ibarətdir. Bununla yanaşı, İranın geostrateji mövqeyi də kifayət qədər əlverişlidir və Yaxın Şərqdə çox ciddi statusa malikdir. Bu baxımdan, İrana qarşı daha ciddi strategiyanın həyata keçirilməsi ideyasını həm Böyük Britaniya, həm də ABŞ dəstəkləyir. Nəzərə almaq lazımdır ki, ümumiyyətlə, Böyük Britaniya-İran münasibətləri heç də rəvanlığı ilə seçilməmişdir. Xüsusilə də Soyuq müharibə dövründə SSRİ ilə İran arasındakı xüsusi münasibətlər İranla Qərb arasında gərginləşmədə katalizator rolunu oynamışdır.

Postsoyuq müharibə dövründə isə Rusiyanın yenidən Fars körfəzində möhkəmlənməsində İranın müəyyən rolunun olması qənaəti formalaşmışdır. Xüsusilə də 2001-ci ildən başlayaraq Böyük Britaniya ilə İran arasında münasibətlərdə gərginlik sürətlə artmağa başlamışdır. O hesab edirdi ki, beynəlxalq terrorizmin getdikcə daha təhlükəli xarakter almasında İranın xüsusi rolu vardır. Təbii ki, İran tərəfi bu iddiaları qəbul etmirdi və öz mövqelərini müdafiə etməyə çalışırdı. Bununla belə, İranla Böyük Britaniya arasında 2013-cü ildən etibarən, müəyyən istiləşmə elementləri müşahidə olunmağa başlamışdır. Lakin bütün hallarda Böyük Britaniya-İran münasibətlərinin xarakterini əsasən ABŞ-ın İrana olan münasibəti müəyyənləşdirir. Müvafiq olaraq Böyük Britaniya ilə İran arasında nüvə silahı və insan hüquqları ilə bağlı ciddi fikir ayrılıqları qalmaqda davam edirdi.

**Böyük Britaniyanın regionda strateji maraqları**

Böyük Britaniyanın Fars körfəzində maraqlarını təhlil edərkən, mütləq sırf hərbi-texniki əməkdaşlıqla bağlı maraqlarını da ayrıca qeyd etmək lazımdır. Artıq qeyd edildiyi kimi, regionda ən ciddi hərbi qarşıdurmalardan biri İranla İraq arasında baş vermiş 8 illik müharibə olmuşdur. Həmin dövrdə İraqa münasibət tamam fərqli idi. Belə ki, həmin dövrdə körfəz ölkələri demək olar ki, İraqa yaxından dəstək olmuşlar. Həmçinin, İraq ABŞ-ın yaxından dəstəyini alırdı. Hətta ABŞ S.Hüseyni "regionun güclü adamı" adlandırırdı. İranda İslam inqilabından sonra Qərb əsas diqqətini İraqa yönəltməyə başladı. Yeni İran, İslam inqilabının digər region ölkələrinə yayılma təhlükəsi körfəz ölkələrinin hamısını narahat edirdi. İraqdan İrana qarşı istifadə etmək üçün demək olar ki, bütün mexanizmlər işə salındı. S.Hüseyn isə bütün ərəb dünyasının lideri olmağa iddialı idi. Məhz onun bu iddiaları da İranla müharibənin başlanmasında az rol oynamadı. Bu müharibədən qazanan kənar güclər oldular.

Nəzərə almaq lazımdır ki, İran-İraq müharibəsi başlayan zaman İraq Qərbdən ən müasir texnologiyaları almağa başlamışdır. Hətta Qərb İraqa kütləvi qırğın silahını hazırlamaq üçün texnologiya və vəsaitlər ötürürdü. Böyük Britaniya da ABŞ-la bərabər İraqa iri həcmdə silah və hərbi texnika satmağa müvəffəq olmuşdu. Britaniya həmçinin, həm İraqın, həm də İranın zəifləməsində maraqlı idi. Müharibədən sonra S.Hüseynin özünü daha da iddialı aparması və Küveyti işğal etməsi Qərbin ona münasibətini sürətlə dəyişdirdi. Qısa zamanda Böyük Britaniyanın da yaxından təşəbbüsü və iştirakı ilə İraqa qarşı "Səhrada tufan" əməliyyatı həyata keçirildi. Yerüstü hərbi əməliyyatlarda ABŞ, Səudiyyə Ərəbistanı, Misir və Suriya ilə bərabər Böyük Britaniya da fəal iştirak etmişdir. Əsas zərbə qüvvəsini Böyük Britaniyanın "Çelencer" tankları təşkil etmişdir. Cəmisi dörd gün davam edən hərbi əməliyyatların nəticəsi olaraq Küveyt İraq işğalından azad olundu və İraq BMT Təhlükəsizlik Şurasının tələblərini qəbul etməli oldu [1, s. 21].

ABŞ-la bərabər Böyük Britaniya İraqın Küveyt üzərində yeddi aya yaxın davam edən nəzarətinə son qoymaqla özlərinin bir sıra prioritetlərini reallaşdırmış oldular. Birincisi, Küveyt neftinin İraqın əlinə keçməsi neft bazarında onun diqtəsini təmin edirdi. İraq isə neftin qiymətinin yuxarı həddə qalmasını istəyirdi ki, bu isə ABŞ və Böyük Britaniyanın strateji maraqlarına cavab vermirdi. Bundan başqa, S.Hüseynin həddən artıq iddialı görünməsi də Qərb dairələrini qane etmirdi. Çünki S.Hüseynin ərəb dünyasının liderinə çevrilməsi ABŞ-ın ənənəvi müttəfiqi olan Səudiyyə Ərəbistanının maraqlarına ziddi idi. ABŞ üçün isə ona daim loyal Səudiyyə rejimi daha əhəmiyyətli idi. Bu baxımdan İraqa qarşı kampaniya ümumilikdə ABŞ-ın və Böyük Britaniyanın maraqlarının təmin olunması baxımından vacib idi.

Fars körfəzi uğrunda ABŞ-la Böyük Britaniya arasında qızğın siyasi mübarizənin elementləri açıq müşahidə olunurdu. Böyük Britaniya regionda ABŞ-a qarşı mübarizəni özünün çoxsaylı agentlər şəbəkəsi vasitəsilə də aparırdı. Bunlar əsasən Böyük Britaniyada təhsil almış və vərdişlərə sahiblənmiş insanlar idilər. Bununla yanaşı, ABŞ-da regionda təsir imkanlarını daha da gücləndirmək üçün bütün resurslarını işə salmışdır. ABŞ əsas diqqətini Səudiyyə Ərəbistanının üzərində cəmləmişdir. ABŞ hesab edirdi ki, Səudiyyə Ərəbistanı regionun digər ölkələri üzərində kifayət ciddi təsir imkanlarına malikdir və gələcəkdə onlar üzərində ABŞ-ın da təsir imkanlarının genişləndirilməsində müəyyən rol

oynaya bilər.

ABŞ-ın regionda ciddi şəkildə fəallaşması Böyük Britaniyanın buranı birdəfəlik tərk etdiyi haqqında təsəvvürlər yarada bilər. Əslində isə Böyük Britaniya regionu heç vaxt tərk etməmişdir. Böyük Britaniyanın hərbi-dəniz qüvvələri regionda ən böyük xarici hərbi güc statusunu saxlamaqdadır. Ötən əsrin 80-90-cı illərində Böyük Britaniya tərəfindən "Armill patrulu" təşkil edilmişdir ki, onun da təyinatı Fars körfəzində və Ərəb dənizində təhlükəsizliyin təmin olunmasından ibarət idi. Qeyd etmək lazımdır ki, sonradan Əfqanıstanda və İraqda hərbi əməliyyatlar zamanı bu patrulun hərbi əhəmiyyəti xeyli artmışdır.

Böyük Britaniya regionda özünün milli maraqlarını təmin etməyə çalışan zaman Ərəb monarxlarının xidmətlərindən geniş istifadə edir. Özünün regional müttəfiqlərini dəstəkləmək üçün Böyük Britaniya onlara ciddi hərbi-texniki yardımını əsirgəmirdi. Xüsusilə də, Fars körfəzində patrulun həyata keçirilməsi üçün Böyük Britaniyanın yaxından dəstəyi onun milli maraqlarına tam cavab verirdi. Britaniya bununla özünün regionda mövcudluğunu nümayiş etdirməyə çalışırdı. Diqqəti cəlb edən məqamlardan biri də ondan ibarətdir ki, Böyük Britaniya daim İranı nəzarətdə saxlamağa çalışır. İran İslam inqilabının baş verdiyi dövrdən hazırkı mərhələyə qədər Böyük Britaniya İrana münasibətdə kəskin mövqeyi ilə seçilmişdir. Çünki o hesab edir ki, İranın regional liderliyə iddialı olması onun maraqlarına ziddir. Bundan başqa, Böyük Britaniya regionun ərəb dövlətlərinin də narahatlığına uyğun olaraq İrana qarşı sərt mövqeyini saxlamaqda israrlı olmuşdur.

Bir reallığı da nəzərə almaq lazımdır ki, Böyük Britaniya imperiya dövründə olduğu qədər Fars körfəzində güclü deyildir. Britaniya imperiyasının süqutundan sonra region dövlətləri ilə, əsasən, dialoq əsasında davranmaq regional maraqların qorunmasının başlıca strategiyası kimi müəyyənləşdirilmişdir. Məsələn, bu mənada Bəhreyn ən real nümunə kimi göstərilə bilər. Ümumiyyətlə, Qərb siyasətinin regionda həyata keçirilməsində Bəhreynin ciddi rolu vardır.

Tam qərbyönümlü siyasi kurs götürmüş Bəhreyn insan hüquq və azadlıqları ilə bağlı ciddi problemlərə Qərbin göz yummasına nail ola bilir. Həmçinin, qeyd etmək lazımdır ki, Bəhreyndə ABŞ-ın beşinci flotu yerləşməkdədir. Bəhreyn Fars körfəzi Ölkələrinin Əməkdaşlıq Şurasının üzvü olmaqla həm də İrana qarşı balans yaratmaq üçün ABŞ-ın və Böyük Britaniyanın maraqlarına cavab verir.

Təsadüfi deyildir ki, Bəhreyn İŞİD-ə qarşı kampaniyada da fəallıq nümayiş etdirmişdir. Son dövrlərdə Bəhreynlə Böyük Britaniya arasında hərbi sahədə əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Belə ki, 2014-cü ildə Böyük Britaniyanın Bəhreyndə özünün hərbi kontingentini yerləşdirməsi haqqında informasiya yayılmışdır. Əslində, burada sensasiyalı bir məqam yox idi.

Belə ki, artıq qeyd olunduğu kimi, Böyük Britaniyanın regiondan tam çıxmaq kimi bir planı heç vaxt olmamışdır. Təbii ki, ABŞ-ın regionda hərbi qüvvələrinin olması, Böyük Britaniyanı özünün hərbi qüvvələrini regionda yerləşdirməyə sövq edir. Bu mənada, bir daha nəzərə almaq lazımdır ki, ümumilikdə Böyük Britaniya ilə ABŞ regionla bağlı strategiyasını uzlaşdırsalar da, ayrı-ayrılıqda da öz maraqlarını həyata keçirməyə çalışır. Xüsusilə də, Böyük Britaniyanın bütün hallarda ABŞ-la balans yaratmaq cəhdləri həmişə müşahidə olunmuşdur.

**Nəticə**

Beləliklə, Böyük Britaniyanın Fars körfəzində kifayət qədər ciddi siyasi, iqtisadi və hərbi maraqları vardır. Böyük Britaniya regionu özünün ənənəvi maraqları zonası hesab edir. Regionun qlobal enerji təhlükəsizliyində oynadığı təsirli rol dünyanın aparıcı dövlətlərinin diqqətini daim buraya cəlb etmişdir. Böyük Britaniyanın hazırda regiondakı əsas maraqları həm geosiyasi, həm də geoiqtisadi xarakterlidir. Regionun enerji ehtiyatlarına nəzarət imkanları Böyük Britaniyaya qlobal təsiretmə imkanları verir. Lakin yuxarıda apardığımız təhlillərdən də aydın görünür ki, Böyük Britaniya indiki reallıqlar çərçivəsində ABŞ-dan təcrid olunmuş şəkildə regional strategiyanı həyata keçirməyi məqbul hesab etmir. Bu baxımdan Fars körfəzi regionu istiqamətində Böyük Britaniyanın və ABŞ-ın xarici siyasi strategiyalarında kifayət qədər ortaq elementlər mövcuddurlar.

**QAYNAQLAR**


1. Борисов А. Персидский залив: Большая нефть - большая политика // Азия и Африка сегодня. М., 2000, №2, с. 21-31.
2. Маккиндер Х. Дж. Географическая ось истории // Полис. 1995. №4, с.162–169
3. Федоров К. М. Ближневосточный вектор внешней политики Великобритании в начале XXI в. // Управленческое консультирование, № 4, 2013, с. 133-144.
4. Bluth C. The British road to war // International Affairs. 2004. Vol. 80, N 5. P. 871-892.
5. Dyson S.B. The Blair identity. Leadership and foreign policy. Manchester; N. Y.: Manchester University Press, 2009, 165 p.
6. Norton-Taylor R. Iran and the US: from words to war: [Elektron resurs] // The Guardian. 2012. 31 January. URL: http://www. guardian.co.uk/comment is free/cifamerica /2012/ jan/31/iran-us-intelligence-war (müraciət tarixi: 25.05.2019)
7. Seldon A. Blair Unbound. N. Y.: Simon & Schuster, 2007. 669 p.
8. Venier P. The geographical pivot of history and early twentieth century geopolitical culture // The Geographical Journal. 2004. Vol. 70, N 4. P. 330–336
9. Wintour P. Cameron changes foreign policy tack amid shifting sands of the Middle East // The Guardian. 2011. (http://www.guardian.co.uk/ politics/2011/mar/01/foreign policy-libya (müraciət tarixi: 25.05.2019)).



***Резюме***

***Рашад Эйюбзаде***

***Геополитическая стратегия Великобритании в Персидском заливе***

В статье рассматриваются геополитические интересы Великобритании в Персидском заливе. Прежде всего, отмечается, что геополитические и геоэкономические интересы Великобритании в регионе Персидского залива в целом составляют важную часть ее интересов на Ближнем Востоке. Следует иметь в виду, что большинство стран региона когда-то были в составе Британской империи. Потеряв во второй половине XX века контроль над регионом, Британии пришлось пересмотреть свои геополитические отношения со странами региона в целом. Обосновывается идея о том, что Великобритания рассматривает Персидский залив как стратегическую часть Ближнего Востока. Соответственно, она пытается реализовать общую геополитическую стратегию для всего региона. В статье также обращается внимание на соотношение интересов США и Великобритании в регионе

Персидского Залива. Отмечается, что совместная реализация с США политической стратегии отвечает интересам Великобритании. Великобритания считает регион зоной своих традиционных интересов. Влияние региона на глобальную энергетическую безопасность всегда привлекало внимание ведущих стран мира. Основные интересы Великобритании в регионе сейчас – геополитические и геоэкономические. Способность региона контролировать энергетические ресурсы региона дает Великобритании глобальные преимущества. Из приведенного анализа ясно, что Великобритания не считает целесообразным проводить региональную стратегию, которая изолирована от Соединенных Штатов в контексте нынешней реальности. У Великобритании никогда не было планов покинуть регион в полном объеме. Естественно, присутствие военных сил США в регионе вынуждает Великобританию развернуть и свое военное присутствие в регионе. В этой связи необходимо повторить, что, хотя Великобритания и США в целом согласны с региональной стратегией друг друга, они также пытаются реализовать свои интересы индивидуально. В частности, попытки Великобритании достичь баланса с Соединенными Штатами наблюдались во всех случаях. В стратегиях внешней политики Соединенного Королевства и Соединенных Штатов Америки в отношении региона Персидского залива есть довольно много общих элементов.

***Ключевые слова:*** *Персидский Залив, Великобритания, внешняя политика, стратегия, интересы, Ближний Восток.*

***Summary***

***Rashad Eyyubzadeh***

***UK Geopolitical Strategy in the Persian Gulf***

The article considers the geopolitical interests of Great Britain in the Persian Gulf. First of all, it is noted that the geopolitical and geo-economic interests of Great Britain in the Gulf region as a whole constitute an important part of its interests in the Middle East. It should be borne in mind that most of the countries in the region were once part of the British Empire. Having lost control of the region in the second half of the 20th century, Britain had to reconsider its geopolitical relations with the countries of the region as a whole. The idea is substantiated that Great Britain considers the Persian Gulf as a strategic part of the Middle East. Accordingly, she is trying to implement a common geopolitical strategy for the entire region. The article also draws attention to the balance of US and UK interests in the Gulf region. It is noted that the joint implementation of a political strategy with the United States is in the interests of Great Britain. Great Britain considers the region a zone of its traditional interests. The influence of the region on global energy security has always attracted the attention of the leading countries of the world. The main interests of Great Britain in the region now are geopolitical and geo-economics'. The region's ability to control the region's energy resources gives Britain global advantages. From the above analysis, it is clear that the UK does not consider it appropriate to pursue a regional strategy that is isolated from the United States in the context of current reality. Great Britain never had any plans to leave the region in full. Naturally, the presence of US military forces in the region forces Britain to expand its military presence in the region. In this regard, it is necessary to repeat that, although Great Britain and the United States as a whole agree with each other's regional strategy, they are also trying to realize their interests individually. In particular, UK attempts to strike a balance with the United States have been observed in all cases.

***Keywords:*** *Persian Gulf, Great Britain, foreign policy, strategy, interests, Middle East*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# SURİYADA VƏTƏNDAŞ MÜHARİBƏSİNİN TARİXİ KÖKLƏRİ VƏ ONU DOĞURAN SƏBƏBLƏR

**Tamerlan ƏHMƏDLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 5 fevral 2019; Çapa qəbul edilmişdir: 4 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 5 Februrary 2019; accepted: 4 July 2014; published online: 25 September

***Açar sözlər**: Suriya, Əsəd, rejim, müharibə, böhran*

## Giriş

2011-ci ilin mart ayından etibarən Suriyadakı vətəndaş müharibəsi geniş miqyaslı xarakter almış, daxildə baş verən vətəndaş müharibəsi nəticəsində yaranmış böhranlı vəziyyət ölkə sərhədlərini aşaraq ümumi Yaxın Şərq regionuna o cümlədən beynəlxalq miqyasda təhlükəsizliyə əsas təhdid funksiyası daşımışdır. Müharibə bir sıra sferalarda kifayət qədər problemlərə yol açmış, xüsusən qaçqın probleminin geniş vüsət almasına səbəb olmuşdur.

İlk əvvəllər Yaxın Şərqdə geniş vüsət alan "Ərəb baharı"nın ölkəyə sıçrayışı ilə başlayan proseslər müəyyən müddət keçdikdən sonra geniş miqyas almağa başladı. İstər müxalif istərsə də iqtidar yönümlü qüvvələrin qarşıdurması əslində əvvəlcədən mövcud olan bir sıra faktorlarla bağlıdır. Belə ki, ölkəni bürüyən siyasi katalikzmlərin səbəbini müəyyənləşdirmək üçün ölkənin XX əsr tarixindən etibarən özünü göstərən şiə-sünni ixtilafı qeyd edilməlidir. Bununla yanaşı, Suriyada mövcud siyasi vəziyyəti daha yaxşı təhlil etmək üçün bu proseslərdə regional və qlobal güclərin təsirlərini nəzərə almaq lazımdır. Çünki Vətəndaş müharibəsinin başlanğıcından etibarən mövcud olan iki qütbü dəstəkləyən, müharibə zamanı mühüm rol oynayan müxtəlif ölkələr olmuşdur. Rejimi dəstəkləyən dövlətlər Rusiya və İran ikən, müxalif qüvvələri dəstəkləyənlər aralarında müəyyən məsələlərdə fikir ayrılıqları olsa da, Amerika Birləşmiş Ştatları, Qərb dövlətləri və Türkiyədir.

Hazırda Suriyada təzahür edən siyasi gərginliyin digər səbəblərindən biri də tarixən mövcud olan avtokratik quruluşun indiki siyasi tendensiyalara təsiridir. Düzgün olmayan avtokratik idarəetmə nəticəsində siyasi situasiyanın gərginləşməsi vətəndaş müharibəsi ilə nəticələnmişdir.

Yuxarıda qeyd edilən amillərlə bərabər Suriyada mövcud siyasi gərginliyi tarixi aspektdən dəyərləndirib proseslərin kökünü müəyyənləşdirmək olduqca əhəmiyyətlidir. Hazırkı siyasi durum və ölkənin 2011-ci il hadisələrinə sürüklənməsi keçmişdə baş verən bir sıra hadisələrlə bağlıdır. Ona görə də Suriya tarixinin bir sıra məqamlarına qısa da olsa nəzər salmaq hazırkı proseslər haqqında daha əyani təsəvvürün olması üçün önəmli əhəmiyyət kəsb edir.

## 1. Suriya tarixində avtokratik rejimlər

Suriya təxminən 400 il Osmanlı imperiyasının tərkibində mövcud olmuşdur. 1800-ci illərdə Osmanlı imperiyasının zəifləməsi ilə Suriyada da müstəqilliyə can atma meyilləri güclənmiş 1918-ci ildə ingilislər tərəfindən dəsktəklənən Əmir Faysalın rəhbərliyi

* doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: tamerlanahmadli@yahoo.com*

altında ərəb ordularının Şamı tutması ilə Osmanlı dövrü Suriya üçün başa çatmışdır (14). Nəticədə Suriya avtokratik rejimlərin bir-birini əvəzlədiyi yeni mərhələyə qədəm qoymuşdur. Bununla da Suriyada Osmanlı dövründən sonra siyasi hakimiyyət və sistem dəyişiklikləri qisamüddətli və intensiv xarakter daşımış sonda isə Suriyanın mövcud vəziyyətinə gətirib çıxarmışdır.

### 1.1. Fransa müstəmləkəsi dövrü və müstəqilliyinin ilk illəri

1920-ci ildə Əmir Faysalın Suriyanın kralı elan edilməsi ilə ölkə Livan da daxil olmaqla böyük bir ərazini əhatə etmişdir. Lakin onun hakimiyyəti qısamüddətli olmuş, San-Remo konfransından sonra ölkə ingilis və fransızların arasında bölünmüşdür. Suriyada nəzarəti ələ keçirən fransızlar Faysalı ölkədən qaçmağa məcbur etmişdilər. Bu hadisə Suriyanın Fransa müstəmləkəsinə çevrilməsində həlledici rol oynamışdır. Beləliklə, ölkə Fransanın nüfuz dairəsinə daxil olduqdan sonra fransızların ölkəni etnik və dini amillərə bağlı olaraq ayrı-ayrı muxtar vilayətlərə bölməsi nəticəsində ölkədə ələvi-sünni ədavətini gücləndirəcək mühit formalaşmışdır. 26 illik Fransa müstəmləkəsi dövründə Suriya 3 muxtar hissəyə parçalanmışdır (2, 303-311). Bu muxtariyyətlərdən ikisi şiəliyin əsas qollarından olan druzlar və ələvilərə verilmişdir. Ölkədə ərəb millətçiliyinin güclənməsinin qarşısını almaq üçün Fransa azlıq təşkil edən şiə qruplarına dəstək nümayiş etdirmişdir. Bu isə öz növbəsində sünnilərlə şiələr arasında ixtilafların yaranmasına zəmin formalaşdırmışdır. Bütün bunlara baxmayaraq, ölkədə Fransa müstəmləkəsinə qarşı ümumxalq mübarizəsi aparılmış, 1925-ci ildən etibarən etirazlar daha ciddi xarakter daşımağa başlamışdır. Həmin dövrlərdə bu aksiyaların qarşısı alınmışdır. Ancaq ikinci dünya müharibəsindən sonra Fransanın zəifləməsi ilə xalqın müqaviməti qarşısında fransızlar tab gətirməyərək ölkəni tərk etməyə məcbur qaldılar. Beləliklə Suriya müstəqillik əldə etdi (2, 88-106).

Müstəqillik əldə etdikdən sonra isə Suriyada qeyri-sabit siyasi vəziyyət yaranmışdır. Belə vəziyyətin yaranmasının başlıca səbəbi il ərzində bir neçə dəfə hərbi çevrilişə cəhdlərin baş verməsi idi. Nümunə kimi 1949-cu ildə ordu zabitlərindən olan əl-Şişəhli hakimiyyəti ələ keçirmiş və hərbi diktatura qurmuşdur. 1952-ci ildə isə ölkədə bütün siyasi partiyaların fəaliyyətini qadağan etmişdir. 1954-cü ildə isə əl-Şişəhli özü hərbi qiyam nəticəsində devrilmişdir (3, 303-318). 1959-ci ildə isə Suriya və Misir birləşərək Birləşmiş Ərəb respublikasının əsasını qoymuşdur. Bu dövlətin prezidenti Camal Əbdül Nasir olmuşdur, oda xələfi kimi hakimiyyətə gəldikdən sonra siyasi partiyaların fəaliyyətini qadağan edərək, avtokratik idarəetmə sistemi formalaşdırmışdır. Lakin Camal Əbdül Nasirin prezidentliyi qısamüddətli olmuş, 1961-ci il ordu zabitlərinin qiyamı ilə onun Suriyadakı hakimiyyətinə son qoyulmuşdur (2, 107-111).

### 1.2 BAAS partiyası və Hafiz Əsəd

BAAS partiyası 1947-ci ildə Şeyx Mişel Aflaq və Salah Əl-Din Əl-Bitar tərəfindən qurulmuşdur. Partiya ilk əvvəllər sünnilər və şiələrin birliyi ilə qurulmuşdur. Partiyanın əsas ideologiyası özündə ərəb millətçiliyini, ərəb sosializmini və militarizmi birləşdirir. 1963-cü ildə növbəti hərbi çevrilişdən sonra bu partiya hakimiyyətə gəldi. Azsaylı ordu zabitlərinin birləşməsi ilə yaradılan partiya ölkədə yeganə hərbi siyasi güc funksiyasını daşımışdır (5, 24). Partiya təmsilçiləri ələvi-şiə məzhəbli zabitlərdən ibarət idi. Belə ki orduya şiələrin daha çox cəlb edilməsi və sünnilər arasında parçalanma meyillərinin daha güclü olması şiələrin üstün siyasi mövqeyə malik olmalarına zəmin yaratmışdır (7, 39-69). Sözsüz ki, şiə qruplarının hakim mövqeyi çoxluq təşkil edən sünnilərin narahatçılığına səbəb olmuşdur (30, 96). Dövlət isə baş verə biləcək neqativ tendensiyaların qarşısını almaq üçün adekvat olaraq tədbirlər həyata keçirmiş, iqtisadi monopoliyanın qarşısı al-

mış, bir sıra müəssisələrin milliləşdirməsini həyata keçirmişdir. Həmçinin kəndlilərin rifahı naminə torpaqla bağlı mühüm islahatlar aparılmışdır. (8, 67-88)

Hafiz Əsəd 1930-cu ildə Nusayriye dağlarında 11 uşaqlı yoxsul ailənin 9-cu uşağı olaraq dünyaya gəlmişdir. (1, 95-103). Suriya Hava Qüvvələrindən Baas Partiyasına üzv olan və Suriya Hava Qüvvələrində baş leytenant olan Əsəd 1963-cü il çevrilişindən sonra Suriya Hava Qüvvələrinin başçısı təyin edildi. 1966-cı ildə Əsəd artıq 35 yaşında müdafiə naziri vəzifəsinə qədər yüksəlmişdi (25, 37). Getdikcə nüfuzu güclənən Hafiz Əsəd getdikcə həmin dövrdə baş qərargah rəisi Salah Cadidi devirərək, 1970-ci ildə partiyanın və ölkənin lideri oldu (21). Onun rəhbərliyinin ilk illərindən etibarən Baas Partiyası ölkədə vahid güc mərkəzi elna edildi və digər siyasi partiyaların fəaliyyəti qadağan edildi. Hafiz Əsəd şiələri dövlətin əsas vəzifələrinə gətirərək dünyəvi idarəetmə xətti yürütmüşdür. (25, 50). Onun hakimiyyətə gəlişi ilə məzhəblərarası gərginlik artmışdır. Nəticədə sünnilər müxtəlif müxalif qruplaşmalarda birləşməyə başlamışdır. Həmin dövrlərdə şiə ələviləri xalqın etirazlarının qarşısını almaq üçün bir sıra addımlar atmışdır. Bu istiqamətdə ölkə konstitusiyasında dövlət başçısının müsəlman olması tələbi idi. Bu tələblə ölkədə heç bir məzhəbin üstün tutulmadığı bildirilirdi. Lakin hadisələrin sonrakı inkişafında ölkədə avtokratik rejim formalaşmış və müxalif qruplara qarşı zorakı təzyiq üsullarından istifadə yolu ilə onlar işgəncələrə məruz qalmış, həbsə atılmışdır.

Sosialist dəyərlərə bağlı olan Hafiz Əsəd 1980-ci ildən etibarən yeni istiqamət yürüdərək iqtisadi liberallaşma prosesinə başladı Buda səbəbsiz deyildi. Ölkə iqtisadi böhran vəziyyətinə düşdüyü üçün liberallaşdırma yolu ilə iqtisadi sahədə tənəzzülün qarşısını almaq, bununla da dövlət sektorunun mümkün maliyyə itkilərinin qarşısını almaq xətti irəli sürülmüşdür. Lakin rejim avtokratik üsulla idarə edildiyi üçün hakimiyyət iqtisadi liberallaşdırmanı bütün sferalarda həyata keçirməyə qarşı çıxmış. yalnız müəyyən sahələrlə bu siyasət məhdudlaşmışdır. (9, 98)

Əsədin hakimiyyətə gəlişindən etibarən ölkədə artan gərginlik tədricən şiddətli bir üsyan xarakteri almağa başlamışdır. Bu cür siyasi mühitin formalaşmasında şiə-ələvi yönümlü Əsəd rejiminin qanuniliyini tanımayan Sünni Müsəlman Qardaşları adlı təşkilatdır. Suriyalı Müsəlman Qardaşları 1946-cı ildə yaradılmışdır. Dövrün siyasi arenasında torpaq mülkiyyətçiləri və tacirlərdən əsas söz sahibi olsalar da müəyyən sayda islamçı qruplarda parlamentdə təmsil olunmuşdur. Müsəlmanlar Qardaşları təşkilatının da əsas üzvlərini sünni orta təbəqə nümayəndələri olmuşdur (34, 2). 1960-cı illərdə Baas partiyasının hakimiyyətə gəlişi ilə gizli fəaliyyət göstərməyə başlayan təşkilat 70-ci illərdən etibarən şəriət tərəfdarlarının artması ilə tədricən aktiv fəaliyyətə keçməyə başlamışdır. Müsəlman qardaşlarının və digər sünnilərin ölkəni İslam Respublikası təyin edilməsi tələbi ilə razılaşmayan Hafiz Əsədin prezidentliyi dövründə prezidentin müsəlman olması üçün konstitusiya şərti irəli sürüldü. Buna baxmayaraq, müəyyən sünni qrupların narazılığı aradan qalxmadı. Onlar rejimə qarşı çox saylı sui-qəsdlər və bombalı hücumlar həyata keçirmişdir (8, 65-89). 80-ci illərin əvvəlindən ölkənin şimalında Hələb və Hama kimi şəhərlərdə tələbə, peşə təşkilatları və hətta tacirlərin iştirakı ilə bir çox etiraz aksiyası keçirilmişdi. Rejim etirazları əsasən hərbi əməliyyatlarla yatırırdı. 1979-cu ildə Müsəlman Qardaşlar üzvləri Hələbdə təhsil alan 80-dən çox silahsız hərbi məktəb şagirdini öldürdülər. 1980-ci ildə Əsəd Müsəlman Qardaşları təşkilatının üzvü olmağı cinayət hesab edərək qadağan etdi. Bundan sonra Müsəlman Qardaşları gizli olaraq fəaliyyətini davam etdirirdi. Lakin 1982-ci ildə rejim qüvvələri tərəfindən Hama şəhərində on minlərlə insanın öldürülməsindən sonra Müsəlman Qardaşların üzvləri ölkəni tərk etməyə məcbur qaldılar.

### 1.3. Bəşər Əsəd dövründə Suriya

2000-ci ildə Hafiz Əsədin ölümü nəticəsində oğlu Bəşər Əsəd hakimiyyətə gəlmiş-

dir. Əsas varis hesab edilən qardaşının gözlənilməz ölümündən sonra İngiltərədən Suriyaya qayıdan Bəşər Əsəd 2000-ci ilin may ayında keçirilən referendumda səslərin 97 faizini qazanaraq Suriya prezidentinə çevrildi (13). Hakimiyyətə gəldikdən sonra Bəşər Əsəd xalqa islahatlar aparacağını və ölkədə sosial-iqtisadi vəziyyətin inkişafı istiqamətində tədbirlər görəcəyini vəd etmişdir. Ancaq oda atasının siyasi kursunu davam etdirərək xalqı repressiv təzyiq metodları ilə özünə tabe etməyə çalışmış, ölkə əhalisinə qarşı sərt siyasi idarəetmə üsullarından istifadə etmişdir. Lakin Bəşər Əsədin hakimiyyətə gəlməsini ilk əvvəllər əhalinin böyük bir hissəsi müsbət hal kimi qiymətləndirmişdir. Gənc prezidentin Qərbdə təhsil alması da bu tip fikirlərin formalaşmasında mühüm rol oynamışdır (9, 95). Əsəd öz prezidentlik çıxışında da iqtisadiyyatın modernləşdirilməsi, korrupsiyaya qarşı mübarizə və demokratik yönümlü bir çox islahatlar aparacağına söz vermişdir. Modernizm istiqamətində o, Suriya tarixində ilk dəfə Kompüter Cəmiyyətinin yaradılması ilə bağlı qərar qəbul etmişdir. Həmçinin bir çox siyasi məhbusu azadlığı çıxması ilə bağlı sərəncam imzalamışdır. Bundan başqa, demokratik islahatlara dəstək verən bir qrup ziyalıya hətta ictimai görüşlər keçirmək və bəyanatlar yaymağa icazə verilmişdir (13).

Göründüyü kimi, Bəşər Əsəd hakimiyyətə gəldikdən sonra, tam miqyaslı neoliberal islahatlar həyata keçirməyə başladı (39). Ancaq buna baxmayaraq yoxsulluq, işsizlik və sosial bərabərsizlik halları aradan qalxmadı. Əksinə, qloballaşmanın gətirdiyi neqativ tendensiyalar və iqlim dəyişikliyi bu problemlərə səbəb oldu (40). Nəticədə 2011-ci ildə Əsəd rejiminə qarşı kütləvi xalq etirazları başladı. Lakin qeyd edilməlidir ki, nümayişlərin tək səbəbi iqtisadi və qlobal amillərdən qaynaqlanmırdı (18, 7).

2005-c ildə Suriyanın əsas müttəfiqlərindən olan Livanda "Sədir inqilabı"nın baş verməsi sözügedən ölkədə Bəşər Əsədin mövqeyinə ciddi zərbə vurmuşdur (41). Bundan sonra Əsəd Müsəlman Qardaşları adlı təşkilatın fəaliyyətinə icazə verdi. Həmçinin müxalif qüvvələrə qarşı siyasi kompromisə getməyə məcbur qaldı. Suriya toplumuna Bəşər Əsəd hökumətinə maneə yaratmamaq şərti ilə demək olar ki bütün sferalarda sərbəstlik verildi. Sözsüz ki, 2000-ci ildə Hafiz Əsədin ölümü ilə başlayan müxaliflərin aktivliyini və siyasi liberallaşmanı özündə ehtiva edən "Şam baharı" hərəkatının da oynadığı rol qeyd edilməlidir. Lakin bu hərəkat tərəfdarları ölkə hakimiyyəti tərəfindən təzyiqlərlə üzləşmiş və zorakı üsullarla etirazların qarşısı alınmışdır (16). Atasının yolunu davam etdirən Bəşər Əsəd də öz hakimiyyətini seçkilər yolu ilə qanuniləşdirməyə çalışmışdır. Seçkilərdə siyasi aktivliyin olmaması, insanlarda olan qorxu hissi və avtokratik rejimin yaratdığı siyasi mühitin təsiri nəticəsində Bəşər Əsəd qələbə qazanmağa müvəffəq olmuşdur (40). Sonrakı mərhələdə isə islamçı eyni zamanda kürd müxalif yönümlü şəxslərin kütləvi həbs edilməsi halları artmağa başlamışdır. Göründüyü kimi Bəşər Əsəd xalqı islahatlar keçirəcəyinə vəd versə belə hakimiyyət gəldikdən sonra tamamilə başqa tip idarəçilik yürütmüşdür (13). Rejimin bu cür inzibati metodlarla xalq kütlələrinə qarşı sərt mövqeyi etirazların kəskin yüksəlməsi fonunda Əsəd hökumətini geriyə addım atmağa məcbur etmişdir. Belə ki, Bəşər Əsəd bundan sonra bir çox siyasi məhbusu azad etdi, 48 illik fövqəladə vəziyyət halı aradan qaldırdı və hökuməti istefaya göndərməyə məcbur qaldı. Buna baxmayaraq, onun bu islahatları ölkədəki siyasi gərginliyi azaltmadı əksinə proseslər yüksələn xətlə inkişaf etməyə başladı (14). Nəticədə Yaxın Şərqdə baş qaldıran "Ərəb baharı" Suriyadan yan keçməmiş, ölkə əhalisi ayağa qalxaraq siyasi hakimiyyətə öz etirazını bildirmişdir. 2011-ci ildə Dera şəhərində başlayan nümayişlər, qısa müddət ərzində ölkə daxilində yayıldı və dövlət orqanlarının da mümkün islahatlar variantından imtina edərək xalqa qarşı yönəlməsi vətəndaş müharibəsinə səbəb oldu.

Ona görə də 2011-ci ildə başlayan Suriya münaqişəsi və onu yaradan səbəbləri müəyyən etmək ölkədə baş verən siyasi prosesləri izah etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

**2. Suriyada vətəndaş müharibəsinin səbəbləri**

Müharibə ilk növbədə Bəşər Əsəd hakimiyyətinə qarşı yönəlsə də daxili qruplar arasında da fikir-ayrılıqları olmuş nəticədə qüvvələr Bəşər Əsədə qarşı vahid mövqedən çıxış etməmişdir. Həmçinin üsyançılar Qərbə bel bağlayaraq, Ərəb baharı dalğasına qoşulmuşdur. Əsəd isə ona qarşı yönələn şəxslərin radikal ekstremist düşüncəli şəxslər olduğunu məqsədlərinin isə hökuməti devirərək ölkəni xaosa sürükləmək istədiyini iddia etmişdir (22). Müharibənin baş verməsinə bir sıra amillər əsas rol oynamışdır. İlk növbədə daxildə baş verən müəyyən tendensiyalar ölkədə vətəndaş qarşıdurmasına səbəb olmuşdur. Bu baxımdan ölkədə baş verən siyasi qarşıdurmanı daxili və xarici faktorlar olmaqla qruplaşdırmaq mümkündür. Daxili səbəblər aşağıdakılardır:

**2.1. İqtisadi səbəblər**

2000-ci ildə hakimiyyətə gəldikdən sonra Bəşər Əsəd atası kimi müxtəlif iqtisadi islahatlar həyata keçirməyi vəd etdi. Bu sıraya iqtisadiyyatın liberallaşdırılması, xarici investisiyanın ölkəyə cəlb edilməsi və xarici bankların Suriyada işləməyinə icazə verilməsi aid edilə bilər (27).

Suriya iqtisadiyyatına diqqət yetirərkən məlum olur ki, vətəndaş müharibəsindən öncə ölkə iqtisadiyyatı müxtəlif sahələr üzrə ixtisaslaşmışdır. 2009-cu ilin məlumatlarına nəzər saldıqda ən mühüm sahələr kənd təsərrüfatı, sənaye, pərakəndə satış və turizmdir (23). Lakin hökumətin azad sahibkarlıq fəaliyyətinə müdaxiləsi və nəzarəti nəticəsində iqtisadi sferada korrupsiyalaşmış bürokratik sistemin formalaşmasına səbəb olmuşdur (4, 104). 2000-ci illərin sonlarına doğru ölkə resurslarının azalması ilə Bəşər Əsədin iqtisadi strategiya iflasa uğramış nəticə etibarı ilə Suriya xalqı çətin durumla üz-üzə qalmışdır. Həmçinin Əsədin ölkə üzrə şəhərləşmə istiqamətində islahatlar aparması ilə ticarəti inkişaf etdirmək istəyi bir mənada ölkənin başlıca sahəsi olan kənd təsərrüfatının inkişafını tədricən arxa plana keçirdi (12). Sonradan isə quraqlığın baş verməsi və ümumi iqlim şəraitinin coğrafi aspektdə dəyişməsi Suriya vətəndaşlarının əsas gəlir mənbəyi olan kənd təsərrüfatı sektorunun sıradan çıxmasına səbəb oldu.

**2.2. Sünni-şiə qarşıdurması**

Suriyadakı vətəndaş müharibəsi ərəb baharının baş verdiyi ən qaynar bölgə və geosiyasi cəhətdən regional siyasi proseslərə təsir edən faktor kimi çıxış edir. Mülki müharibədə diqqəti cəlb edən əsas amil etnik və dini fərqliliyin tərəflərin qütbləşməsinə təsiridir (15). Şiəliyin başlıca qollarından birini təşkil edən ələvilər hələ Fransa müstəmləkəsi dövründə digər dini azlıqlarla müqayisədə daha üstün mövqeyə malik olmuşdurlar. Belə ki, fransızlar həmin dövrdə ələviləri xüsusi hərbi birliklərə cəlb edərək Suriyada və Livanda yerli hərbi gücün yaradılmasına müvəffəq olmuşdur. Yaradılan bu hərbi qruplar müvafiq ərazilərdə iğtişaşları aradan qaldırmaq və sabitliyi təmin etmək istiqamətində fəaliyyət göstərmişdir. Onların bu fəaliyyəti sünnilərin narazılığına səbəb olmuşdur. Şiə ələvilərinin Suriyada nüfuz qazanmasına iki əsas amil rol oynamışdır. Həmin amillər ordunun şiələrdən təşkil edilməsi və BAAS partiyasının hakimiyyətə gəlişidir. Həmçinin 1949 və 1954-cü illər arasında baş verən bütün hərbi qiyamlar sünnilər tərəfindən həyata keçirilmişdir. Lakin sünni zabitlər öz arasında hakimiyyət uğrunda mübarizə aparmış bu isə orduda sünnilərin mövqeyinin zəifləməsinə, əvəzində isə şiə ələvilərinin orduda nüfuzunun daha da yüksəlməsinə gətirib çıxarmışdır. Şiə-ələvi yönümlü BAAS rejiminin siyasi arenaya çıxması müasir Suriya tarixində yeni mərhələnin başlanğıcı olmuşdur. Siyasi elitanın azlıq təşkil edən şiələrdən təşkil edilməsi sünnilər tərəfindən kəskin etirazla qarşılanmışdır. Həmçinin Suriya konstitusiyasında dini azadlığın təmin edilməsi əsas müddəa kimi göstərilsə də, Suriya hökuməti bu məsələdə ayrı-seçkilik hallarına yol vermişdir (6, 17-33). Belə ki, hökumət dini azlıqlara nəzarəti həyata keçirərkən öz siyasi

maraqlarını əlində rəhbər tutaraq dini qruplar arasında gərginliyin artmasına səbəb olacaq mühit formalaşdırmışdır. Nəticədə sünnilər və şiələr arasında dini dözümsüzlük halları artmağa başlamışdır. Sünnilərin əksəriyyəti, "Şiə-Baas" rejimini qeyri-qanuni, zorakı və İslam əleyhinə olaraq qəbul etmişdir. Sünni müsəlmanların fikrincə, ələvi azlıqlar silahlı qüvvələr vasitəsilə hakimiyyəti ələ keçirmiş və dini təhsilin qadağan edilməsi kimi sərt tədbirlər tətbiq etmişdir. Bu, sünnilərin dini həssaslığına və sosial-iqtisadi maraqlarına təsir etmişdir. İdarə edənlə idarə olunan arasında bir uçurum formalaşmağa başlamışdır. Hələ Hafız Əsəd hakimiyyəti dövründə ölkə başçısı şiə-ələvilərinin məskunlaşdığı şəhərlərdə məscidlər inşa etmiş, ictimaiyyət içərisində dualar etmiş və insanları eyni işlərə görməyə təşviq etmişdir (26). Bəşər Əsədə qarşı etirazlar başladıqdan sonra isə şiə və sünni arasında ixtilaflar dərinləşməyə başlamışdır. Etirazların miqyasının genişlənməsi ilə vətəndaş müharibəsinin başlanması sünni və şiələrin birlikdə məskunlaşdığı ərazilərdə məzhəb qarşıdurmaları artmışdır. Sünnilər Əsəd rejiminin devrilməsinə çalışırdılarsa, şiə-ələviləri Əsədi dəstəkləyir, o gedərsə, böyük qırğınlara məruz qalacaqlarını düşünürdülər (24).

### 2.3. Rejimin siyasi təzyiqi

Rejim xalqın siyasi proseslərə müdaxilə imkanlarını zorakı və inzibatı üsullarla minimuma endirmişdir. Təhlükəsizlik qüvvələri insanları siyasi baxışlarına görə həbsə məruz qoyaraq onlara işgəncə vermişdir. Ölkədə məhkəmə müstəqilliyi yox idi. Bu baxımdan hökumət insanların şəxsi hüquqlarını pozmaqdan çəkinməmişdir. Bir çox vətəndaş hüquq və azadlıqlarına məhdudiyyət tətbiq edilmişdir. Bu sıraya söz və mətbuat azadlığı, sərbəst toplanma azadlığı, din azadlığı daxildir. Bundan əlavə, hökumət tamamilə korrupsiyaya bulaşmışdır (36).

Bəşər Əsədin rəhbərlik dövründə Suriya insan hüquqları və azadlığı sahəsində qalmaqda idi. Belə ki, 1962-ci ildə elan edilən fövqəladə vəziyyətin davam etməsi təhlükəsizlik qüvvələrinin geniş səlahiyyətlərə malik olması insanların kütləvi şəkildə haqsız yerə həbsə atılmasına səbəb olmuşdur. Xüsusilə sosial şəbəkələrdən istifadənin genişlənməsi ilə müxaliflərin öz fikirlərini daha geniş miqyasda insanlara əlverişli formada çatdırması siyasi rejimin narahat etmişdir, Ona görə də Bəşər Əsəd müxtəlif tədbirlərə əl atmışdır. Nümunə kimi 2007-ci ildə Facebooku qadağan etmişdir (29).

Bütün bu siyasi təzyiqlər xalqda hökumətə qarşı nifrət hissini gücləndirmiş, nəticədə insanlar Əsədin hakimiyyətini qəbul etməyərək daha geniş və təşkilatlanmış şəkildə nümayişlər keçirmə başlamışdır (31).

## 3. Regional və qlobal güclərin vətəndaş müharibəsinə təsiri

Daxili səbəblərdən başqa bir sıra xarici güclərin ölkə daxilində geosiyasi maraqlarının ziddiyyətli xarakter daşıması da müharibənin baş verməsində zəmin rolunu oynamışdır. Suriyadakı siyasi böhranın əvvəlindən etibarən iki fərqli qütb mövcud olmuşdur. Birincisi Sünniləri dəstəkləyən qütbdür. Əsasən qərb ölkələrinin təmsil olunduğu bu qütbdə, Türkiyə, Səudiyyə Ərəbistanı, Qətər və İordaniya kimi ölkələr təmsil olunur. Digər qütbdə isə şiə tərəfdarları təmsil olunur və bir mənada Qərbə qarşı mövqeyi ilə seçilir. Bu ölkələr sırasına isə İran, Rusiya, İraq və Livan aiddir. Bu iki qütbdə təmsil edilən 4 ölkənin (Rusiya, İran, Türkiyə, ABŞ), Suriya ilə olan əlaqələri və siyasi proseslərə təsirini də aydınlaşdırmaq zəruridir (10, 1).

### 3.1. Suriyanın İran və Türkiyə ilə münasibətləri

1979-cu ildən bu yana İran-Suriya münasibətlərinə diqqət yetirdikdə xüsusilə İraq-İran müharibəsinin gedişində münasibətlərin yüksək səviyyədə qurulmasının şahidi oluruq. Xüsusilə hər iki ölkədə xarici dairələrin təsiri nəticəsində baş verən siyasi böhranlı

vəziyyət sözügedən ölkələrin bir-birinə yaxınlaşmasını şərtləndirmişdir. (20, 1). Belə ki, İranın təhlükəsizlik və xüsusi xidmət orqanları Suriya ordusuna Əsədin mövqeyini qoruması məqsədilə yardım etmişdir (19, 6). İki ölkə də Amerikanın İraqdakı fəaliyyətinə etiraz etmiş, Hizbullahı Livanda, Həması isə Fələstində dəstəkləmişdir. Başqa sözlə, ortaq düşmənləri olan ABŞ-ı Yaxın Şərqdə məğlub etmək məqsədilə hər iki dövlət öz qüvvələrini birlikdə səfərbər etmişdir (38, 2). İki ölkənin münasibətlərini müəyyənləşdirdikləri oxşar siyasi prioritetlərə malik olmaları ilə yüksələn xətlə inkişaf etməkdədir. Birinci prioritetləri rejimin siyasi dayanıqlığını təmin etmək, ölkələrin ikinci və üçüncü prioritetləri isə öz növbəsində milli təhlükəsizlik və ərazi bütövlüyünün qorunmasıdır. Suriya məsələsində isə İranın əsas siyasi hədəfi isə ABŞ və İsrailə qarşı mübarizədə Suriyaya hər cür siyasi dəstəyi təmin etməkdən ibarətdir. Bununla yanaşı, iki ölkənin münasibətlərinin hal-hazırda yüksək səviyyədə davam etməsində İranın Şiə rejiminin və Suriyanın yenə Şiə İslamın bir qolu olaraq hesab edilən Ələvi rejiminin təsiri olduqca böyükdür. Suriyada mövcud olan böhran, bölgədəki yeganə Şiə müttəfiqini itirmək təhlükəsi ilə üzləşən İranın həm regional, həm də beynəlxalq gücünə qarşı bir təhdid yaradır. Əsədin devrilməsinin ehtimalı da İranın region üzərində çatmağı planlaşdırdığı hədəflərin qarşısına bir sədd çəkir. Əsəd isə ölkə sərhədləri içərisində itirdiyi gücünü İran və Rusiya kimi müttəfiqlərinin dəstəyi ilə davam etdirməyə çalışır.

Soyuq Müharibənin başa çatmasından sonra Suriya-Türkiyə münasibətləri isə Suriyanın PKK terror təşkilatını dəstəkləməsi, Dəclə və Fərat çaylarının su resurslarının bölüşdürülməsi, Hatay Vilayətinin statusu kimi məsələlər səbəbindən gərginliklərlə yadda qalmışdı. Bu vəziyyət 1998-ci ildə Türkiyənin Suriyanı PKK lideri Abdullah Öcalanı təslim etməməsi dolayı müharibə ilə təhdid etməsi ilə daha ciddi siyasi xarakter almışdır. Türkiyənin bu cür sərt mövqeyi öz nəticəsini göstərmiş, Suriya kompromisə getməyə məcbur qalmışdır. Ak Partiyanın da hakimiyyətə gəlməsi ilə iki ölkə ilə sıx əlaqələr qurulmağa başlamışdır. Xüsusilə turizm, ticarət, investisiya kimi məsələlərdə münasibətlər inkişaf etdirilmiş, birgə hərbi təlimlər təşkil etmişdir (10, 80). Lakin Ərəb Baharı Dəməşqin xarici siyasətində ciddi dəyişikliklərə yol açmışdır (35, 135). 10 illik əməkdaşlıqdan sonra 2011-ci il böhranı ilə Türkiyənin Suriyaya qarşı mövqeyi tamamilə əks istiqamətdə dəyişmişdir. Türkiyə, Ərəb Baharının baş verdiyi digər ölkələrlə müqayisədə bu dəfə daha fərqli bir mövqe nümayiş etdirmiş, Suriya Böhranında fəal rol oynamağı əsas siyasi prioritet olaraq qəbul etmişdir. Hal-hazırda Türkiyə açıq şəkildə Əsədin devrilməsini istəyir və müxalifətə dəstək çıxır. Suriyada siyasi gərginlik başladıqdan sonra Türkiyə Əsəd rejimini islahat aparmağa çağırmış, artan qaçqın sayına baxmayaraq 2011-ci ilin sonuna qədər islahatların reallaşması üçün gözləmiş, Əsəd rejiminə qarşı sərt mövqe nümayiş etdirməkdən çəkinmişdir (10, 79). 2011-ci ilin sonundan etibarən Baş Naziri Ərdoğan ilk dəfə Əsədin istefa verməsinin labüdlüyünü qeyd etmiş bundan sonra dövlətlər arası münasibətlər gərginləşməyə başlamışdır (30). 2012-ci ildə isə Türkiyə təhlükəsiz bölgə tələbi ilə çıxış edərək, BMT, NATO və ABŞ-ı Suriyaya hərbi müdaxilə etməyə çağırmış, ancaq dəstəklənməmişdir (35, 131). Göründüyü kimi, Türkiyə qonşuluğunda yerləşən və ölkədəki daxili duruma təsir etmək imkanı olan Suriya böhranında fəal siyasi mövqeyi ilə seçilməkdədir (32, 1).

### 3.2 Suriyanın Amerika Birləşmiş Ştatları və Rusiya İlə Münasibətləri

ABŞ-Suriya münasibətləri rəsmi olaraq 1944-ci ildə başlamışdır. 1967-ci ildə Ərəb-İsrail müharibəsinin baş verməsi ilə münasibətlərdə durğunluq yaranmış, 1974-cü ildə yenidən bərpa olunmuşdur (37). 1990-ci ildə Səddam Hüseynin Küveyti işğalından sonra ABŞ və Suriya münasibətləri daha da yaxınlaşmışdır. Suriya Amerikanın rəhbərlik etdiyi Küveyti azad etmə əməliyyatında iştirak etmişdir. 1990-2001-ci illərdə davam əməkdaşlıq münasibətləri Suriyanın Livanı işğal etməsi ilə gərginləşməyə başlamışdır. Amerika

Suriyanı terrorçu qrupları dəstəkləməkdə günahlandırmış və bu işğala etiraz etmişdir. Bu istiqamətdə ABŞ Suriyaya iqtisadi sanksiyalar tətbiq etmişdir (17). Vətəndaş müharibəsinin başlanması ilə Əsədin istefasını tələb edən ABŞ, beynəlxalq arenada problemin həlli üçün aparılan danışıqlarda əsas güc mərkəzi kimi çıxış etmişdir. Xüsusilə Suriyaya humanitar yardım məsələsində fəallıq göstərən ABŞ, bir tərəfdən də ölkəyə qarşı 2004-cü ildən bəri qüvvədə olan iqtisadi sanksiyaları sərtləşdirməyə davam etmişdir (37).

Suriya-Rusiya münasibətləri hələ Sovet Rusiyası dövründə formalaşmağa başlamışdır və həmin dövrdə Suriya ilə SSRİ arasında xüsusən hərbi sahədə əməkdaşlıq daha qabarıq şəkildə özünü göstərmişdir. Bu münasibətlər 1980-ci ildə iki ölkə arasında imzalanmış Dostluq və İttifaq Sazişi ilə daha da möhkəmlənmişdir. Bu yaxın münasibətlərə baxmayaraq Suriyanın Qərblə yaxınlaşmaq istəyi təzahür etmişdir. Həmçinin, Suriyanın müstəqil siyasət yürütmək istəyi SSRİ ilə münasibətlərinin pozulmasına səbəb olmuşdur. Hafiz Əsədin hakimiyyətinin sonlarına doğru SSRİ-nin süqutu ilə bərabər münasibətlərdə soyuqluq özünü göstərməyə başlamışdır. Məsələn, SSRİ-nin illərlə göstərdiyi hərbi yardım Rusiya tərəfindən davam etdirilməmişdir. Lakin Rusiyada Putinin hakimiyyətə gəlişi münasibətlər yenidən müsbət məcraya yönəlmişdir. Suriya Rusiyanın nüfuz dairəsinin genişləndirməsi baxımından olduqca əhəmiyyətli geopolitik ərazidir. Bu səbəbdən həm iqtisadi, həm hərbi yardımlar yenidən bərpa olunmuşdur. Başqa sözlə, iki ölkə arasındakı əlaqələr siyasi və strateji maraqlar naminə güclənmişdir (11, 1). Bundan başqa, Rusiya avtokratik rejimlərə qarşı yönələn Ərəb Baharının hərəkatına qarşı çıxmış, xüsusən regionda əsas müttəfiq kimi gördüyü Suriyada Əsədin hakimiyyətinin qorunub-saxlanılmasına çalışmışdır (7). Ancaq Rusiyanın Əsəd rejimini dəstəkləməsi ölkədə siyasi təlatümlərin artmasına və siyasi böhranın dərinləşməsinə rəvac vermişdir (28, 3).

**Nəticə**

Bütün qeyd edilənlər Suriyada uzun müddətdir davam edən vətəndaş müharibəsinin yalnız Ərəb Baharının gətirdiyi xalq hərəkatından qaynaqlanmadığını, əksinə, müxtəlif ictimai-siyasi səbəblərin, xarici amillərin və Suriya tarixinin tərkib hissəsi kimi ortaya çıxdığını göstərir.

İctimai-siyasi səbəblər içərisində məzhəb fərqlilikləri və iqtisadi çətinliklərin yanaşı, hakimiyyətdə təmsil olunan şəxslərin xalqa qarşı siyasi təzyiqlərini də ölkədəki siyasi durumu çətinləşdirən əsas faktorlardan biridir. Suriya tarixində bir-birini əvəzləyən avtokratik rejimlərin insanlara qarşı göstərdiyi zorakılıqlar xüsusilə Hafiz Əsəd dövründən etibarən ölkə daxilində güclü bir müxalifətin formalaşmasına səbəb olmuşdur. Müsəlman Qardaşları adlı təşkilatın timsalında bu müxalif qruplar güclü repressiyalara məruz qalmışdır.

Bəşər Əsəd dövründə də ziyalı şəxslərin rəhbərliyi ilə "Dəməşq Baharı" adlı hərəkatı nümunəsində müxtəlif zamanlarda etirazlar başqa qaldırmış, ancaq hər biri digərindən daha sərt şəkildə yatırılmışdır. Ərəb Baharının ortaya çıxması isə artıq xalq üsyanlarını yatırılmayacaq bir ölçüyə gətirmiş, sürətlə ölkə ərazisinə yayılan etirazların qarşısını almaq rejim tərəfindən mümkün olmamışdır. Lakin diqqət çəkən başqa önəmli məqam ondan ibarətdir ki, hər nə qədər müxaliflərin sayı və gücü geniş miqyaslı xarakter daşısa da, bu etirazlar Əsəd hakimiyyətinin devrilməsi üçün yetərli olmamışdır. Belə ki, Suriyada uzunmüddətli geosiyasi maraqları olan qlobal və regional güclərin vətəndaş müharibəsinə müdaxiləsi və ölkədaxili proseslərdə iştirakı müxaliflərin mövqeyini zəiflətmişdir. Xüsusilə də Rusiya və İranın hərbi güc də daxil olmaqla bir çox aspektdən rejimi dəstəkləməsi Əsədin günümüzə qədər hakimiyyətdə qalmasını təmin edən əsas faktordur. Göründüyü kimi Amerika Birləşmiş Ştatları başda olmaqla qərb dövlətlərindən gələn dəstək müxaliflər üçün yetərli olmamışdır.

Nəticə etibarı ilə, tarixən Suriyada mövcud olan avtokratik idarəçilik, məzhəblərarası ixtilaf və iqtisadi çətinliklərin doğurduğu vətəndaş müharibəsi hazırda davam siyasi situasiyanın müsbətə doğru dəyişməsinə əngəl törətməkdədir. Ölkədəki böhranlı vəziyyəti aradan qaldırmaq üçün ilk növbədə daxili prosesləri diqqətlə analiz edib konkret təkliflər irəli sürmək, həmçinin regional və qlobal güclərin bölgədəki maraqlarının ortaq nöqtədə kəsişməsini təmin etməklə mümkündür.

## ƏDƏBİYYAT


1. Mustafa B. Suriye Raporu. İstanbul: Cumhuriyyet kitapları, 2006, 288 s.
2. Sabahattin Ş. Ortadoğuda İdeolojik Bunalım. Suriye BAAS partisi ve ideoloji. İstanbul: Birey Yayıncılık, 2004, 376 s.
3. Abboushi Political Systems of the Middle East in the 20th Century. New York: Dodd Mead, 1971, 345 s.
4. Alan G. Syria: Neither Bread nor Freedom. London: Zedbooks, 192 s.
5. İtamar R, Syria under the Ba‘th, 1963–66. Israel Universities Press. 1972. 276 s.
6. Maoz M., Winckler O. Modern Syria: From Ottoman Rule to Pivotal Role in the Middle East, Sussex Academic Press, 1999, 296 s.
7. Nikolaos Van Dam. Destroying a Nation: The Civil War in Syria. London: Tauris Co Ltd. 2017, 256 s.
8. Raymond H. Syria: Revolution From Above. London: Routledge, 2002, 204 s.
9. Raymond H. Syria: From Authoritarian Upgrading to Revolution? *International Affairs,* Volume 88, Issue 1, January 2012, 95-113 s.
10. Mehmet N.U. The Economy Reflections of Turkey-Russian Relationship During Syria Crisis, International Conference on Eurasion Economies 2017, Session 3A: International Economics (https://www.avekon.org/papers/1866.pdf)
11. Aghayev E. and Katman F., 2012, Historical Background and the Present State of the Russian Syrian Relations, 2012 (http://www.erjournal.ru/journals_n/1354741741.pdf)
12. Aron L. Drought. Corruption and War: Syria’s agricultural crisis, Carniege Middle East Center, 2014 18 aprel (https://carnegie-mec.org/diwan/55376?lang=en)
13. BBC News, Syrian President Bashar Al-Assad: Facing down rebellion, 3 sentyabr 2018 (https://www.bbc.com/news/10338256)
14. BBC News “Syria Profile: Timeline”, 2016, 6 may (http://www.bbc.com/news/world-middle-east-14703995)
15. Brammer A.B. Alawites and the Fate of Syria, 2014 4 yanvar (http://origins.osu.edu/article/alawites-and-fate-syria)
16. Carniege Middle East Center, The Damascus Spring, 2012 aprel (https://carnegie-mec.org/diwan/48516?lang=en)
17. Crane M. Middle East: U.S-Syrian Relations, 2005 22 fevral (https://www.cfr.org/backgrounder/middle-east-us-syrian-relations#p0)
18. David B. Syrias Economy Picking up the Pieces, 2015 iyun (https://www.chathamhouse.org/sites/default/files/field/field_document/20150623SyriaEconomyButter.pdf)
19. Fulton Holliday & Wyer. Iranian Strategy in Syria, 2013 may (http://www.understandingwar.org/sites/default/files/IranianStrategyinSyria-1MAY.pdf)
20. Goodarzi J. M, Syria and Iran: Alliance cooperation in a changing regional environment, 2013 yanvar (https://dergipark.org.tr/download/article-file/209654)
21. Harvard Divinty School. The Baath Party in Syria (https://rlp.hds.harvard.edu/faq/baath-party-syria)
22. Harvard Divinty School. Syria Country Profile, 2016. 27 fevral (http://rlp.hds.harvard.edu/files/hds-rlp/files/syria_country_profile.pdf?m=1457568787)
23. Jamal M. Syria’s Fraile Economy, Before and after the revolution, 2013 aprel (http://english.alarabiya.net/en/perspective/alarabiya-studies/2013/04/01/Syria-s-frail-

economy-before-and-after-the-revolution.html)
24. Manfreda P. The Difference Between Alawites and Sunnis in Syria, 2019 30 iyul (https://www.thoughtco.com/the-difference-between-alawites-and-sunnis-in-syria-2353572)
25. Neil M. Hafez Al-Assad, Who turned Syria into a Power in Midde East, New York Times, June 11 2000 (www.nytimes.com/2000/06/11/world/hafez-al-assad-who-turned-syria-into-a-power-in-the-middle-east-dies-at-69.html?pagewanted=all)
26. Nguyen P. M. Syrian Alawites; Their History, Their Future, 2015 28 oktyabr (http://www.theislamicmonthly.com/syrian-alawites-their-history-their-future/)
27. Nimrod R. Syria's Fragile Economy, 2007 iyun (https://www.israpundit.org/syrias-fragile-economy/)
28. Nizameddin T. Russia and Syria, 2012 iyul (http://www.cicerofoundation.org/lectures/Talal_Nizameddin_RUSSIA_SYRIA.pdf)
29. Oweis K.Y. Syria Blocks Facebook in Internet Crackdown, 2007 24 Noyabr (https://www.reuters.com/article/us-syria-facebook-idUSOWE37285020071123)
30. Philips C. Into the Quagmire: Turkey's Frustrated Syria Policy, 2012 dekabr 5 (https://www.chathamhouse.org/sites/default/files/public/Research/Middle%20East/1212bp_phillips.pdf)
31 Ramadan T. The Syrian Maelstrom: How Repression, Drought & Climate Change Drove the Civil War, 2014 23 sentyabr (https://www.juancole.com/2014/09/maelstrom-repression-climate.html)
32 Raymond H. Back to Enmity Turkey-Syria Relations Since the Syrian uprising, 2015 (https://research-repository.st-andrews.ac.uk/bitstream/handle/10023/6068/Turkey_Syria_Relations_Ori-ent_I_2015_Hinnebusch_1_.pdf?sequence=1&isAllowed=y)
33 The Economist, The Economist Explains Why Russia is an ally of Assad, 2015 30 sentyabr (https://www.economist.com/the-economist-explains/2015/09/30/why-russia-is-an-ally-of-assad)
34 Thomas P. Crown Center for Middle East, Brandeis University, 2014 fevral. (https://www.brandeis.edu/crown/publications/meb/MEB77.pdf)
35 Tziarras Z. Turkey's Syria Problem, 2015. (http://da.unic.ac.cy/wp-content/uploads/2015/10/vol_11-no_3-tziarras.pdf)
36 UNHCR, Bureau of Democracy. Human Rights, and Labor. 2011 8 aprel (http://web.archive.org/web/20121120173922/http://www.unhcr.org/refworld/country,,,,SYR,,4da56d83a2,0.html)
37 U.S. Department of State, Bureau of Near Eastern Affaırs, U.S Relations with Syria 2018 23 iyul (https://www.state.gov/u-s-relations-with-syria/)
38 USIP, Syria's Alliance with Iran, 2007 may (https://www.usip.org/sites/default/files/syria_iran.pdf)
39 Volker P. Syria Under Bashar al-Asad: Modernisation and the Limits of Change, London, Oxford University Press for International Institute for Strategic studies 2004. (https://kissly.net/book/974A000FB30559E41776?utm_source=ps46&utm_medium=siqopaquno.tk&utm_campaign=fnom&x=4181581)
40 William P, Understanding: From Pre-Civil War to Post-Assad, 2013 dekabr (https://www.theatlantic.com/international/archive/2013/12/understanding-syria-from-pre-civil-war-to-post-assad/281989/)
41 Yuri B. A Short History of Syria's Brutal First Family, 2013 sentyabr (https://www.mic.com/articles/62771/a-short-history-of-syria-s-brutal-first-family#.qaGKQcMPG)

***Резюме***

***Тамерлан Ахмедлы***

***Исторические корни гражданской войны в Сирии и вызвавшие ее причины***

«Арабская весна», которая, начиная с Туниса, постепенно начала распространяться на другие страны региона, не обошла и Сирию. Если раньше народные протесты воспринимались властью страны спокойно, то массовая вспышка протестов в масштабах страны заставило правительство страны обратиться к насильственным методам. Ситуация, которая со стороны больше оценивалась как межсектовый конфликт, в действительности представляла собой общенародное движение низшего слоя, направленное против управления существующего режима. В последующем развитии событий вооружение оппозиции повлекло страну в большой хаос. Вмешательство международных сил в политические процессы внутри страны еще больше напрягло политическую обстановку в регионе. Гражданская война, начавшаяся в Сирии в целом с 2011 года, и продолжающиеся по сей день столкновения привели к серьезному политическому кризису. А кризисная ситуация послужила основанием для образования в регионе различных террористических организаций и расширения их деятельности. Безусловно, возникновение в стране подобной негативной политической ситуации связано с рядом факторов. Здесь следует отметить как экономические, политические, социальные аспекты, так и давление продолжающегося долгое время автократического режима. В том числе столкновение интересов региональных и глобальных сил по региону привело к плачевным для Сирии последствиям. И что самое важное, мир и спокойствие в регионе обеспечить не удалось. С этой точки зрения тщательный просмотр процессов, происходящих в Сирии, с установлением факторов, влияющих на политическую среду, имеет существенное значение для прекращения наступивших в регионе катаклизмов. Также субъекты, составляющие гражданскую войну в Сирии, необходимо разделить на два ключевых направления – внутренние и внешние. С другой стороны, выяснение интересов субъектов конфликта с обеих сторон, установление посреднической позиции между двумя открытыми к диалогу сторонами и взаимный компромисс в некоторых вопросах носит важный характер для восстановления мира в Сирии. Принимая к сведению указанное, необходимо просмотреть события, которые имели место с прошлого по наши дни, чтобы оценить происходящие в стране политические тенденции в общем аспекте.


***Ключевые слова:*** *Сирия, Асад, режим, война, кризис*


***Summary***

***Tamerlan Ahmadli***

***Historical roots and causes of civil war in Syria***

The influence of “Arabic spring” beginning from Tunis and penetrating to the other countries of the region also affected Syria. Earlier the national movement was met by the country government quietly, but spreading of the protests massively in the country scale made the country government apply the violent methods. The situation evaluated more as the intersectal conflict from the beyond was actually a national movement of lower class directed against the administration of the current regime. Being armed of the opposition in the subsequent progress of the events led the country to enormous chaos. The intervention of the international powers to the internal political policies intensified the political situation in the region entirely. The critical situation created basement for the enlargement of the creation and activity of the different terror organizations in the region. Of course, the creation of such negative situation in the country is related to many factors. In such case, it should be mentioned both economic, political, social aspects and the influence of autocratic regime continuing in the country for long time. As well as the crossing of the interests of regional and global powers for the region caused unpleasant results for Syria. The most importantly, it was not possible to provide the peace and tranquility in the region. In this respect, determination of factors influencing social environment by considering carefully the processes occurred in Syria is of important significance in respect of to end the political cataclysm occurred in the region. As well as it is inevitable to separate the subjects involved to the civil war in Syria for two main direction being internal and foreign subjects. In the second side, clarifying the interests of conflict subjects, determining the common position between the parties open to dialogue and compromising mutually in some issues are of important characteristics for establishing the peace in Syria. Taking into account the mentioned, it is necessary

to consider the events occurred from past up to now for evaluating the political tendencies occurred in the country in the general aspect.

***Key words**: Syria, Asad, regime, war, crisis*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 32; 327**

# AVROPADA MİQRANT BÖHRANI VƏ İSLAMAFOBİYANIN ARTMASI

**Tərlan ORUCOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 16 aprel 2019; çapa qəbul edilmişdir: 9 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019.
Received: 26 March 2019; accepted: 9 July 2019; published online: 25 September

***Açar sözlər:*** *islamofobiya, müsəlmanlar, miqrasiya, miqrasiya siyasəti, inteqrasiya, miqrant böhranı*

## Giriş

"Müasir dövrdə Avropa ölkələrinin üzləşdiyi əsas problemlərdən biri orada islamofobiyanın geniş yayılmasıdır. Belə ki, islamofobiya dözümsüzlüyün və ayrı-seçkiliyin forması kimi etnik və dini zəmində qarşıdurmaya səbəb olaraq Avropa ölkələrinin sosial-iqtisadi inkişafına, ümumilikdə onların demokratik inkişafına ciddi maneə yaradır. Qərbi Avropa ölkələrində islamofobiyanın yayılması bu ölkələrdə multikulturalizmin iflasa uğramasının əsas göstəricilərindən biridir". (1, s. 119) Avropada islamofobiya meyllərinin artmasına şərait yaradan digər faktor isə Suriya vətəndaş müharibəsi nəticəsində müsəlmanların kütləvi şəkildə Avropa ölkələrinə gəlmələri oldu.

Suriyada vətəndaş müharibəsindən sonra artan köç əvvəlcə qonşu ölkələrə təsir etmiş sonra Avropaya qədər uzanmışdır. 2015-ci ildən etibarən bu köç dalğasının Avropaya sıçraması ilə qitədə vəziyyət gərginləşmişdi. İkinci dünya müharibəsindən bəri Avropa belə mürəkkəb və geniş miqyaslı qaçqın axını ilə üzləşməmişdi. 2015-2016-cı illəri əhatə edən miqrant böhranı zamanı Avropa qitəsinin sərhədini 2.3 milyondan çox qanunsuz miqrant keçmişdir. 2017-ci ildə Aİ-yə daxil olan qeyri-qanuni sərhəd keçənlərin ümumi sayı 204,7 minə ensə də, miqrantların sayında baş verən azalma Avropada problemlərin bitməsi demək deyildi. Avropa ölkələri hələ də 2014-cü ildən bəri gələn təxminən 1,8 milyon miqrantı yerləşdirməyə çalışır (5).

## İnteqrasiya problemləri

Sığınacaq axtaran miqrantların cəmiyyətə inteqrasiyasına dəstək üçün Avropa ölkələri müxtəlif proqramlar həyata keçirir. "2014-cü ilin nəticələrinə əsasən, Miqrant İnteqrasiya Siyasəti İndeksi (MİPEX) üzrə miqrant siyasətinin ən uğurlu dövlətləri İsveç, Portuqaliya, Yeni Zelandiya, Finlandiya, İsveç olduğu halda, ən sərt miqrasiya siyasəti həyata keçirən ölkələr Türkiyə, Latviya, Kipr, Litva və Slovakiyadır" (7). Almaniya, İspaniya, İsveç, İsveçrə və Norveç miqrantların inteqrasiyasını dəstəklədiyi halda Fransa, Macarıstan və Polşada isə rəsmi orqanlar tərəfindən heç bir proqram tətbiq edilmir. Avropa ölkələrinin siyasi, sosial və iqtisadi kontekstləri və miqrasiya keçmişləri fərqli olduğu üçün bir ölkədə uğurlu olan proqram digərində olmaya bilər. Avropa ölkələrinin çoxu, xüsusilə Suriya vətəndaş müharibəsi nəticəsində artan miqrant axınından narazı olsa da, bu axının iqtisadiyyatın inkişafına verdiyi töhfə də nəzərə alınmalıdır. Avropada işləyə bilən gənc nəslin azalması, yaşlı nəslin artması məlum həqiqətdir. Bunu nəzərə alanda əksəriyyəti gənclərdən ibarət olan miqrantların qocalmaqda olan Avropa əhalisinə işçi

* doktorant, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
*e-mail: terlann.orujova@gmail.com*

qüvvəsi dəstəyi təmin edəcəyi düşünülür. Bəziləri yeni gələnlərin sürətlə yaşlanan Avropa əhalisinə dinamika gətirəcəyinə, Avropanın demoqrafik və miqrasiya böhranı ilə üzləşməsinə baxmayaraq, miqrasiya böhranının demoqrafik problemi həll etmək üçün bir fürsət ola biləcəyinə ümid edir. Demoqrafik dəyişikliklər ilə bağlı narahatlıqlar real olsa da, miqrasiya böhranının Avropa ölkələrində demoqrafik böhranı hərtərəfli həll edə biləcəyi ehtimalları yanlışdır. Çünki yeni gələnlərin Avropa ölkələrində əmək bazarına və cəmiyyətə inteqrasiyası çətindir. Bəzi qrupların inteqrasiyası uğurlu olsa da, ümumilikdə yerli əhali və miqrantlar arasında sosial-iqtisadi boşluq mövcuddur. Bu dezavantaj immiqrantların uşaqlarına da təsir edir. Yüksək təhsilli miqrantların Avropada əmək bazarına daxil olmasına baxmayaraq, yeni gələnlərin əksəriyyəti əmək bazarında daxil olmaqda bəzi çətinliklərlə üzləşirlər. Bunlara aşağı təhsil, məhdud dil bilikləri, yerli işəgötürənlərin tələb etdiyi bacarıq və təcrübəyə sahib olmama kimi məsələlər daxildir. Bildiyimiz kimi, inteqrasiyanı formalaşdıran bir neçə faktor var. Yuxarıda müzakirə edilən immiqrantların fərdi xüsusiyyətlərindən başqa, qəbul edən ölkənin immiqrasiya tarixi; miqrantlara xoş münasibət (və ya olmaması), inteqrasiya ətrafında siyasi kontekst və dialoq, rifah modeli, iqtisadi, sosial və demoqrafik tendensiyalar kimi fərqli təcrübələr inteqrasiya prosesinə əsaslı şəkildə təsir edir. Bəzən təhsilli olmaq belə miqrantların gəldiyi ölkədə uğur qazanacağına zəmanət vermir. Bacarıqlı miqrantların işsiz qaldığı nümunələr az deyil. Avropa ölkələrində yaşayan xarici miqrantlar yerli əhali ilə müqayisədə bütün iqtisadi göstəricilər (məşğulluq və iqtisadi fəaliyyət dərəcəsi, işin keyfiyyəti və s.) üzrə aşağı nəticələrə malikdir. Miqrantlar içərisində müsəlmanlar isə məşğulluq sahəsində açıq-aşkar diskriminasiya ilə üzləşirlər.

Avropa ölkələrində yaşanan miqrant böhranının əsas səbəblərindən biri miqrantların Avropanın dini və mədəni dəyərlərindən fərqli bir coğrafiyadan gəlməsidir. İmmiqrantların çoxunun müsəlman olması inteqrasiya problemlərinə yol açır, müsəlman miqrantlar irqçilik, ayrı-seçkilik və şiddətə məruz qalırlar. Bundan əlavə, Avropa ölkələrində İslam və müsəlmanlara qarşı hücumların sayı gün keçdikcə artır. İslam düşmənçiliyinə müsəlmanlara qarşı həyatın bütün sferalarında ayrı-seçkilikdən tutmuş, başörtüyü və çadra qadağalarına, ibadət azadlığının məhdudlaşdırılması, məscidlərə hücumlar, müsəlman ölkələrdən gələn miqrantlara qarşı tədbirlər görülməsinə qədər bir çox sahədə rast gəlmək olar.

**Müsəlmanların inteqrasiyası üçün uyğun şəraitin yaradılmaması**

İslami dəyərlərin və praktikaların müasir Avropa mədəniyyətinə uyğunlaşa bilməyəcəyi fikrinə Avropada bütün siyasi dairələrdə rast gəlinir. Müsəlmanlar problem olaraq qəbul edilir, çünki onların həqiqətən Avropa cəmiyyətlərinə inteqrasiyaya qadir olmadığı, bunun əvəzinə, Avropaya öz mədəniyyətlərini nəql etdikləri düşünülür. Müsəlmanların Avropaya demoqrafik və mədəni cəhətdən hakim olmaq üçün səy göstərdikləri düşüncəsi "Eurabia" məfhumunun ortaya çıxmasına səbəb olmuşdur. Avropalılar müsəlmanları inteqrasiya etməməkdə günahlandırdıqları halda, özləri müsəlmanların inteqrasiyası üçün uyğun şərait yaratmır. Rud Kupmanın "Miqrantlar üçün Vətəndaşlıq Hüquqlarının Göstəriciləri"nə əsasən 23 göstəricidən 14-ü birbaşa dini hüquqlara yönəlib ki, Avropa ölkələri nəinki bu hüquqları təmini üçün münbit şərait yaratmır, əksinə onları məhdudlaşdıraraq müsəlmanların cəmiyyətdən təcrid olunmasına səbəb olurlar. Həmin göstəricilər aşağıdakılardır;

1) Qurban kəsilməsinə icazə verilməsi; 2) İbadətə səsləyən azana icazə verilməsi; 3)Minarələrlə inşa edilmiş məscidlərin sayı (100 min müsəlmana görə hesablanır); 4) Müsəlmanlar üçün ayrı qəbiristanlıqların və ya qəbiristanlıqlarda ayrı bir bölmənin mövcudluğu;5) Müsəlmanların tabutsuz dəfninə icazə; 6) Dövlət tərəfindən maliyyələşdirilən

İslam məktəblərinin sayı (100 min müsəlmana görə hesablanır); 7) Dövlət tərəfindən təmin olunan xərclərdə İslam məktəblərinin payı; 8) Dövlət məktəblərində İslam dini dərsləri; 9) Qadın müəllimlərin hicab taxması hüququ; 10) İbtidai və orta məktəblərdə qız şagirdlərinin hicab taxması hüququ; 11) İctimai yayımda İslam dini proqramları; 12) Hərbidə imamların olması; 13) Həbsxanalarda imamların olması; 14) Tanınmış müsəlman məsləhətçi orqanlarının mövcudluğu və imtiyazları (3, s. 172).

Müxtəlif Avropa ölkələrində hicab qadağası, İsveçrədəki “Minarə Referendumu”, İslam və onun peyğəmbəri haqqında karikaturaların nəşr olunması kimi faktlara nəzər salındıqda bu göstəricilərin yerinə yetirilmədiyi aydın olur. Avropada universitetlərdə məscidlərin bir-bir bağlanması və müsəlmanlar üçün çox vacib olan cümə namazının qadağan edilməsi, ibadət azadlığını məhdudlaşdırılması ən əsas hüquqlardan biri olan din və vicdan azadlığının pozulmasına gətirib çıxarır. Müsəlmanlara qarşı bu münasibətin nəticəsi olaraq inteqrasiyaya və sosial birliyə ciddi təhlükə yaranır. Beləliklə, Avropada 2015-2016-cı illərdə baş verən miqrasiya böhranı yalnız miqrasiyanın idarəedilməsi və sığınacaq institutları ilə bağlı problem yaratmadı, Avropada inteqrasiya proseslərinə də meydan oxudu.

### Terror aktları və müsəlmanlara qarşı qərəzin artması

Miqrant böhranı və son dövrdə baş verən terror aktları müsəlmanlara istiqamətlənən qərəzi artırmış və müsəlmanlar Avropada arzu edilməz azlıqlara çevrilmişlər. Beləliklə, miqrasiya ilə bağlı təhlükə hissini Avropada bir sıra terror hücumlarının baş verməsi daha da şiddətləndirmişdir. Avropalıların böyük bir qismi 2011-ci ildən sonra həyata keçirilən terrorist hücumları üçün müsəlman qaçqınları, xüsusən də Suriyalıları günahlandırır, halbuki terrorçuların əksəriyyəti Qərbi Avropa ölkələrinin vətəndaşıdır. Bu hücumların çox azı, miqrantlar və ya cihadçılar tərəfindən həyata keçirilmişdir. “Europol 2016-cı ildə 142 hücumdan sadəcə 13-ünü müsəlmanların törətdiyini qeyd edir”. (6) Buna baxmayaraq, Parisdə 2015-ci ilin noyabrında təşkil edilən terror kimi bəzi hücumların miqrant mənşəli insanlar tərəfindən törədilməsi inteqrasiya, birinci və ikinci nəsil miqrantların radikallaşması ilə əlaqədar narahatlıqları artırdı. Populist radikal fikirləri olan bəzi siyasətçilər tərəfindən gələcək hücumların olacağı fikri səsləndirilməyə başlandı. Terror hücumları, medianın da təsiri ilə terrorizm, dini ifadə və miqrasiya kimi mövzularda ictimai müzakirəni daha da qızışdırdı və irqçi, ksenofobik və İslamofobik önyargıları legitimləşdirdi. Ona görə hökumət və KİV-lər dil seçimlərinin ictimai müzakirəyə necə önəmli təsir etdiyini nəzərə almalıdırlar. KİV-də İslamafobiyanı qınayan və onunla mübarizə aparan ictimai bəyanatlar kifayət qədər təsir gücünə malikdir. Danimarkada həddindən artıq sağçı və immiqrant əleyhdarı Danimarka Xalq Partiyasının Sədr köməkçisi Soren Espersen də Avropadakı hücumlarla əlaqədar müsəlmanları günahlandırmış, Danimarkanın “möhlətə ehtiyac duyduğunu və müsəlman miqrantların ölkəyə girmələrinin 6 illiyinə qadağan edilməsi lazım olduğunu söyləmişdir. (12).

### Müsəlmanlara qarşı dözümsüzlüyün artması

Avropada müsəlmanlara qarşı stereotiplərin artması əhali arasında keçirilən müxtəlif sorğularda öz əksini tapmışdır. Məsələn, Polşa vətəndaşları hesab edir ki, müsəlmanlar cəmiyyətin 7%-dən daha çoxunu təşkil edir, əslində isə müsəlmanlar əhalinin 0,1%-dən azını təşkil edir. Belə yanlışlıq digər Aİ ölkələrində də var. 2016-ci il İpsos Mori keçirdiyi sorğuya əsasən 40 ölkədə ictimai rəy və gerçəklik arasındakı fərqi ölçərək müəyyən edilmişdir ki, insanlar müsəlmanların cəmiyyətin daha çox faizini təşkil etdiyini düşünürlər. Halbuki müsəlmanların real sayı respondentlərin düşündüklərindən daha azdır-Böyük Britaniyada 3, Fransada 4 dəfə azdır (8). Şübhəsiz ki, müsəlmanların bu cür qavranılmasının səbəbləri hökumətlərin anti-immiqrant mövqeləri, təhsilin olmaması, təhlükəsizlik

problemləri və son olaraq müsəlmanlarla şəxsi əlaqələrin olmamasıdır. 2017-ci ilin iyul ayında Avropa Komissiyasının müsəlman ölkələrindən olan qaçqınları qəbul etməkdən imtina edən Macarıstan, Polşa və Çexiyaya qarşı hərəkət etməsindən sonra qaçqın böhranı Avropanın gələcək inteqrasiyasına əsas maneə və Aİ üçün potensial bir təhlükə hesab edilməyə başladı.

**İslamofobiyanın müxtəlif təşkilatlar tərəfindən ölçülməsi**

Avropada müsəlmanların varlığına dözümsüzlüyün nəticəsində müsəlmanlara qarşı zorakılıq artmaqda davam edir. Üstəlik, cəmiyyət bu zorakılıqları adi qarşılmağa başlayıb. Böyük Britaniyadakı müsəlmanlara istiqamətli hücumları izləyən "Tell Mama" adlı təşkilat, müsəlmanlara qarşı hücumların artdığını açıqladı. "Tell Mama" (Müsəlmanlara qarşı hücumların ölçülməsi) İslamofobik təcavüz, ayrı-seçkilik və ya zorakılıq yaşayanlar üçün müstəqil və gizli hesabat xidmətidir. Onlar qurbanlara və şahidlərə emosional dəstək verir, zəruri hallarda polis və digər tərəflərlə onların adından əlaqə yaradırlar. Tell Mama 2017-ci ildə 1380 hesabat qeydə almışdı ki, onlardan 1,201-ni təsdiqləmişdir. Son üç ildə müsəlmanlara qarşı insidentlər davamlı artmışdır. 2017-ci ildə Böyük Britaniyada bir sıra daxili terror hadisələrinin baş verməsi miqrasiya və islam mövzusundakı ictimai müzakirələrdə müsəlmanlara qarşı nifrət cinayətlərinin artmasına təkan vermişdir (2, s. 5, 6). Vəziyyət İsveçrədə də oxşardır. Federal İrqçilik və Ayrı-seçkilik Komitəsinin sədri Martin Brunşviq Qraf İsveçrədə bir il ərzində müsəlmanlara qarşı irqçilik və ayrı-seçkiliyin artdığını bildirib. O, İsveçrədə irqçilik hərəkatlarının əsas səbəbi kimi Avropada yaşanan miqrant böhranı və terror aktlarını göstərmiş, irqçiliyin son bir ildə İsveçrədə davamlı artdığını ifadə etmişdi (9).

Baş qərargahı Fransada yerləşən "Racism İslamophobia Watch" təşkilatı frankofon ölkələrdə islamofobiya və irqçiliyə qarşı mübarizə aparır. Hesabatda Fransa, Belçika, İsveçrədə islamafobiyanın yayılmasına dair faktlar ictimaiyyətin diqqətinə çatıdırılır (1, s. 123). 2013-cü ildən bəri fəaliyyət göstərən bu təşkilat hal-hazırda siyasi partiyaların, KİV-in, cəmiyyətdə olan önyarqı və qorxunun təsiri ilə artan diskriminasiya və islamafobiya ilə bağlı yalnız insanları və milli hökumətləri məlumatlandırmaq üçün aylıq və illik hesabatlar hazırlamır, eləcə də Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlara ad-hoc hesabatlar təqdim edir. "Onlar mətbuatdan alınan məlumatlar və toplanan şahidlərin ifadələri əsasında bu ölkələrdə müsəlmanlara qarşı tətbiq olunan ən diqqət çəkici və ciddi epizodları təsvir edirlər. Bu epizodlar xronoloji qaydada təqdim olunur və onlar Avropa Şurası və ATƏT kimi müxtəlif beynəlxalq təşkilatlar tərəfindən nifrət cinayətləri kimi tanınan epizodlara aid edilir ki, bunlara vandalizmə məruz qalmış məscidlər, fiziki təcavüzlər, ibadət yerlərinin və qəbiristanlıqlara qarşı hörmətsizlik və s. daxildir" (10, s. 5).

Beynəlxalq ictimaiyyət də müxtəlif monitorinq hesabatlarında Avropada ayrı-seçkilik və islamofobiyanın vəziyyəti ilə bağlı narahatlıqlarını ifadə edir. Məsələn, "European Fundamental Rights Agency" (Avropa Əsas Hüquqlar Agentliyi) 2014-cü il iyul hesabatında "Əsas hüquqlar: 2014-cü ildə problemlər və əldə edilən uğurlar" mövzusunda fundamental hüquqlarla bağlı inkişafları təhlil edir. Nifrət cinayətlərinin artması ilə əlaqədar narahatlıqlarını ifadə edən Agentlik sənədin bir hissəsini "Antisemitizm və İslamofobiya" başlığı ilə vermişdir (11, s. 52)

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun 2018-ci ildə dərc olunan "Müsəlmanlara qarşı nifrət zəminində törədilən cinayət" adlı hesabatında etiraf olunur ki, Qərb ölkələrində müsəlmanlar dini və mədəniyyət insan haqları və demokratiya kimi anlayışlara zidd olan monolit qrup kimi təqdim olunur. Əgər bu dözümsüzlüyün qarşısı alınmasa bu ölkələrdə müsəlmanlara qarşı nifrət zəminində cinayəti təşviq edən mühit yaranacaqdır. Bu isə öz növbəsində müsəlmanların cəmiyyətdən təcrid olunmasına

səbəb olacaqdır (1, s.125).

Avropa Şurasının "İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası" (European Commission against Racism and Intolerance - ECRI) 2018-ci il Hesabatında islamofobiyanın hələ də Avropa ölkələrinin əksəriyyətində hökmran olması, ictimai müzakirələrdə İslam və müsəlmanların radikalizm, zorakılıq və terrorizm ilə əlaqələndirilməsi qeyd olunur. İslamofob nifrət daha çox İnternet vasitəsilə yayılır. Anti-müsəlman davranışlar mütəmadi olaraq məscidlərin inşasına qarşı şikayət və etirazlarda ifadə olunur. Hətta bir çox dövlətlərdə İslamofobik önyarqının "normallaşması" müşahidə olunur. Ayrı-seçkiliklə da tez-tez qara müsəlmanlar qarşılaşır. Eləcə də müsəlman qadınlar tez-tez zorakılığın hədəfinə çevrilir. Belə ki, onların üz örtüyü və hicabları dartılaraq çıxarılır... ECRI həmişə belə hücumların qarşısının alınması və cəzalandırılması üçün güclü tədbirlər görməyə çağırır. Çünki bu cür təhqir insan ləyaqətini alçaldır, onlarda qorxu və təcrid olunma yaranır, eləcə də inteqrasiyaya maneə yaradır (4, s. 10-11).

Beləliklə, islamafobiya meyllərinin artdığı. Avropa ölkələrinin siyasi səhnəsində irəliləyən ultra sağçı partiyaların təbliğat kompaniyalarında islamofob şüarlar özünü daha açıq şəkildə büruzə verir. Bu partiyaların islamofob şüarları onların son dövrdə reytinqinin artmasına səbəb olan əsas amillərindən biridir. Hakimiyyətə gəlmək üçün islamofobiyadan istifadə edən bu qüvvələr onu problem hesab etmir, əksinə Qərb sivilizasiyasının məhvinin qarşısını ala biləcək səmərəli bir vasitə kimi qəbul edirlər (1, s. 126).

**Nəticə**

Beləliklə, Yaxın Şərqin qaçqın böhranı ilə Avropanın yüksələn İslamofobiyası arasında, eləcə də radikal sağların yüksəlişi ilə İslamofobiyanın artması arasında birbaşa əlaqə var. Avropada sağ yönlü tendensiyaların güclənməsinə gətirib çıxaran başqa bir səbəb iqtisadi böhranlar idi. Əvvəlki həyat standartlarını itirən əhali iqtisadi böhranın səbəbini əcnəbilərdə, xüsusilə müsəlmanlarda görürdülər. Qərb cəmiyyətlərində ictimai sahədə daha çox görünməyə başlayan və demokratik hüquqlarının genişlənməsini istəyən müsəlmanların qəbul edilməməsi İslamofobiyanın bir başqa səbəbidir.

Beləliklə, Avropa İttifaqının ikinci ən böyük dini qrupunu təşkil edən müsəlmanlara qarşı son zamanlar Avropada cəmiyyət həyatının bütün sferalarında – siyasətdə, təhsildə, əmək bazarında, iş yerlərində və s. qərəz, ayrı-seçkilik, təcrid edilmə, zorakılıq halları çoxalmış, ümumilikdə islamafobiya təzahürləri artmışdır. Müsəlmanlara qarşı münasibətin kəskinləşməsinə miqrant böhranı, iqtisadi tənəzzül, rifah sisteminin süquta uğraması qorxusu, terror hadisələrinin artması və bunlardan istifadə edərək radikal və millətçi partiya və təşkilatların öz tərəfdarlarının sayını artırması, onların hakimiyyətdə təmsil olunmağa başlaması kimi amillərin təsir göstərdiyi şübhəsizdir. Biz isə hesab edirik ki, eyni zamanda Avropa ölkələrinin multikulturalizm siyasətindən imtina nitqləri və multikulturalizm siyasətindən imtina ehtimalı islamafobiyanın leqallaşmasına səbəb olur. Əksinə, multikulturalizm siyasətinin tətbiqi bu tendensiyaların qarşısını alar. Multikulturalizm siyasətinin tətbiqi ilə müsəlmanların Avropa cəmiyyətlərinə inteqrasiyası daha uğurlu olar. Müsəlmanların inteqrasiya etmədiyini islamafobik davranışların əsas səbəbi sayan Avropanın isə arqumenti əlindən alınmış olar. Beləliklə, Avropada islamfobiyanın artması probleminin həll yolu multikulturalizm siyasətinin tətbiq olunmasından keçir.

**QAYNAQLAR**

1. Nəcəfov E. Qərbi Avropa ölkələrində islamafobiya: tarixi, səbəbləri və nəticələri. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə // Azərbaycan, № 65, 2019, s. 119-130
2. Beyond the Incident: Outcomes for Victims of Anti-Muslim Prejudice // Tell Mama Annual Report 2017, Published 23 July 2018, 107 p.
3. Carol S, Koopmans R. Dynamics of Contestation over Islamic Religious Rights in

Western Europe. Ethnicities. 2013, 13 (2), p. 165-190.
4. “Annual Report On Ecri's Activities” Covering the Period from 1 January to 31 December 2018.p. 10-11 (https://rm.coe.int/annual-report-2018/168094d6fe (13 iyul 2019))
5. Europe’s migration crisis (https://www.europarl.europa.eu/news/en/headlines/society/20170629STO78631 (14 may 2019))
6. Europol, European Union Terrorism Situation and Trend Report 2017 (The Hague: Europol, 2017) (www.europol.europa.eu/sites/default/files/documents/tesat2017.pdf)
7. International Key Findings. Policy indicators: Key Findings (http://www.mipex.eu/key-findings (02 iyul 2019))
8. Ipsos MORI Research Highlights - December 2016 (https://www.ipsos.com/ipsos-mori/en-uk/ipsos-mori-research-highlights-december-2016 (10 may 2019))
9. İsviçre’de İslam düşmanlığı yükselişte (http://www.yenisafak.com/dunya/isvicrede-islam-dusmanligi-yukseliste-2478049 (10 may 2019))
10. Organisation Racism Islamophobia Watch. Report on Racism snd Islamophobia in European French-Speaking Countries. 2014,2015, 2016,2017. (http://www.oriw.org/wpcontent/uploads/2018/03/Rapport_ORIW.14.17.pdf (13 iyul 2019))
11. Racism, xenophobia and related intolerance p. 52 ‘Antisemitism and Islamophobia on display’ (https://fra.europa.eu/sites/default/files/fra-annual-report-2014_en.pdf (13 iyul 2019))
12. Religious apartheid: Leading Danish politician calls for ban onMuslimrefugees”. (https://www.independent.co.uk/news/world/europe/denmark-muslim-refugees-ban-islam-apartheid-asylum-seekers-migrants-a7161786.html (10 may 2019))

**Summary**

***Tarlan Orujova***

***Migrant Crisis and the İncreasing of İslamophobia in Europe***

The author researches the causes and consequences of the migrant crisis in Europe, as well as how the migrant crisis affects rising of Islamophobia.

According to the author, in addition to the individual characteristics of migrants,the integration process are fundamentally influenced by different experiences such as the immigration history of the host country, the positive attitude (or absence) of migrants, the political context and dialogue around integration, the welfare model, the economic, social and demographic trends. At the same time, the author notes that Europeans accuse of Muslims not integrating, but they do not create the conditions for Muslims to integrate. According to Rud Couman's "Civil Rights Indicators for Migrants", 14 of the 23 indicators are directly focused on religious rights, whereas European countries either not create favorable conditions for securing these rights and cause the exclusion of Muslims from society by limiting them.

It is further argued that the terrorist acts in Europe have increased the prejudice towards Muslims. Referring to the statistics, the author reveals that while most Europeans blamed Muslim refugees, especially Syrians, for the terrorist attacks after 2011, most of the terrorists are citizens of Western Europe. Very few of these attacks were carried out by migrants or jihadists. This fact shows how a negative prejudice against Muslims is rising. Various surveys conducted in Europe have shown increased anti-Muslim stereotypes, which is influenced by anti-immigrant positions, lack of education, security problems and, ultimately, personal contact with Muslims.

The article considers the rise of discrimination, intolerance and attacks against Muslims in Europe, the success of radical parties using Islam and Muslims issues, as an increase of Islamophobia.

As the proof of his argument, the author shows that the international community's concerns about the situation of discrimination and Islamophobia in various monitoring reports are highlighted in Europe.

***Key words;*** *Islamophobia, muslims, migration, migration policy, integration, migrant crisis*

***Резюме***

***Тарлан Оруджева***

***Кризис мигрантов и расширение исламофобии в Европе***

Автор исследует причины и последствия кризиса мигрантов в Европе, а также то, как кризис мигрантов влияет на рост исламофобии.

По мнению автора, в дополнение к индивидуальным характеристикам мигрантов, на процесс интеграции в основном влияет различный опыт, такой как история иммиграции принимающей страны, позитивное отношение (или отсутствие) мигрантов, политический контекст и диалог вокруг интеграции модель благосостояния, экономические, социальные и демографические тенденции. В то же время автор отмечает, что европейцы обвиняют мусульман в том, что они не интегрируются, но они не создают условий для интеграции мусульман. Согласно «Индикаторам гражданских прав для мигрантов» Руд Кумана, 14 из 23 индикаторов непосредственно ориентированы на религиозные права, тогда как европейские страны либо не создают благоприятных условий для обеспечения этих прав, но и приводят к исключению мусульман из общества, ограничивая их.

Далее утверждается, что террористические акты в Европе усилили предубеждение по отношению к мусульманам. Ссылаясь на статистику, автор показывает, что, хотя большинство европейцев обвиняли мусульманских беженцев, особенно сирийцев, в террористических актах после 2011 года, большинство террористов являются гражданами Западной Европы. Очень немногие из этих нападений были совершены мигрантами или джихадистами. Этот факт показывает, как растет негативное предубеждение против мусульман. Различные опросы, проведенные в Европе, показали рост антимусульманских стереотипов, на которые влияют антииммигрантские позиции, отсутствие образования, проблемы с безопасностью и, в конечном итоге, личные контакты с мусульманами.

В статье рассматривается рост дискриминации, нетерпимости и нападений на мусульман в Европе, успех радикальных партий, использующих проблемы ислама и мусульман, как рост исламофобии.

В качестве доказательства своего аргумента автор показывает, что озабоченность международного сообщества ситуацией дискриминации и исламофобии в различных отчетах о мониторинге подчеркивается в Европе.

***Ключевые слова;*** *Исламофобия, мусульмане, миграция, миграционная политика, интеграция, кризис мигрантов*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 32; 327**

# TÜRKİYƏDƏ İDARƏÇİLİK SİSTEMİNİN DƏYİŞİKLİYİ: PARLAMENT İDARƏÇİLİYİNDƏN PREZİDENT İDARƏÇİLİYİNƏ KEÇİDİN KONSEPTUAL TƏHLİLİ

**Züriyə QARAYEVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 23 may 2019; çapa qəbul edilmişdir: 3 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 7 May 2019; accepted: 27 June 2019; published online: 25 September

***Açar sözlər**: prezident idarəçilik forması, parlament idarəçilik forması, Türkiyə, keçid*

## Giriş

Türkiyədə 1924-cü ildən bəri parlament idarəçiliyi tətbiq edilmişdir. 1924-cü il konstitusiyası 1961-ci il konstitusiyasının mənimsədiyi xalis parlament sisteminə keçidi təmin etmişdir. 1961-ci il konstitusiyası hakimiyyət birliyi sistemindən tamamilə uzaqlaşaraq, yumşaq hakimiyyət bölgüsünə əsaslanan ‘Westminister’ tipli parlament idarəçilik sistemini irəli sürmüşdür. Lakin konstitusiyanın icra olunduğu dövrdə fərqli nəticələr ortaya çıxmış, Türkiyənin siyasi tarixində xaotik koalisiya hökumətlərinin başlanğıcı qoyulmuşdur. 12 sentyabr 1980-ci ildə növbəti hərbi çevrilişin baş verməsi ilə nəticələnmişdir. Çevrilişin ardınca 1982-ci ildə konstitusiyası qəbul olunmuş, məclis və hökumətin səlahiyyətləri prezident səlahiyyətlərindən daha az olmuşdur. Qanunvericilik qarşısında icraedici hakimiyyət, icraedici hakimiyyət içərisində isə prezident güclü olmuşdur. 2017-ci il referendumuna qədər 17 dəfə dəyişikliyə məruz qalan bu konstitusiya idarəçilik formasını parlament sistemindən uzaqlaşdırdığı üçün özündən sonra yeni sistemə transformasiya ilə bağlı müzakirələri gündəmə gətirdi. 2002-ci ildə hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyasının qurucusu Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti dövründə siyasi sistemin dəyişilməsi daha ciddi gündəmə gəlmişdir. 2007-ci ildə yenidən xalqın dəstəyini qazanan Ərdoğanın konstitusiya dəyişikliklərini referenduma götürərək dövlət başçısının xalq tərəfindən seçilməsini təmin etməsi prezident üsul-idarəsinə keçid yolunda önəmli addım oldu. 2010-cu ildə Türkiyədə siyasi hakimiyyətin rolunun artırılması məqsədilə keçirilən referendum "paralel dövlət"ə sahib olan və hərbi çevrilişlə siyasi hakimiyyətin zorla devrilməsini illərdir əlində saxlayan qüvvələrin planlarını alt-üst etdi, yeni Konstitusiya islahatlarının davam etdirilməsi üçün zəmin yaratdı. Sonrakı dövrdə isə kürd separatçılarının davamlı müqaviməti, Suriyadan gələn 2 milyondan çox qaçqın məsələsi, ölkədə təkrarlanan terror hücumları, 2016-cı ilin iyul ayında dövlət çevrilişinə cəhd edilməsi güclü prezidentlik sisteminə tələbatı artırdı. Son dövrlərin həm təcrübə, həm də nəzəri baxımdan diqqətçəkən mövzularından biri də prezident idarəçiliyinə keçid olduğu üçün Türkiyədə 2017-ci ildə baş verən sistem dəyişikliyi aktuallıq kəsb edir.

## 1. Türkiyənin idarəçilik sisteminə baxış

Osmanlı imperatorluğunun yarandığı 1299-cu ildən 1876-cı ilədək ilk Osmanlı idarəçilik forması mütləq monarxiya olmuşdur. İlk konstitusiya 23 dekabr 1876-cı ildə Midhəd Paşanın islahatçı düzənlə hazırladığı “Qanuni Əsasi” adı altında Sultan Əbdülməcid devrildikdən və II Sultan Əbdülhəmid iqtidara gətirildikdən sonra fərman olaraq qəbul

[*] doktorant, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
*e-mail: zuriye.babayeva@hotmail.com*

olundu. 1876-cı il konstitusiyanın qəbulu ilə I Məşrutiyyət dövrü elan edilmiş və padşahın mütləq hakimiyyətinə müəyyən məhdudiyyətlər qoyulmuşdur. 1876-cı il konstitusiyası padşah və hökumətin var olduğu ikili icraedici hakimiyyət yaratmışdır. Nazirlər Kabineti parlament qarşısında deyil, padşah qarşısında məsuliyyət daşıyırdı. Ancaq bu vəziyyət uzunömürlü olmamış, bir müddət sonra padşah yenidən suverenliyin tək daşıyıcısına çevrilmişdir. [16, s.137] Məşrutiyyətin ikinci dəfə elanı ilə Ana Yasada 9 avqust 1909-ci ildə dəyişikliklərə yol açıldı. "Qanuni-Əsasi"nin 1909-cu il dəyişikliyi ilə demokratik icra və qanunverici hakimiyyətlər formalaşmış, yumşaq hakimiyyət bölgüsü prinsipinə əsaslanaraq parlamentin üstünlüyü təmin edilmişdir, idarəçilik məhdud monarxiyaya çevrilmişdir. [15, s. 27]

1921-ci il konstitusiyası özündən əvvəlki konstitusiyadan tamamilə uzaqlaşmış, Fransada 1792-ci ildə toplanan “Milli Konvansiyon Məclisi” dövründə (1792-1795) mövcud olan “Məclis Hökuməti” sistemini tətbiq etmişdir. Konstitusiya ilə hakimiyyət birliyi mənimsənmiş, hakimiyyət qolları qanunverici hakimiyyətdə birləşmişdir. 8-ci maddədə məclis başçısının həm də hökumət başçısı olduğu və hökumət üzvlərinin məclis tərəfindən təyinatı vurğulanmışdır. [13, s. 85] Dövlət başçısının olmaması və hökumətin məclis içərisindən qurulması və hüquqi baxımdan müstəqil olmaması kimi xüsusiyyətlər idarəçilik formasının “məclis hökuməti” olduğunu ortaya çıxarır. Məclis hökumət sistemi həm də gələcək parlament sisteminin qurulmasında vasitə olmuşdur.

1 oktyabr 1922-ci il tarixində Türkiyə Böyük Millət Məclisi (TBMM ) hakimiyyətdə vərasət üsulunu ortadan qaldırmaqla padşahlığı ləğv etdi. Bununla da, 1921-ci il konstitusiyasına 29 oktyabr 1923-cü il tarixində bəzi dəyişikliklər edilmiş, Türkiyə dövlətinin idarəçilik formasının respublika olduğu qəbul olunmuşdur. [19, s. 115] 1921-ci il konstitusiyasının qüvvədə olduğu Birinci Məclis dövründə hakimiyyət birliyi prinsipinə uyğun olaraq qanunverici hakimiyyətə üstünlük verilmişdir. Ancaq bir müddət sonra üstünlük hökumətə verilmiş və ikinci məclisin seçimindən sonra hökumət məclisi də təyin edəcək gücə sahib olmuşdur. [6, s. 161] Prezident Atatürk və respublikanın ilk baş naziri İsmət İnönü şəxsi reputasiyalarından dolayı idarəçilikdə üstünlük qazanmışlar. Lakin buna baxmayaraq, respublikanın elan edilməsi nəticəsində millətin hakimiyyətin qaynağı olması prinsipi daha da gücləndirilmiş və xalqın idarəçilikdə iştirakı artmışdır. [22, s. 50]

1924-cü il konstitusiyasında parlamentin millətin tək təmsilçisi olduğu, onun əsas səlahiyyətli orqan olduğu bildirilmişdir və məclisə geniş səlahiyyətlər verilmişdir. Belə ki, konstitusiya qanunverici və icraedici hakimiyyətin məclisin əlində olduğunu bildirir, ardınca məclisin birbaşa qanunverici hakimiyyət daşıyıcısı olduğu vurğulanır. [10, s. 98] Konstitusiya, onu dəyişdirmək haqqını da parlamentə vermişdir. Hökumətin məclisi istefaya göndərə bilməməsi, məclisin yalnız öz istəyi ilə vaxtından əvvəl yenilənməsi də parlamentə verilən üstünlüklər sırasındadır. Məclis hökumət sistemini xatırladan bu qaydaların ardınca ali qanunvericilik mətnində icra səlahiyyətinin məclis tərəfindən təyin edilən prezident və nazirlər kabinetindən ibarət ikili icraedici orqana verilməsi göstərilir. Burada həmçinin məclisin hökumətə nəzarət edəcəyi və onu istefaya göndərə biləcəyi vurğulanmışdır. Əvvəlki konstitusiyadan fərqli olaraq, burada qanunvericilik təşəbbüsü hüququ həm məclisə, həm də Nazirlər Kabinetinə verilmiş, sessiyadan kənar parlamenti iclasa çağırma hüququ isə həm prezidentə, həm də məclis sədrinə verilmişdir. [23, m.7/1, 7/2, 15, 19] Bu qaydalar məclis hökumətinin qaydalarına ziddir və 1924 konstitusiyasının parlament idarəçiliyinin xüsusiyyətlərini daşıdığını göstərir. 1924-cü il konstitusiyasının hakimiyyət qollarına aid səlahiyyət bölgüsü araşdırılarkən məlum olur ki, qanunverici hakimiyyətin üstünlüyünü təmin edən maddələr hakimiyyət birliyinin, icraedici hakimiyyətlə bağlı maddələr isə hakimiyyət bölgüsünün xüsusiyyətlərini daşıyır. Ona görə də, bu konstitusiya həm məclis hökumət sisteminin, həm də parlament idarəçiliyinin xüsusiyyətlərini mənimsəyərək qarışıq idarəçilik ortaya qoymuşdur.

1961-ci il konstitusiyası hakimiyyət birliyi sistemindən tamamilə uzaqlaşaraq, yumşaq hakimiyyət bölgüsünə əsaslanan ‘Westminister’ tipli parlament idarəçilik sistemini irəli sürmüş, məhkəmənin müstəqilliyini mənimsəmiş, Milli Təhlükəsizlik Komitəsini və Konstitusiya məhkəməsini[21, s. 258] yaratmışdır. 1961-ci il konstitusiyasının 4-cü maddəsində suverenliyin Türk millətinə aid olduğu və konstitusiya çərçivəsində icraedici, qanunverici və məhkəmə hakimiyyətləri vasitəsilə həyata keçiriləcəyi vurğulanmışdır. [10, s. 101] İcraedici hakimiyyət parlamentin təyin etdiyi dövlət başçısı ilə nazirlər kabineti arasında bölüşdürülmüş, qanunverici və icraedici hakimiyyətlərə bir-birlərinə nəzarət səlahiyyətləri verilmişdir. Prezident və parlamentə bir-birlərinin varlığına son vermə səlahiyyətini vermiş, prezidentin neytrallığını və siyasi baxımdan cavabdeh olmamağını təmin edərək ona simvolik səlahiyyətlər qazandırmış, ikili imza qaydasını tətbiq etmiş və hökuməti parlamentin etimadına tabe edərək Türkiyədə ilk dəfə əsl parlament sistemi yaratmışdır.

Lakin konstitusiyanın icra olunduğu dövrdə fərqli nəticələr ortaya çıxmışdır. Türkiyənin siyasi tarixində koalisiya hökumətlərinin başlanğıcı qoyulmuşdur. Siyasi böhran Türkiyə Silahlı Qüvvələrinin baş qərargah rəisi Kənan Evrənin başçılığı ilə 12 sentyabr 1980-ci ildə növbəti hərbi çevrilişin baş verməsi ilə nəticələnmişdir. [6, s. 171] Çevrilişin ardınca 1982-ci ildə konstitusiya üçün xalq səsverməsi həm də prezidenti müəyyənləşdirmiş və Kənan Evrən dövlət başçısı seçilmişdir. Ancaq bu konstitusiya ilə məclis və hökumətin səlahiyyətləri prezident səlahiyyətlərindən daha az olmuşdur. Qanunvericilik qarşısında icraedici hakimiyyət, icraedici hakimiyyət içərisində isə prezident güclü olmuşdur. [7, s. 149-50] Nəticədə idarəçilik forması 1961-ci ildəki saf parlament idarəçiliyindən uzaqlaşmışdır. Əsas qərarlar hökumət tərəfindən deyil, prezident ilə hərbi bürokratiyanın hakim olduğu Milli Təhlükəsizlik Şurası tərəfindən verilmişdir. [6, s. 171] Onun tək başına istifadə etdiyi səlahiyyətləri və onların məhkəmə nəzarətindən kənar olması da klassik parlament sisteminə ziddir. Prezidentə məhkəmə ilə bağlı verilən səlahiyyətlər yarı-prezident idarəçiliyinin hökm sürdüyü Fransada belə mövcud deyildir. Bütün bu göstəricilər isə ikibaşlı icraedici hakimiyyət ortaya çıxarır. Halbuki, əsl parlament idarəçiliyi ikibaşlı deyil, ikiqanadlı icraedici hakimiyyəti ehtiva edir. [18, s. 325] Bu baxımdan elmi qaynaqlarda bu sistem prezidentin səlahiyyətləri çox olduğu üçün prezidentli parlament sistemi, “Rasionallaşmış” parlament idarəçilik forması, “axsaq” parlament idarəçiliyi adlandırılmışdır. [11, s. 266] 2017-ci il referendumuna qədər 17 dəfə dəyişikliyə məruz qalan bu konstitusiya idarəçilik formasını parlament sistemindən uzaqlaşdırdığı üçün özündən sonra yeni sistemə transformasiyayla bağlı müzakirələri gündəmə gətirdi.

## 2. Türkiyədə prezident idarəçiliyinə keçid

Prezident idarəçiliyinə keçidlə bağlı ilk müzakirə 1980-ci ilin mart ayında “Tərcüman” qəzetinin təşkil etdiyi Konstitusiya seminarında və Yeni Forum jurnalının irəli sürdüyü Konstitusiya layihəsində yer almışdır. Bu fikri irəli sürən ilk siyasi lider isə Turqut Özal olmuşdur. [9, s. 276] Özal sabit hökumətlərin iqtisadi inkişafın hərəkətverici qüvvəsi olduğunu, Atatürkdən etibarən tək partiyanın tətbiq edildiyi dövrdə dolayı yolla prezident idarəçiliyinin mövcud olduğunu səsləndirmişdir. Onun hakimiyyət dövrü idarəçiliyin dəyişməsiylə bağlı müzakirələrlə keçmiş, diktatorluq qurmaq istəməkdə və 101-ci maddənin (prezidentin seçilmə üsulu) prinsiplərini pozmaqda ittiham edilmişdir. [14, s. 29] Sonradan idarəçilikdə dəyişikliklə bağlı Dəmirəl tərəfindən prezidentin xalq tərəfindən seçilməsi gündəmə gətirilmişdir. O xüsusən Kürd problemini əsas gətirərək, parlament idarəçiliyini ən uyğun sistem kimi görmüşdür. Hökumət böhranlarının aradan qalxması üçün isə yeganə çıxış yolunu prezidentin xalq tərəfindən seçilməsində görmüşdür. [1, s. 383-85]

2002-ci ildən hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyasının (AKP) prezident idarəçiliyinə keçid müzakirələri daha da artmışdır. 2007-ci ildə keçirilən referendum ilə

prezidentin xalq tərəfindən seçilməsi dəyişikliyi qəbul edilmiş [24, md.79], ikibaşlı icraedici hakimiyyət ortaya çıxmış və nəticədə prezidentin məclis içərisindən təyin olunduğu parlament idarəçiliyi yönünü dəyişmişdir. Dəyişikliklər çərçivəsində parlament seçkilərinin müddəti 5 ildən 4 ilə endirilmişdir. [24, md.77] 2012-ci ildə prezident idarəçiliyi baş nazir Rəcəb Tayyib Ərdoğan tərəfindən təkrar gündəmə gətirilmişdir. AKP elə həmin il Konstitusiya Uzlaşma Komissiyasına idarəçilik sistemində dəyişiklik təklifini vermişdir. 15 İyul 2016-cı il tarixində Türkiyədə çevrilişə cəhd hadisəsinin baş verməsi AKP ilə MHP-ni yaxınlaşdırmış və sistem dəyişikliyi prosesinin sürətlənməsinə səbəb olmuşdur.

16 aprel 2017-ci ildə keçirilən referendumda seçicilərin %51-i dəyişikliklərin leyhinə səs vermişdir. Dəyişikliklər paketində nəzərdə tutulan 18 maddənin bir qismi referendumdan dərhal sonra, bir qismi isə 2019-cu ilin noyabr ayında keçiriləcək seçkilərdən sonra icra olunması nəzərdə tutulmuşdur. Lakin tarix dəyişdirilmiş, 24 iyun 2018-ci ildə keçirilən seçki nəticələrinə görə AKP və MHP-nin namizədi Rəcəb Tayyib Ərdoğan %52.9 səslə Türkiyə tarixində 12-ci prezident olmuşdur. AKP 24 İyun 2018-ci seçkilərində “Güclü Məclis Güclü Hökumət” şüarıyla iştirak etmişdir. AKP və MHP “Cümhuriyyət ittifaqı”, Cümhuriyyətçi Xalq Partiyası (CHP), İyi Partiya və Səadət Partiyası (SP) isə “Millət ittifaqı” adı altında seçkilərdə iştirak etmişdir. Seçkilərə qatılmayan Böyük Birlik Partiyası (BBP) “Respublika ittifaqı”nı, Demokrat Partiya (DP) isə “Millət İttifaqı”nı dəstəkləmişlər. Vətən Partiyası, Hür Dava Partiyası və Xalqların Demokratik Partiyası (HDP) isə bu seçkilərdə partiya olaraq iştirak etmişlər. [17, s. 48]

Konstitusiya dəyişikliyi ilə yeni hökumət sisteminə keçid edilərək, parlament idarəçiliyi prezident idarəçiliyi ilə əvəz olunmuşdur. Seçilmə yaşı 18-ə enmiş, millət vəkili sayı 550-dən 600-ə qaldırılmışdır. Prezidentə qərarnamə qəbul etmək səlahiyyəti verilmişdir. Parlament və prezident seçkiləri 5 ildə 1 dəfə və eyni gündə keçiriləcək. Prezident seçkilərin yenidən keçirilməsini istəyərsə, öz vəzifəsi sona çatmış sayılacaq. Məhkəmənin müstəqil və tərəfsiz qalması da konstitusiya maddələrində əks olunur. 13 üzvdən ibarət olacaq Hakimlər və Prokurorlar Ali İdarəsinin (HSK) 6 üzvünü prezident, 7 üzvünü TBMM seçəcək. [25, md.159] Dəyişiklikləri üç hakimiyyət qolu əsasında ayrı-ayrılıqda təhlil edək.

İcraedici hakimiyyətlə bağlı əsas dəyişiklik baş nazirlik institutunun aradan qaldırılması, prezidentin əsas icraedici şəxsə çevrilməsi və vitse-prezident vəzifəsinin yaradılması olmuşdur. Nazirlərin və vitse-prezidentlərin təyini və vəzifədən azad edilməsi prezidentin səlahiyyətindədir. 2017-ci il dəyişikliyi ilə prezidentin seçildikdən sonra partiyasıyla əlaqəsinin kəsilməsi qaydası aradan qaldırılmışdır. Prezident icraedici səlahiyyətləri ilə əlaqədar mövzularda qərarnamə qəbul edə bilər. Ancaq bu qərarnamələr əsas hüquq və azadlıqları, vətəndaşlıq vəzifələri, siyasi hüquqlarla bağlı verilə bilməz. O cümlədən, qərarnamənin mövzusuna uyğun qanunlar artıq mövcuddursa, qanun hökmlərinə üstünlük veriləcək və ya parlament həmin mövzuda qanun qəbul edərsə, qərarnamə qüvvədən düşmüş sayılacaq. Fövqəladə vəziyyətdə isə bu məhdudiyyətlər aradan qaldırılaraq, prezident qərarnamələri istisnasız qüvvəyə minəcək. Prezidentə verilən səlahiyyətlərdən biri də büdcənin hazırlanmasıdır. Belə ki, büdcə layihəsi 75 gün öncədən hazırlanaraq parlamentə təqdim olunur, Büdcə Komissiyası tərəfindən 55 gün ərzində qəbul edilərək Ümumi Şurada (Genel Kurul) müzakirə edilir və ilin başlanğıcına qədər qüvvəyə minir. Layihə qəbul olunmazsa, cari büdcə artırılaraq tətbiq edilir. Prezident yalnız şəxsi cinayətlərdən dolayı hüquqi məsuliyyətə cəlb oluna bilər. Cinayət törədildiyi halda parlament üzvlərinin 3/5 çoxluğunun müraciəti ilə istintaq başladıla bilər. Siyasi toxunulmazlığa malik olan prezident vətənə xəyanət istisna olmaqla vəzifə səlahiyyətləriylə bağlı qanun pozuntularına görə cinayət məsuliyyətinə cəlb oluna bilməz. [25, md.104-105]

Prezident qanunları təsdiqləyir və ya təkrar müzakirə üçün TBMM-ə geri göndərir; Konstitusiya dəyişiklikləri ilə bağlı qanunları uyğun bilərsə, referenduma təqdim edir;

qanunların, TBMM nizamnaməsinin hökmlərinin konstitusiyaya uyğun olmaması iddiası ilə Konstitusiya Məhkəməsinə müraciət edir; xarici dövlətlərə Türkiyə Respublikasının təmsilçilərini göndərir, xarici dövlətlərdən göndərilən təmsilçiləri qəbul edir; dövlətlərarası müqavilələri ratifikasiya edir; dövlət məmurlarını təyin edir və vəzifəsindən azad edir; fövqəladə vəziyyət elan edir; həbs edilən müəyyən şəxslərin cəzasını azaldır, əfv edir; Ali Təhsil Şurasının üzvlərinin yarısını seçir; Universitet rektorlarını təyin edir. Prezident həmçinin silahlı qüvvələrin ali baş komandanıdır və silahlı qüvvələrin harada, necə, nə vaxt istifadə ediləcəyinə qərar verir. [25, md.104]

TBMM-in səlahiyyətləri "qanun qəbul etmək, dəyişdirmək, və ləğv etmək; büdcə və başqa maliyyə təkliflərini müzakirə etmək; müharibə elan etmək; beynəlxalq müqavilələrin imzalanmasını ratifikasiya etmək; üzvlərinin 3/5-in təsdiqi ilə əfvetmək və konstitusiya ilə müəyyən olunan digər vəzifə və səlahiyyətləri həyata keçirmək" olaraq tənzimlənmişdir. [25, md.87] Qanunverici hakimiyyətlə bağlı dəyişikliklər çərçivəsində millət vəkillərinin sayı 550-dən 600-ə qaldırılmış, seçki yaşı 25-dən 18-ə düşürülmüş, "hərbi xidmətini bitirmiş" şərti "hərbi xidmətlə əlaqəsi kəsilmiş" şəklində dəyişdirilmişdir.

Məhkəmə hakimiyyəti ilə əlaqədar dəyişikliklərə gəlincə, Konstitusiyanın 9-cu maddəsində "müstəqil" sözündən sonra "və tərəfsiz" kəlməsi əlavə edilmişdir. Prezidentə Konstitusiya Məhkəməsinin 15 üzvündən 12-sini təyin etmək; Danıştay üzvlərinin dörddə birini seçmək; Yargıtay baş prokurorunu və onun vəkilini seçmek; Hərbi apelyasiya məhkəmələrinin üzvlərini seçmək; Hərbi Ali idarə məhkəməsinin üzvlərini seçmek; HSK-nın 6 üzvünü seçmək səlahiyyətləri verilmişdir. Hakimlər və Prokurorlar Ali İdarəsinin adı Hakimlər və Prokurorlar İdarəsi (Hakimler ve Savcılar Kurulu) olaraq dəyişdirilmiş, üzvlərinin sayı 22-dən 13-ə, idarə sayları 3-dən 2-yə düşürülmüşdür. [25, md.159]

### 3. İdarəçilik sisteminin dəyişməsi lazımdırmı?

AK Partiyanın hakimiyyəti dövründə fərqli sferalarda mövcud problemlərin həlli idarəetmə forması ilə bağlı islahatların aparılmasını labüd etmişdir. Xüsusən prezident idarəetmə formasına keçid bu qəbildən olan islahatlar sırasında yer alsa da, çoxşaxəli müzakirələr də yaratmışdır. Türkiyədə idarəetmə sistemi ilə bağlı müzakirələrin əsas xüsusiyyəti həm parlament, həm də prezident sisteminin nə olduğunun düzgün başa düşülməməsidir. Parlamentarizmin qəbul olunmama səbəbi 1961-ci ildə bu sistemin tam olaraq tətbiqi zamanı problemlərin ortaya çıxması, ard-arda çevrilişlərin baş verməsi, xaotik koalisiya rejimlərinin yaranması və nəticədə yalnız siyasi deyil, həm də sosial-etnik problemlərə də rəvac verməsi olmuşdur. 1961-ci ildən 2011-ci il seçkilərinədək 38 hökumət qurulmuşdur. Hökumətlərin arasında 9-u tək partiya, 29-u isə koalisiya hökumətləridir. 29 il ərzində qurulan 29 koalisiya hökumətinin ortalama müddəti bir il olmuşdur. Bu vəziyyət Türkiyədə siyasi qeyri-sabitlik yaratmışdır. Parlament idarəetmə formasının İngiltərə kimi ölkələrdə uğurlu tətbiq edilməsinin, Türkiyədə isə xaosa təkan verməsinin səbəbi nədir?

Bunlardan ən əsası Türkiyədə partiyadaxili demokratiyanın zəifliyi olmuşdur. Partiyaların sərt təşkilatlanması, liderə bağlılıq, bunun müqabilində mükafatlandırma, bütün qərarların partiya lideri tərəfindən alınması, millət vəkillərinin kor-koranə bu qərarları dəstəkləməsi partiyadaxili demokratiyanın zəifliyindən xəbər verir. Millət vəkili olacaq şəxs partiyanın ideologiyasından kənarlaşa bilmir. Məclisdəki fəaliyyəti zamanı belə partiya liderinin təsiri altında olur. [12, s. 90] Demokratiyanın təməlində azadlığın dayandığını hesaba alsaq, bu vəziyyətdə demokratiyadan söhbət gedə bilməz. Ona görə də, ilk addım partiyaları müstəqil etmək və partiyadaxili demokratiya yaratmaqdır. Millət vəkili xalqın təmsilçisidir, ona görə də partiya mənafeyindən öncə xalqın mənafeyini nəzərə almalıdır. Partiyanın ideologiyasında xalqın mənafeyinə zidd fikir varsa, millət vəkili onu tənqid etməyi bacarmalıdır. Deməli, siyasi təşkilatlardan savayı, sosial-mədəni faktorlar

da göz önünə gətirilməlidir.

Bu problemlərə rəvac verən amillərdən biri də 1961-ci ildən tətbiq edilən proporsional seçki sistemi və seçki nəticələrində ədalət prinsipini qorumayan minimum %10 səs faizinin tələb edilməsidir. Belə ki, bir bölgədə çox səs toplayan partiya %10-luq minimumu keçə bilmədiyi üçün parlamentdə yer ala bilmirdi. [3, s.21] O bölgədə daha az səs alan partiya kvotanı təmin etdiyi üçün parlamentdə yer almış olurdu. Hərçənd ki, 1961-ci ilədək tətbiq edilən majoritar seçki sistemi də köməyə çatmamışdır. Ona görə də, sabitlik və ədalət prinsiplərini özündə cəmləyən yeni seçki sistemi axtarışına başlanmışdır. Bu problemlərin öhdəsindən prezident idarəetmə formasının tətbiqi ilə gətirilən dar bölgə seçki sistemi gələ bilər. Bundan başqa, xalqın birbaşa hökuməti seçə bilməməsi, kimin hökumət edəcəyinin əvvəldən məlum olmaması, koalisiya hökumətlərində xalqın hansı partiyanı günahlandıracağını bilməməsi zəif demokratiyaya yol aça bilər. [4, s. 114] Nəticədə hakimiyyət xalqın siyasi iradəsini əks etdirməyə bilir.

Türkiyədə parlament idarəetmə formasının özünü doğrultmamasının bir səbəbi də prezident səlahiyyətlərinin çoxluğudur. [21, s. 260-61] Prezident həm geniş səlahiyyətlərə sahib olmuş, həm də cavabdehlik daşımamışdır. Türkiyə prezidentləri hər zaman əsas söz sahibi olmuşlar və idarəetməni əllərində tutmuşlar. Konstitusiyada prezidentə lazım olan hallarda Nazirlər Kabinetinə başçılıq etmək səlahiyyətinin verilməsi onun hökumət işlərinə qarışmasına səbəb olmuşdur. Buna rəvac verən digər amil onun həm də Milli Təhlükəsizlik Şurasının (MGK) sədri olmasıdır. MGK qərarlarının Türkiyədə tövsiyə xarakterindən ziyadə siyasi proseslərə təsir gücünün olması və hətta bəzən siyasi böhranlara səbəb olması göstərir ki, prezidentin burada söz sahibi olması parlament idarəetmə forması ilə uyğun deyil. Prezidentin bu idarəetmə formasının prinsiplərinə zidd olan digər səlahiyyəti fövqəladə hal zamanında Nazirlər Kabineti ilə birgə qanun hökmündə qərarnamə (KHK) qəbul edə bilməsidir. Prezidentin konstitusiya dəyişikliklərini parlamentə geri göndərməsi də parlament idarəetmə formasına uyğun deyil. Prezident bunun yerinə Konstitusiya Məhkəməsinə müraciət edə bilər. Prezidentin məhkəmə hakimiyyətiylə bağlı da yarı-prezident idarəetmə formasında belə olmayan çox səlahiyyəti vardı. Prezident bir çox məhkəmə üzvlərini təyinetmə haqqına sahib olmuşdur. [20, s. 334] Həmçinin prezidentin xalq tərəfindən seçilməsi parlament idarəetmə formasının əsas prinsiplərindən uzaqlaşılmasıdır.

Yeni sistemlə 1982-ci il konstitusiyasında prezidentə verilən səlahiyyətlər çərçivəyə salınmışdır. Prezidentin siyasi məsələlər və məhkəmələrlə bağlı cavabdehlik daşımaması aradan qaldırılmışdır. Yuxarı vəzifəli şəxslərin prezident tərəfindən təyin edilməsi və azad edilməsi siyasi hakimiyyəti bürokratiya qarşısında gücləndirə bilər. [8, s. 163] Parlamentdən kənar nazirlərin təyin edilməsi və partiya mənsubiyyətinin mütləq olmaması dövlətə faydalı şəxslərin seçilməsini gücləndirə bilər. İnterpelyasiya mexanizmi məclisin əlindən alındığı üçün icraedici hakimiyyətin qanunverici və məhkəmə hakimiyyətlərindən üstün olma ehtimalı yaranır. Lakin parlament sistemində nazirlər iqtidar partiyasını təmsil etdikləri üçün və eyni zamanda parlament üzvləri olduğu üçün interpelyasiya mexanizmi ilə nəzarət edilməsi, demək olar ki, mümkün deyildi. Sərt hakimiyyət bölgüsü nəticəsində hakimiyyət qolları bir-birindən ayrıldığı üçün, parlamentdə iqtidarın mövqeyindən asılı olmadan müstəqil qanunlar qəbul olunacaq. Eyni zamanda, nazirlər də millət vəkili ola bilməyəcəyi üçün seçkiləri unudub fəaliyyətlərinin effektivliyinə diqqət yetirəcəklər. Yeni sistemdə prezident seçilmək üçün seçicilərin mütləq səs çoxluğunu qazanmaq tələb olunduğundan dolayı, 2000-ci illərədək %20-25 səs toplayaraq dövləti idarə edən partiyalar eyni uğuru qazana bilməyəcəklər. [2, s. 133-134]

Qüsurlara gəlincə, yeni sistemin əsas əksikliyi "%50+1" məhdudiyyətinin qoyulmasıdır. Belə yüksək məhdudiyyətin tələb olunması partiyaları bir-birləri ilə süni şəkildə

əməkdaşlığa sövq edir. Dəyişikliklərə qanunverici-icraedici hakimiyyət çərçivəsində baxıldığı zaman prezidentin parlament qarşısında gücünü artırdığı açıq görünür. Bunu isbat edən faktlardan biri, prezidentin geri göndərdiyi qanun layihəsinin məclis üzvlərinin 3/5-ün təsdiqi ilə olduğu kimi qəbul olunmasıdır. Bu kvota prezidentin istəmədiyi qanunların məclis tərəfindən qəbulunu çətinləşdirir. Bu çərçivədə digər dəyişiklik parlamentin icraedici hakimiyyət üzərində nəzarət mexanizmləri ilə bağlıdır. Artıq məclis sadəcə "parlament araşdırması" metodundan istifadə edəcək. Prezidentin həm dövlət, həm partiya başçısı olması partiyaya daha az vaxt ayırmasına səbəb olacaq.

**Nəticə**

Beləliklə, Türkiyə siyasi tarixində son 50 ildə baş verən proseslər: ard-arda qurulan koalisiya hökumətləri, hökumət böhranları, terror məsələsi, hərbi çevrilişlər, separatizm Türkiyədə güclü prezident idarəetməsinin yaradılması ehtiyacını doğurmuşdur. Xüsusən 2007-ci il referendumu ilə prezidentin xalq tərəfindən seçilməsi qaydasının gətirilməsi adı qoyula bilməyən sistem ortaya çıxardığı üçün yeni idarəetmə sisteminə keçid labüd olmuşdur. Ölkənin həm siyasi, həm iqtisadi sferalarında, həm regional siyasətdə uğurlu addımlar atmış Ərdoğan hakimiyyəti hər nə qədər demokratik sistem qurmağa çalışsa da, Türkiyənin bütövlüyünü təmin etmək məqsədilə güclü prezident idarəetməsi tətbiq etməyə çalışsa da, bu sistemin olmazsa olmaz xüsusiyyətlərin də nəzərə alınması mütləqdir. ABŞ-da ölkənin tarixi şərtləri, partiya sistemi, təzyiq qruplarının varlığı, ideoloji və etnik parçalanmadan uzaq siyasi mədəniyyət kimi amillər səbəbiylə çəkindirmə və tarazlaşdırma mexanizminin düzgün fəaliyyət göstərməsi idarəetməsi uğurlu edən səbəblərdir. Bu amillərin hamısının birlikdə mövcud olması bütün dövlətlərdə rast gəlinən hal deyil. AK Partiya Türkiyənin demokratiya yolunda inkişafına təkan verəcək siyasi konsepsiya hazırlamağa çalışsa da, yuxarıda sadalanan amillərin mövcudluğuna diqqət yetirilməlidir. Bunlardan ən əsası Türkiyədə partiyadaxili demokratiyanın zəifliyi olmuşdur. Partiyaların sərt təşkilatlanması, liderə bağlılıq, bunun müqabilində mükafatlandırma, bütün qərarların partiya lideri tərəfindən alınması, millət vəkillərinin kor-koranə bu qərarları dəstəkləməsi partiyadaxili demokratiyanın zəifliyindən xəbər verir. Bunun üçün məhkəmələr tam müstəqil olmalı, vətəndaş cəmiyyəti quruluşları xalqı maarifləndirməli, seçicilər siyasi həyatda fəal rol oynamalı, siyasi partiyalar lider təzyiqlərindən qurtulmalıdır. Bu əksikliklərin aradan qaldırıldığı təqdirdə prezident idarəetməsinə keçid Türkiyə siyasi tarixində dönüş nöqtəsi ola bilər.

## ƏDƏBİYYAT

**Türk dilində**

1. Aydın S., Taşkın Y. 1960`tan Günümüze Türkiye Tarihi. İstanbul: İletişim, 2014, 555 s.
2. Bal İ. Başkanlık Sistemi Türkiye'nin Sorunlarını Çözer mi? (127-140) // Yeni Türkiye, 2013 №51, 850 s.
3. Bülbül K. Cumhurbaşkanlığı Sistemi: Nedenler, Tespitler, Beklentiler. Konya: Tezkire, 2017, 80 s.
4. Çağlar N. Avantaj ve Dezavantajlariyla Parlamenter Hükümet Sistemi // Kastamonu Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Jurnalı- Cilt 19, Sayı 4, s 111-117, 2017. 220 s.
5. Efe H., Kemahlı F., Kotan M.L. Türkiye`nin Parlamenter Sistem Deneyiminin Önemi // KAÜ İİBF jurnalı (149-176). Cild 6, N 11, 2015, 354 s.
6. Erdoğan M. Anayasa Hukuku. Ankara: Orion, 2011, 258 s.
7. Erdoğan M. Türkiyede Anayasalar ve Siyaset. Ankara: Liberte, 2012, 259 s.
8. Gergerlioğlu M.T. Türk Tipi Cumhurbaşkanlığı: Kurumların Vesayetinden Halkın İktidarına. İstanbul: Hayykitap, 2017, 192 s.

9. Gönenç L. Türkiye'deki Hükümet Sistemi Tartışmalarına İlişkin Değerlendirmeler (269-280) // Yeni Türkiye Jurnalı, 2013, №51, 850 s.
10. Gözler K. Devletin Genel Teorisi. Bursa: Ekin, 2017, 384 s.
11. Gülsoy M.T. Hükumet Sistemlerini Karşılaştırmak (257-268) // Yeni Türkiye Jurnalı, 2013, №51, 850 s.
12. Kanadoğlu K., Akartürk E.A., Boyunsuz Ş.Ö. Türkiye'de Başkanlık Sistemi Tartışmaları: Otoriter Sistem Arayışları. Ankara: CHP, 2016, 158 s.
13. Kili S., Gözübüyük Ş. Türk Anayasa Metinleri "Sened-i İttifaktan Günümüze". İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2000, 334 s.
14. Örgün F. Dar Gelen Gömlek: Başkanlık Sistemi. İstanbul: Bilge, 1999, 158 s.
15. Özbudun E. Türk Anayasa Hukuku. 12-ci nəşr. Ankara:Yetkin, 2010, 441 s.
16. Tanör B. Osmanlı-Türk Anayasal Gelişmeleri. İstanbul: YKY, 2010, 456 s.
17. Turan M. Türkiye'nin Yeni Yönetim Düzeni: Cumhurbaşkanlığı Hükümet Sistemi // Social Sciences Research Journal, Volume 7, Issue 3, 42-91 (September, 2018), 120 s.
18. Uluşahin N. Cumhurbaşkanının Halk Tarafından Seçilmesinin Siyasal Sistemimize Etkileri: Türkiye'de Hükümet Sisteminin Geçirdiği Dönüşüm Ve Geleceğe Yönelik Beklentiler (319-332) // Yeni Türkiye Jurnalı, 2013, №51, 850 s.
19. Yazıcı S. Başkanlık ve Yarı-Başkanlık Sistemleri Türkiye için Bir Değerlendirme. İstanbul: Bilgi Universiteti, 2017, 241 s.
20. Yüksekefendioğlu Y. 1982 Anayasasında Cumhurbaşkanının Yürütme İçerisinde Yeri, Seçimi, Sorumsuzluğu, Yasama Dokunulmazlığı (329-358) // TBB jurnalı, N 94, 2011, 420 s.

**İnternet resursları**

21. Asilbay H. Parlamenter Sistem Ve Türkiye Açısından Bir Değerlendirme // TBB jurnalı, N 104, 2013 (http://tbbjurnalı.barobirlik.org.tr/m2013-104-1250)
22. Şahin K. Türkiyedki hükumet sistemi tartışmalarına siyasi kültür ve demokrasi eksenli bir yaklaşım // Sakarya Iktisat jurnalı (29-71) (http://dergipark.gov.tr/download/article-file/319606)
23. 1924 Anayasası, Teşkilatı Esasiye Kanunu (https://www.tbmm.gov.tr/anayasa/anayasa24.htm (22.01.2019))
24. Türkiye Cumhuriyeti Anayasasinın Bazı Maddelerinde Değişiklik Yapılması Hakkında Kanun, N: 5678 (https://www.tbmm.gov.tr/kanunlar/k5678.html)
25. Türkiye Cumhuriyeti Anayasasinda Değişiklik Yapilmasina Dair Kanun, N:6771 (https://www.tbmm.gov.tr/kanunlar/k6771.html)

***Abstract***

***Zuriya Garayeva***

***Changing Management System in Turkey: Conceptual Analysis of the Transition from Parliamentary to Presidential Government***

Although Turkey's parliament was first established on March 19, 1877, and despite the use of a system of "Assembly Government" in which the government had existed during the National Struggle, at the root of Turkey's governing traditions is the parliamentary system. Although the debate on the forms of governance based on the nature of the relations between the branches of power has been a long way in world practice, it has begun in Turkey mainly since 1982. In many countries, including Turkey, the form of parliamentary rule has been changed due to the inability of government to cope with the problems. Despite the fact that Turkey, which has a long-standing parliamentary experience, introduced a purely parliamentary system with a constitutional amendment in 1961, the parliamentary system failed to help solve the problems in that country, and it prooved itself in military coups. With the constitutional amendment in 1982, this system lost its purity and was replaced by the presidential government in April 16, 2017 in Turkey, where the parliamentary system has been implemented since 1924. President Erdogan claims that the new system will stabilize decision-making and eliminate the inhospitable parliamentary coalitions that have kept Turkey from developing in the past. Critics of the system change claim that the

new form of governance will be a "selective dictatorship", that the separation of powers will be eliminated, the parliament will have no legal authority and will not be able to demand accountability for the president's shortcomings. From this point of view, the implementation of the new management system in Turkey is relevant for the country. The aim of the study is to analyze the transformation model from one form of management to another in the Turkish sample. The process of transition to Turkey's presidency has been studied in terms of history, law and governance. The article first describes the characteristics of the presidential and parliamentary governments, analyzing these systems in the context of the separation of powers, the possibility of role of the presidential administration to solve problems, and the causes of the old systemic government crises and its relationship with the governance system. The article firstly describes the characteristics of the president and the parliamentary government; these systems have been analyzed in the context of the separation of power in Turkey; the prospects of the new system for the solution of problems related to governance issues have been examined. This analysis was based on the study of the sources related to the subject, the analysis of the results obtained, the analysis and synthesis of the arguments, and also the comparative analysis method.

***Keywords:*** *Presidential government form, parliamentary government form, Turkey, transition*

***Резюме***

***Зурия Гараева***

***Изменение системы управления в Турции: концептуальный анализ перехода от парламентской администрации к президентской***

Хотя турецкий парламент был впервые создан 19 марта 1877 года, и, несмотря на использование системы «правительства Ассамблеи», в которой правительство существовало во время национальной борьбы, в основе правящих традиций Турции лежит парламентская система. Хотя дебаты о формах управления, основанных на характере отношений между ветвями власти, давно прошли в мировой практике, они начались в Турции в основном с 1982 года. Во многих странах, в том числе в Турции, форма парламентского правления был изменен из-за неспособности правительства справиться с проблемами. Несмотря на то, что Турция, имеющая многолетний парламентский опыт, в 1961 году ввела чисто парламентскую систему с поправкой к конституции, парламентская система не смогла помочь решить проблемы в этой стране и зарекомендовала себя в военных переворотах. С поправкой к Конституции в 1982 году эта система утратила свою чистоту и была заменена президентским правительством 16 апреля 2017 года в Турции, где парламентская система была внедрена с 1924 года. Президент Эрдоган утверждает, что новая система стабилизирует процесс принятия решений и устранить негостеприимные парламентские коалиции, которые мешали Турции развиваться в прошлом. Критики системных изменений утверждают, что новая форма управления будет «выборочной диктатурой», что разделение властей будет ликвидировано, парламент не будет иметь юридических полномочий и не сможет требовать ответственности за недостатки президента. С этой точки зрения внедрение новой системы управления в Турции актуально для страны. Целью исследования является анализ модели трансформации из одной формы управления в другую в турецкой выборке. Процесс перехода к президентству Турции был изучен с точки зрения истории, права и управления. Цель исследования - выяснить, что новая система принесет в Турцию. В статье в первую очередь описываются характеристики президента и парламентского правительства; эти системы были проанализированы в контексте разделения власти в Турции; Рассмотрены перспективы новой системы решения проблем, связанных с вопросами управления. Этот анализ основывался на изучении источников, связанных с предметом, анализе полученных результатов, анализе и обобщении аргументов, а также методе сравнительного анализа. Этот анализ проводился с изучением источников, связанных с предметом, анализом полученных результатов, анализом и обобщением аргументов, а также методом сравнительного анализа.

***Ключевые слова:*** *президентская управления, парламентская управления, Турция, переход*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94;327**

# AZƏRBAYCAN RESPUBLİKASININ QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİ İLƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF TARİXİNDƏN

**Kəmalə HƏSƏNOVA** *

Məqalə redaksiyaya daxil olmuşdur: 25 aprel 2019; çapa qəbul edilmişdir: 8 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 25 April 2019; accepted: 8 July 2019; published online: 25 September

***Açar sözlər:*** *parlament, beynəlxalq, əməkdaşlıq, forum, sessiya, region, siyasət*

## Giriş

Azərbaycan Respublikası dövlət müstəqilliyi bərpa edildikdən sonra müasir dünya siyasətində beynəlxalq parlament təşkilatlarının rolunun artmasını nəzərə alaraq, Qara dəniz regionu dövlətləri ilə ikitərəfli və çoxtərəfli parlament münasibətlərinin yaradılmasına xüsusi diqqət yetirməyə başladı. Bu baxımdan Azərbaycan Respublikasının Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində (QDİƏT PM) iştirakının tədqiqi əhəmiyyətlidir. Qurulduğu ilk zamanlarda bu təşkilat Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi adlanırdı. Az sonra Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi adlandırıldı.

## Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin yaranması

QDİƏT Parlament Məclisi Azərbaycan Respublikasının qurucusu, üzvü olduğu fəaliyyətində yaxından iştirak etdiyi beynəlxalq parlament təşkilatlardan biridir. Milli Məclisin bu təşkilatda iştirakının formaları sessiya və komitə iclaslarında iştirak, sənədlər üzərində iş, birgə layihələrdə iştirak və başqalarıdır. Nümayəndə heyəti QDİƏT PM-də nümunəvi fəaliyyət göstərir, əməkdaşlığın genişləndirilməsi üçün mühüm təkliflər irəli sürür. Məsləhətçi təşkilat kimi QİƏPM fəaliyyəti haqqında tövsiyə, bəyanat və hesabatlar verir. QİƏPM-in qəbul etdiyi qətnamələr onun mövqeyini əks edərək əsasən çağırış xarakterlidir (8, s. 30).

Nizamnaməyə əsasən Parlament Məclisi üzv ölkələrin parlament nümayəndələrindən təşkil olunur. QDİƏT PM üzv ölkələrin parlamentlərinin təmsil olunduğu qurumdur. Parlament Məclisi 70 üzvdən ibarətdir. QDİƏT Parlament Məclisinin üzvləri milli parlament tərəfindən bir ildən az olmayan müddətə təyin olunurlar.

QDİƏT Parlament Məclisinin sessiyaları ildə iki dəfə - yazda və payızda keçirilir. QDİƏT Parlament Məclisinin nizamnaməsinə görə üzv ölkələrin parlament sədrləri rotasiya qaydası ilə təşkilata rəhbərlik edir. QDİƏT Parlament Məclisi beynəlxalq aləmdə nüfuzlu mövqeyə malikdir. Paralament Məclisi AŞPA, ATƏT Parlament Assambleyası, Parlamentlərarası İttifaq, NATO Parlament Assambleyası, MDB Parlamentlərarası Assambleyası, Qərbi Avropa Birliyi Parlament Assambleyası ilə və digərləri əməkdaşlıq edir.

QDİƏT PM parlamentlərarası əlaqə orqanıdır. PM Qara dəniz iqtisadi əməkdaşlığının məqsədlərinin xalqlar tərəfindən mənimsənilməsini təmin etmək, üzv ölkələr arasında iqtisadi, mədəni, siyasi əməkdaşlıq sahəsində hüquqi baza yaratmaq, dövlət və ya

* dissertant, Bakı Dövlət Universiteti
*e-mail:kamala.hasanova.02@mail.ru*

hökümət başçıları, xarici işlər nazirləri ərəfindən qəbul olunmuş gerçələşdirilməsi üçün tədbirlər görmək, beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etməkdən üçün milli parlamentlərin səylərini birləşdirir(5.v.2). QDİƏT PM-in fəaliyyətdə olan orqanları Büro və Daimi Komitədir. Büro 1998-ci ildə ləğv olunaraq səlahiyyətləri Daimi Komitəyə verilmişdir. Daimi Komitənin işi QDİƏT PM-in qərarlarının yerinə yetirilməsinə nəzarət etmək, sessiyaların və komitələrin gündəliyini hazırlamaq, komitələrin fəaliyyətini əlaqələndirmək, QİƏ və QDİƏT PM arasında əlaqələri təmin etməkdən ibarətdir(8.s.30). QDİƏT Parlament Məclisi 1993-cü il fevralın 26-da imzalanan bəyannamə əsasında formalaşdırıldı. 1995- ci ildə Yunanıstan, 1997-ci ildə Bolqarıstan QİƏT Parlament Məclisinə tam hüquqlu üzv qəbul edildi. Misir Xalq Məclisi, İsrail Dövlət Knesseti, Slovakiya Respublikasının Dövlət Şurası, Avstriya, İtaliya Respublikası, Tunis Respublikası, Fransa Respublikası və Almaniya Federativ Respublikasının Bundestaqı müşahidəçi statusuna malikdir. 2004-cü ilin aprelində Serbiya və Çernoqoriya QDİƏT PM-in üzvü oldu. QDİƏT PM-in iqamətgahı İstanbulda yerləşir(1.s.34).

**Azərbaycan nümayəndə heyətinin Qara dəniz İqtisadi Əməkdaşlıq Parlament Məclisində fəaliyyəti**

Azərbaycan Respublikasının Milli Məclisi QİƏT Parlament Məclisinin ən fəal üzvlərindəndir və Azərbaycan Respublikasının Milli Məclisi bu təşkilatda beş nəfərdən ibarət nümayəndə heyəti ilə təmsil olunur.

Milli Məclisin nümayəndə heyəti Parlament Məclisinin 1994-2005-ci illərdə keçirilən toplantılarında iştirak edərək Ermənistanın hərbi təcavüzünün ağır nəticələri barədə faktları iştirakçıların diqqətinə çatdırmışdır. Qurumun işində yaxından iştirak edən Azərbaycan Respublikası QDİƏT Parlament Məclisinin təsisçilərindən birinin olması buna sübutdur.

Azərbaycan Respublikasının nümayəndə heyəti 1993-cü il fevralın 24-dən martın 1-dək İstanbulda keçirilən toplantısında iştirak etdi. Toplantıda təşkilatın nizamnaməsi paraflandı. Azərbaycan nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər keçirdi. 1993-cü il iyunun 15-19-da İstanbulda 10 ölkənin nüamyəndə heyətinin iştirakı ilə Parlament Məclisi yaradıldı (1, s.62). Parlament Məclisində üç komitə- İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsi; Mədəniyyət, təhsil və sosial məsələlər komitəsi; Hüquqi və siyasi məsələlər komitəsi vardır. Parlament Məclisinin 1993-cü il noyabrın 29-dan dekabrın 1-dək Kiyevdə keçirilən sessiyasında Milli Məclisin Sədr müavini A.Cəlilov çıxış etdi, nümayəndə heyətinin üzvləri komitə iclaslarında müzakirə edilən məsələlər barəsində çıxış etdilər. Azərbaycan tərəfi Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini müzakirə etmək istəsə də, Ermənistan parlamentinin sədri B.Ararkçyan müzakirəyə hazır olmadığını bildirdi.

1994-cü il fevralın 22-24-də Parlament Məclisinin Hüquqi və siyasi işlər komitəsinin "QİƏPM iştirakçısı olan ölkələrin qanunvericilik sistemlərinin uyğunlaşdırılması, Demokratik institutların inkişaf etdirilməsi" mövzusunda təşkil etdiyi seminarda və komitənin iclasında çıxış etdilər. Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatı, çoxpartiyalı sistem, demokratiya yolunda qəbul edilən qanunlar barədə məlumat verildi. Təşkilatın vitse prezidenti Zurab Andreadzeyə regionda münaqişlərin müzakirəsi üçün mexanizminə dair məruzə hazırlamaq tapşırıldı. 1994-cü ilin aprelində Bakıda Hüquqi və siyasi işlər komitəsinin iclasında təbii və texniki fəlakətlərinin nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələsinin müzakirəsindən sonra yekun sənədi qəbul olundu (10, s. 36). Komitənin həmin ilin may ayında Tbilisidə keçirilən iclasında Z.Andreadzenin məruzəsi dinlənildi. Məruzənin hazırlığı prosesində Azərbaycan Respublikasının Milli Məclisi Ermənistanın hərbi təcavüzü və nəticələri barəsində müvafiq arayışları

təqdim etmişdi. Məruzədə Azərbaycan ərazilərinin işğal edildiyi, tarix və mədəniyyət abidələrinin dağıdıldığı, qaçqın və məcburi köçkünlərin olduğu vurğulanırdı (1, s.64).

1996-cı ilin iyun ayında Parlament Məclisinin Bakıda sessiyası keçirildi. Sessiyada Albaniya və Ermənistandan başqa QDİƏT PM-ə daxil olan ölkələrin, parlament nümayəndə heyətləri iştirak edirdilər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sessiyada nitq söylədi. Dövlət başçısının məruzəsində Azərbaycan Respublikasının bu təşkilat ilə əməkdaşlığa xüsusi diqqət yetirdiyi, parlamentlərin əməkdaşlıqda rolu vurğulanırdı (3). Gündəlikdə olan məsələlər "Qara dəniz ölkələri İqtisadi Əməkdaşlığının üzvü olan ölkələr arasında nəqliyyat sahəsində əməkdaşlığa dair", "Qara dəniz ölkələri İqtisadi Əməkdaşlığının üzvü olan ölkələr arasında mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığa dair" məruzələr dinlənildi. Daha sonra bu məsələlərlə bağlı tövsiyələr qəbul olundu (3). QİƏPM-nin 1997-ci ilin iyununda Yunanıstanda iclası keçirildi. İclasda Azərbaycan Respublikası Milli Məclisin sədri M.Ələsgərov iştirak etmiş və məruzə ilə çıxış etdi (7, s. 116). 1998-ci ilin iyununda Yaltada QİƏ Xartiyası imzalandı və 1999-cu ilin iyununda "Yalta sammitindən sonra QİƏT Parlament Məclisinin rolu" adlı tövsiyə qərarı qəbul edildi (14, s. 266). QDİƏT Parlament Məclisi 1996-cı ilin iyulunda Azərbaycan Respublikası Milli Məclisinin nümayəndələrinin və digər beynəlxalq parlament təşkilatlarının iştirakı ilə parlamentlərarası konfrans keçirdi. Tədbir ətraf mühitin qorunmasına həsr olunmuşdu. Konfrans bölgədə və Avropa miqyasında böyük əhəmiyyətə malik idi (14, s. 269). QDİƏT Parlament Məclisi demokratiya və hüquq məsələlərinə mühüm əhəmiyyət verirdi. "Demokratik qurumların inkişafı" mövzusunda keçirilən seminar bölgədəki ölkələr arasında yeni əlaqələrə şərait yaradırdı. QDİƏT Parlament Məclisini qanunun aliliyinə zərbə vuran korrupsiya və mütəşəkkil cinayətkarlıq məsələləri daha çox narahat edir. Bu məsələ ilə bağlı parlament üzvlərinin böyük məsulyyətini nəzərə alaraq QDİƏT Parlament Məclisinin Hüquq və siyasət məsələləri komitəsinin səyi ilə 2000-ci ilin oktyabrında tövsiyələr planı hazırlandı (14, s. 270). QDİƏT Parlament Məclisi bank və maliyyə sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verirdi. Parlamentlərə yerli və xarici investisiyaların qorunması, bu sahədə qanunvericiliyin inkişafını məsləhət görür, region ölkələrində sosial problemlərin həllində tədbirlər həyata keçirir. QDİƏT Parlament Məclisi təhsil, mədəniyyət və sosial işlər sahəsində mədəniyyət, təhsil, elm və informasiya sahəsində Qara dəniz konvensiyasının təsdiq edilməsi və yerinə yetirilməsi haqqında, QDİƏT Parlament Məclisinin üzvü olan ölkələrdə mədəni irsin qorunması, Qara dəniz hövzəsi tarixinin birgə tədqiq edilməsi proqramı, üzv ölkələr arasında təhsil sahəsində əməkdaşlığa dair sənədləri qəbul etdi. Azərbaycan Respublikasının Milli Məclisi QDİƏT Parlament Məclisi çərçivəsində regional təşəbbüslərin yerinə yetirilməsi sahəsində, regional əməkdaşlığın keyfiyyət etibarı ilə yeni mərhələyə qədəm qoymasında fəal iştirak etdi. Azərbaycan Respublikası təşkilat çərçivəsində Qara Dəniz Tədqiqatları üzrə Beynəlxalq Tədqiqatları üzrə Beynəlxalq Mərkəz, Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əlaqələr qurmuşdur. Demokratik inkişafda və qanunun aliliyində kütləvi informasiya vasitələrinin mühüm rolunu nəzərə alınaraq 2000-ci ilin sentyabrında QDİƏT Parlament Məclisinin Sofiyada Mədəniyyət, təhsil, sosial məsələlər komitəsinin iclası keçirildi. Qəbul olunmuş tövsiyədə KİV-in demokratik dəyərlərə, dostluq və əməkdaşlığa dəstəyi qeyd olunurdu (14, s. 270).

2001-ci ilin iyununda QDİƏT Parlament Məclisinin XVII plenar sessiyası Bakı şəhərində keçirildi (11, v. 3). Sessiyada iqtisadi, ticarət, texnoloji, ekoloji və təşkilati məsələlər nəzərdən keçirildi. İclasda Qara dəniz hövzəsi ölkələrində ətraf mühitin qorunması məsələlərinə xüsusi yer ayrıldı. Prezident Heydər Əliyev QDİƏT Parlament Məclisinin forumunun ikinci dəfə Bakıda keçirilməsini mühüm hadisə kimi dəyərləndirərək demişdir: "İri beynəlxalq qurum olan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Məclisi bölgə dövlətləri arasındakı münasibətlərin genişlənməsinə qüdrətli təkan

verir və ölkələrimizin parlamentlərarası dialoquna geniş perspektivlər açır. Bu təşkilat coğrafi yaxınlığımızdan, tarixi keçmişimizdən və mədəni birliyimizdən irəli gələn üstünlüklərdən istifadə edərək bölgə dövlətlərinin ikitərəfli və çoxşaxəli əməkdaşlıq etməsi üçün münbit şərait yaradır". (14, s. 272) İclasda Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələsgərov QDİƏT Parlament Məclisinin fəaliyyəti və onda nümayəndə heyətinin iştirakı haqqında məlumat verdi. Azərbaycan Respublikası regional iqtisadi əmədaşlığın gücləndirilməsi sahəsində təşkilatın müvafiq qurumlarında bir çox sənədlərin imzalanmasında iştirak etmişdir. QDİƏT Parlament Məclisinin Beynəlxalq Katibliyinin yerləşdirilməsinə dair QDİƏT ilə Türkiyə hökuməti arasında saziş, QDİƏ PM imtiyaz və immunitetlərinə dair əlavə protokol, QDİƏT üzv dövlətlərinin iş adamları üçün vizanın sadələşdirilməsi üçün saziş layihələri imzalandı (4, v. 17-25).

2002-ci ilin iyununda İstanbulda QDİƏT-in zirvə toplantısında qəbul olunan bəyannamənin müddəalarına uyğun olaraq, Qara dəniz regionunda bu təşkilatın təhlükəsizlik və sabitliyə verə biləcək töhfəsini müzakirə etmək məqsədilə Xüsusi İşçi Qrupu yaradıldı (13, s. 182). Bu qrupun əsas vəzifəsi QDİƏT-in mümkün töhfəsini ehtiva edən müfafiq işçi sənədi hazırlamaq idi. Üzv ölkələr ilə iqtisadi münasibətlərin hüquqi bazasını ticarət-iqtisadi əməkdaşlıq, investisiyaların təşviqi haqqında sazişlərdən təşkil edirdi. 2002-ci ilin sentyabrında QDİƏT Parlament Məclisinin Mədəniyyət, elm və sosial məsələlər komitəsinin iclasları Bakıda keçirildi. Milli Məclisin sədr müavini Z.Əsgərov və Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Ş.Xanbabayev çıxış etdilər. İclasda Azərbaycanda işsizlərin sosial reinteqrasiyası sahəsində görülən tədbirlər barədə ətraflı məlumat verildi (5,v.3). Azərbaycan Respublikasının Milli Məclisi 2003-cü ildə QDİƏT-də sədrliyi ilk dəfə 6 aylıq müddətə öz üzərinə götürdü.

2003-cü ilin oktyabrında QDİƏT-də sədrlik müddətinin bitməsinə baxmayaraq, dövlətlərin xahişi ilə Azərbaycan konstruktiv mövqe nümayiş etdirərək sədrlik səlahiyyətlərini davam etdirdi. Parlament Məclisinin iqtisadiyyat, kommersiya, ətraf mühit məsələləri komitəsinin iclası 2003-cü ilin martında Milli Məclisdə keçirildi (2, s.117). İclasda Qara dəniz hövzəsinə daxil olan ölkələrin enerjiyə olan ehtiyaclarının ödənilməsi və birgə əməkdaşlığın yeni formalarının axtarılması məsələləri müzakirə olundu. QDİƏT Parlament Məclisinin hərbi münaqişələr probleminə toxunmamaq qərarına baxmayaraq, Azərbaycan burada da haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən eşidilməsinə nail oldu. İclasda çıxış edən Milli Məclisin sədrinin birinci müavini Z. Əsgərov Azərbaycanın regional təşkilatların qarşılıqlı münasibətlərinin genişləndirilməsinə xüsusi əhəmiyyət verdiyini, QDİƏT Parlament Məclisi ilə Azərbaycan Respublikası Milli Məclisi arasında qarşılıqlı faydalı əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini bildirdi. Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığını və bir milyondan artıq azərbaycanlının ağır şəraitdə yaşadığını vurğuladı. Qeyd etdi ki, beynəlxalq təşkilatların təcavüzü pisləyən bir sıra sənəd və qətnamələr qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfinin hüquqi normalara məhəl qoymaması narahatçılıq yaradır. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının iştirakı ölkənin iqtisadi inkişafı üçün yeni imkanlar yaradırdı. Təşkilata üzv olan ölkələr arasında iqtisadi qanunvericiliyin uyğunlaşdırılması bu sahədə əməkdaşlığı xüsusilə zəruri edirdi. QDİƏT Parlament Məclisi təhsil sahəsində də əməkdaşlığa dair mühüm tədbirlər gördü. "QDİƏT üzvü olan ölkələr arasında təhsilin yaxşılaşdırılması sahəsində əməkdaşlıq" QDİƏT üzvü olan ölkəkələr arasında akademik birliklərin əməkdaşlığı və bu əməkdaşlığın hüquqi çərçivəsi" və "QDİƏT üzvü olan ölkələrin ali təhsil diplomlarının qarşılığlı tanınması" haqqında tövsiylər verildi (14, s.270). 2003-cü ilin martında Milli Məclisdə QDİƏT Parlament Məclisinin iqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri komitəsinin iclası keçirildi (2, s. 115). İclasda Qara dəniz hövzəsinə daxil olan ölkələrin enerjiyə olan ehtiyaclarının ödənilməsi və birgə əməkdaşlığın yeni formalarının axtarılması məsələləri müzakirə olundu. İclasda çıxış

edən Z.Əsgərov Azərbaycanın regional təşkilatların qarşılıqlı əlaqələrinin genişləndirilməsinə önəm verdiyini, QDİƏT Parlament Məclisi ilə Azərbaycan Respublikası Milli Məclisi arasında qarşılığlı faydalı əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini bildirdi. Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığını və bir milyondan artıq azərbaycanlının ağır vəziyyətdə yaşadığını iştirakçıların diqqətinə çatdırdı. QDİƏT Parlament Məclisinin 2003-cü ilin iyununda növbəti sessiyası Moldovada iclası keçirildi. İclasda Azərbaycan nümayəndə heyətinin rəhbəri A.Rəhimzadə çıxış edərək Azərbaycanda həyatın bir çox sahələrini əhatə edən islahatlar və onların nəticələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, problemin indiyə kimi həll olunmadığına diqqəti cəlb etdi. Bildirdi ki, münaqişə Azərbaycanın inkişafını ləngidən əsas amilə çevrilmişdir. Bakıda 2004-cü ilin aprelində QDİƏT-ə üzv ölkələrin təhsil və xarici işlər nazirlərinin iclasları keçirildi (7, s. 630). Toplantıda nitq söyləyən Prezident İlham Əliyev Azərbaycanın regional əməkdaşlıq baxımından fəal olduğunu və Azərbaycanın iştirakı ilə regionda çox mühüm, dünya üçün əhəmiyyətli layihələrin reallaşdırdığını bildirdi və QDİƏT çərçivəsində uğurlu əməkdaşlıq haqqında məlumat verdi. Təşkilatın üzvü olan ölkələrin təhsil nazirlərinin görüşünün yekununa dair birgə Bakı bəyannaməsi qəbul etdilər. Milli Məclisin nümayəndə heyəti QDİƏT Parlament Məclisinin əsas tədbirlərində Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini gündəliyə gətirir. Azərbaycan nümayəndə heyətinin üzvləri respublikanın ərazisinin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğal olunması, bir milyondan artıq azərbaycanlının acınacaqlı qaçqın və məcburi köçkün vəziyyətində yaşaması faktını QDİƏT PM toplantılarında nəzərə çatdırır.

Bakıda 2004-cü ilin oktyabrında keçirilən QDİƏT Parlament Məclisinin hüquqi və siyasi məsələlər komitəsinin iclasında dünyada və regionda baş verən hadisələr diqqət mərkəzində oldu (6). Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın terrorla mübarizədə rolu haqqında məlumat verdi. Baş Assambleyaya tövsiyə xarakterli məruzə qəbul etdi və təşkilati məsələlər müzakirə olundu. QDİƏT-in əsas nəaliyyətlərindən biri də 2004-cü ildə Layihə İnkişaf Fondunun təsis edilməsidir (12, v. 68). Layihə İnkişaf Fondu regional əməkdaşlığı təşviq edəcək layihələrin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması işində maliyyələşdirmə ilə məşqul olur. Azərbaycanın sədrliyi dövründə fondun fəaliyyəti gücləndi. Azərbaycan, Yunanıstan, Rumıniya, Rusiya və Türkiyə fonda öz töhfələrini verdilər. Təşkilatın işçi qrupları da layihələrin hazırlanması sahəsində fəaliyyətə başladılar.

2005-ci ilin iyununda QDİƏT Parlament Məclisinin Kiyevdə keçirilən iclasında iştirak edən Azərbaycan nümayəndə heyəti Qara dəniz regionu ilə əməkdaşlıq, turizm, insan alveri, Qara dəniz nəqliyyatları şəbəkəsi və digər məsələlərə dair müzakirələrdə çıxışlar etdilər. Müzakirə olunan məsələlər üzrə bəyannamələr qəbul edildi.

QDİƏT Parlament Məclisi hökümətlərin, elmi müəssisələrinin və işgüzar dairələrin Qara dəniz regionunu əmin-amanlıq zonasına çevirmək məqsədi ilə müxtəlif səylərinin irəli sürülməsinə və gerçəkləşdirilməsinə yardım edən böyük potensialı vardır. QDİƏT-in Parlament Məclisi xalqlar arasında əlaqə yaradaraq özünü parlamentlərarası dialoqun forumu, eləcə də xalqlar arasında mühüm əlaqə yaradan bir təşkilat kimi təsdiqləmişdir.

Ümumiyyətlə, aparılan tədqiqatlar göstərir ki, Azərbaycan Respublikası Milli Məclisinin QDİƏT PM ilə əməkdaşlığı uğurlu olmuşdur. Bu əlaqələr Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişafına, Azərbaycan xalqının haqq işinin beynəlxalq miqyasda dəstəklənməsinə, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə xidmət edir.

Parlament Məclisi çərçivəsində fəaliyyət Azərbaycan Respublikasının milli-dövlət maraqlarına uyğundur. Azərbaycan nümayəndə heyəti bu qurumda öz siyasi fəaliyyətini

daim genişləndirərək təşkilatın müxtəlif toplantılarında Azərbaycanın siyasi maraqlarına uyğun çıxışlar edir, təkliflər irəli sürür. Məsləhətçi təşkilat kimi QİƏPM fəaliyyəti haqqında tövsiyə, bəyanat və hesabatlar verir. QİƏPM-in qəbul etdiyi qətnamələr onun mövqeyini əks edərək, əsasən, çağırış xarakterlidir.

Azərbaycan Respublikası Milli Məclisinin QDİƏT Parlament Məclisi ilə əlaqələri əsas etibarı ilə iqtisadi, siyasi, hüquqi, mədəni sahələri əhatə etmişdir. Milli Məclisin nümayəndə heyəti təşkilatın müxtəlif komitələrinin iclaslarında iştirak etmiş, müəyyən dövrlər ərzində QDİƏT PM-ə sədrlik etmişdir.

## ƏDƏBİYYAT


1. Axundov N., Qasımlı M. Azərbaycan və beynəlxalq parlament təşkilatları, Bakı: Mütərcim, 1996, 88 s.
2. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2004, 240 s.
3. Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəz., 1996, 13 iyun, №111 (1380).
4. Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası ilə bağlı bir sıra məsələlərə dair arayış . QİƏPM-yazışmalar. 2002-ci il. //ARMMA: F.2941.139v.
5. Azərbaycan Respublikası Milli Məclisi ilə Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi (QİƏPM) arasında ilə əlaqələr. QİƏPM-nin yazışmları. Azərbaycan Respublikası Milli Məclisinin Aparatı. Beynəlxalq münasibətlər. 2004 // ARMMA: F.2941.70 v.
6. Bakıda QDİƏT-in hüquqi və siyasi məsələlər komitəsinin 24-cü iclası keçirilir. "Xalq qəzeti". 2004 14 oktyabr, № 239 (24806).
7. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 s.
8. İmanova S.M. Azərbaycanın beynəlxalq parlament təşkilatları ilə əlaqələri (1991-1998-ci illər) tar.üzrə fəl.dok.dis… Bakı, 2001,158 s.
9. Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin sessiyası. "Xalq qəzeti", 1996, 13 iyun. №113(22255).
10. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər) Bakı, Gənclik. 1996,135 s.
11. QİƏPM-nin yazışmaları. Azərbaycan Respublikası Milli Məclisinin Aparatı, Beynəlxalq münasibətlər. //ARMMA: F. 2941.2002 139 v.
12. QDİƏT çərçivəsində əməkdaşlıq. Avropa İttifaqının məktubları. Azərbaycan Respublikası Milli Məclisinin Aparatı, Beynəlxalq münasibətlər //ARMMA: F 2941.2006-2007 118 v.
13. Məmmədov M., İbadov E. Beynəlxalq İqtisadi Təşkilatlar. Bakı: CBS, 2008, 246 s.
14. Müstəqil dövlətimiz və parlamentimiz. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2001, 552 s.


***Xülasə***

***Kəmalə Həsənova***


***Azərbaycan Respublikasının Qara Dəniz İqisadi Əməkdaşlıq Parlament Məclisi ilə münasibətlərinin inkişaf tarixindən***

Məqalə Azərbaycan Respublikasının Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi ilə əməkdaşlığına həsr olunmuşdur. Milli Məclisin qurucusu olduğu Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində nümayəndə heyəti ticarət, nəqliyyat, enerji, informasiya-kommunikasiya texnologiyaları, ekologiya, siyasi, hüquq, elm, təhsil mədəniyyət və digər komitələrin işində fəal iştirak etmişdir. QDİƏT-in Parlament Məclisi xalqlar arasında əlaqə yaradaraq özünü parlamentlərarası dialoqun forumu, eləcə də xalqlar arasında mühüm əlaqə yaradan bir təşkilatdır. Azərbaycan Respublikası Milli Məclisinin

QDİƏT PM ilə əməkdaşlığı uğurlu olmuşdur. Bu əlaqələr Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişafına, Azərbaycan xalqının haqq işinin beynəlxalq miqyasda dəstəklənməsinə, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə xidmət edir. Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi qurulduğu ilk zamanlarda adlanırdı. Az sonra Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi adlandırıldı. QDİƏT Parlament Məclisi Azərbaycan Respublikasının qurucusu, üzvü olduğu fəaliyyətində yaxından iştirak etdiyi beynəlxalq parlament təşkilatlardan biridir.

Parlament Məclisi çərçivəsində fəaliyyət Azərbaycan Respublikasının milli-dövlət maraqlarına uyğundur. Azərbaycan nümayəndə heyəti bu qurumda öz siyasi fəaliyyətini daim genişləndirərək təşkilatın müxtəlif toplantılarında Azərbaycanın siyasi maraqlarına uyğun çıxışlar edir, təkliflər irəli sürür. QDİƏT Parlament Məclisi Azərbaycan Respublikasının qurucusu, üzvü olduğu fəaliyyətində yaxından iştirak etdiyi beynəlxalq parlament təşkilatlardan biridir. Milli Məclisin bu təşkilatda iştirakının formaları sessiya və komitə iclaslarında iştirak, sənədlər üzərində iş, birgə layihələrdə iştirak və başqalarıdır. Nümayəndə heyəti QDİƏT PM-də nümunəvi fəaliyyət göstərir, əməkdaşlığın genişləndirilməsi üçün mühüm təkliflər irəli sürür.

***Резюме***

***Кямаля Гасанова***

***Из истории развитии отношении Азербайджанской Республики и Парламентской Ассамблеи Черноморского Экономического Сотрудничества***

Статья посвящена сотрудничеству Азербайджанской Республики с Парламентской Ассамблеей Организации Черноморского Экономического Сотрудничества. Делегация Парламентской ассамблеи Организации Черноморского экономического сотрудничества, которая является учредителем Милли Меджлиса, принимала активное участие в работе комитетов по торговле, транспорту, энергетике, информационно-коммуникационным технологиям, экологии, политике, праву, науке, образовательные и другие комитеты. Парламентская Ассамблея ЧЭС является форумом для межпарламентского диалога, установления контактов между народами, а также важной связью между народами. Сотрудничество Милли Меджлиса Азербайджанской Республики с Премьер-министром ЧЭС было успешным. Эти отношения способствуют развитию международных отношений Азербайджанской Республики, международной поддержке справедливости азербайджанского народа и дальнейшему укреплению государственной независимости Азербайджана. Черноморское экономическое сотрудничество изначально называлось Парламентской ассамблеей. Организация Черноморского экономического сотрудничества вскоре была названа Парламентской ассамблеей. Парламентская Ассамблея ОЧЭС является одной из международных парламентских организаций, которые активно участвуют в деятельности основателя и члена Азербайджанской Республики. Деятельность в рамках Парламентской Ассамблеи соответствует национальным и государственным интересам Азербайджанской Республики. Азербайджанская делегация постоянно расширяет свою политическую деятельность в этой организации, делает презентации на различных заседаниях организации в соответствии с политическими интересами Азербайджана и вносит предложения. Парламентская Ассамблея ОЧЭС является одной из международных парламентских организаций, которые активно участвуют в деятельности основателя и члена Азербайджанской Республики. Формы участия Милли Меджлиса в этой организации включают участие в заседаниях и заседаниях комитетов, работу над документами, участие в совместных проектах и другие. Делегация является образцовым в премьер-министре ЧЭС, вносит важные предложения по расширению сотрудничества.

***Ключевые слова:*** *парламент, международный, сотрудничество, форум, сессия, регион, политика*

***Abstract***

***Kamala Hasanova***

***From the development history of relations between the Republic of Azerbaijan and the Parliamentary Assembly of the Black Sea Economic Cooperation***

The article is devoted to the cooperation of the Republic of Azerbaijan with the PA of the BSECO. The delegation of the PA of the BSECO, which is the founder of the Milli Majlis, took an active part in the committees of commerce, transport, energy, information and communication technologies,ecology, political, law, science, education and other committees. The BSEC PA is a forum for inter-parliamentary dialogue, establishing contacts between peoples, as well as an important link between nations. Cooperation of the Milli Majlis of the Republic of Azerbaijan with BSEC PA has been successful.These relations promote the development of international relations of the Republic of Azerbaijan, the international support of the justice of the Azerbaijani people, and the further strengthening of the state independence of Azerbaijan. The BSEC was originally called the PA.The BSECO was soon called the PA. BSEC PA is one of the international parliamentary organizations that are closely involved in the activities of the founder and member of the Republic of Azerbaijan. Activities within the PA are in line with national and state interests of the Republic of Azerbaijan. The Azerbaijani delegation is constantly expanding its political activity in this organization, making presentations at various meetings of the organization in accordance with the political interests of Azerbaijan and making proposals. BSEC PA is one of the international parliamentary organizations that are closely involved in the activities of the founder and member of the Republic of Azerbaijan.

***Key words:*** *parliament, international, cooperation, forum, session, region, politics*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT: 327**

# DƏNİZ HÜQUQUNA DAİR MÜBAHİSƏLƏRİN HƏLLİ PROSEDURASINDA ÇƏKİŞMƏ PRİNSİPİNİN ÜMUMI MÜDDƏALARI

**Saməddin İMANOV** *

Məqalə redaksiyaya daxil olmuşdur: 7 may 2019; çapa qəbul edilmişdir: 3 iyun 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 8 May 2019; accepted: 6 June 2019; published online: 25 September

***Açar sözlər:*** *dəniz hüququ, konvensiya, prosedura, beynəlxalq tribunal, xüsusi arbitraj, çəkişmə prinsipi*

## Giriş

BMT-nin Dəniz hüququna dair 1982-ci il konvensiyasının qəbul edilməsi beynəlxalq dəniz hüququnun mütərəqqi inkişafının, onun məcəllə şəklinə salınmasının və yeni hüquqi qaydalarının yaranmasının bir mərhələsi olmüşdur. Bu vaxt Konvensiya bir sıra mübahisələri və ziddiyyətləri yaradan çoxlu sayda məsələləri həll etməyə nail oldu və yeni prinsiplərin formulə edilməsini, beynəlxalq dəniz hüququnda yeni institutların yaranmasını təmin etdi. Balıqçılıq zonalarının müəyyən edilməsi, müstəsna iqtisadi zonaların yaradılması, kontinental şelfi bunlara misal göstərmək olar. Konvensiya mümkün ola bilən konfliktlərin qarşısını almaq üçün təkcə onların həll olunma yollarını deyil, həm də bu məsələlərə baxılması üçün tətbiq ediləcək mexanizmləri də müəyyən edir. Yəni, konvensiya özünün preambulasında göstərdiyi kimi – bu inkişaf etməkdə olan ölkələrin də marağına cavab verdi.

Beynəlxalq dəniz hüququnun bir sıra özünəməxsus və hamılıqla tanınmış prinsipləri 1982-ci il Dəniz hüququna dair BMT konvensiyasında zamanın tələblərinə uyğun olaraq əks olunmuş, yəni onlar, beynəlxalq dəniz hüququnun mütərəqqi inkişafına və elmi-texniki tərəqqiyə əsaslanmaqla yenilənmiş formada təsbit edilmişdir. [4, c. 51-52]

## Dəniz hüququna dair Konvensiyanın bəzi xüsusiyyətləri

1982-ci il BMT konvensiyasının əsas xüsusiyyətlərindən biri onun kompleks, yəni bir məcəllə xarakteri daşımasıdır. Konvensiyasının digər mühüm xüsusiyyəti ondan ibarətdir ki, məcəllə xarakteri daşıyan bu konvensiya dəniz hüququna dair mübahisələrin baxılması və həlli üçün çəkişmə mexanizmləri də yaratmışdır. Heç şübhə yoxdur ki, bir çox beynəlxalq konvensiyalarda mübahisələrin həlli üçün dəqiqliklə işlənmiş norma və prosedurlar mövcud deyildir. Dəniz hüququna dair BMT-nın 3-cü konfransında dünyanın bütün hüquqi sistemlərinə aid olan dövlətləri iştirak edirdi və burada birmənalı nəticəyə gəlmək çox çətin idi. Lakin bu mümkün oldu, belə ki, mübahisələrin tənzim olunması sisteminə müxtəlif baxışların kompromisi əsasında nail olundu. 1982-ci il Konvensiyası bir tərəfdən özündə mübahisələrin həllinə dair qeyri-adi geniş imperativ normalar kompleksini əks etdirir, digər tərəfdən isə konfrans işin həlledici mərhələsində ciddi konfrontasiya, çəkişmə şəraitində keçən real halı nəzərə almaq aldı. Əksər dövlətlər prinsip etibarı

* dosent, Azərbaycan Dövlət Dəniz Akademiyası
*e-mail: samed3670@mail.ru*

ilə konfransda bütün münasibətləri əhatə edən kompromis qərar qəbul etdilər və Konvensiyada mübahisələrin həlli probleminin artıq həll olunsa belə hələ də qeyri-qənaətbəxş hesab edəcək dövlətlər bu Konvensiyaya qoşulmalıdır. Məhz buna görə də, Konvensiyada mübahisələrin həlli mexanizmi barədə olan normalar arasında elələri vardır ki, mübahisə edən tərəflərin üzərinə üçüncü tərəfi bu mübahisəyə cəlb etməklə mübahisənin həlli prosedurasını həyata keçirmək öhdəliyi qoyur. Ümumi prinsiplər bunu ifadə edir ki, dövlətlər öz aralarında olan mübahisələri ya danışıqlar yolu ilə həll etməli və ya bu Konvensiyasının göstərişlərinə uyğun olaraq və yaxud da BMT-nın Nizamnaməsində göstərilən danışıqlar, müayinə, vasitəçilik, barışdırma, arbitraj, məhkəməyə verilmə kimi dinc vasitələrlə həll etməlidirlər.

Mübahisələrin həlli üsulları içərisində tərəflərin özlərinin seçdikləri vasitələr birinci yerdə durur. Konvensiyada qeyd olunan prosedura anlayışının mahiyyəti ondan ibarətdir ki, bu prosedura mübahisənin dinc vasitələrlə həll edilməsi mümkün olmadığı və ya tərəflərin bir-biri ilə qarşılıqlı razılaşmaya gələ bilmədikləri hallarda tətbiq olunur. Əgər tərəflər razılaşma prosedurasının göstərişlərinə əməl etməzsə və ya razılaşma proseduras vasitəsilə mübahisənin həllinə nail olunmursa, o vaxt bu prosedura qəti olaraq bitmiş sayılır və mübahisə çəkişən tərəflərdən hər hansı birinin tələbi ilə özündə məcburi həll edilmə yollarını əks etdirən məcburi prosedura formasında həll edilir.

BMT-nın 1982-ci il Konvensiyası çəkişən tərəflər üçün aşağıda qeyd edilən dörd məcburiyyət prosedurasını nəzərdə tutur: [4, c. 118-121]

1.Dəniz hüququna dair Beynəlxalq tribunal.

2.Beynəlxalq məhkəmə.

3.Arbitraj.

4.Xüsusi arbitraj.

**Dəniz hüququna dair mübahisələrin həlli mexanizmini haqqında**

Baş vermiş mübahisəni həll etmək məcburiyyətində qalan dövlət BMT Nizamnaməsinə əsasən yuxarıda göstərilmiş proseduralardan hər hansı birini və yaxud bir neçəsini seçə bilər. Bu seçimdə dövlət tam müstəqildir. Qeyd etmək lazımdır ki, məhkəmə qərarlarına təkcə BMT Beynəlxalq məhkəməsinin qərarları deyil, habelə beynəlxalq arbitraj məhkəməsinin, ixtisaslaşmış beynəlxalq məhkəmələrin (məsələn Avropa insan hüquqları məhkəməsinin, dəniz hüququ üzrə Beynəlxalq Tribunalın) milli məhkəməsinin çıxardığı qərarlar da aiddir.

Dəniz hüququna dair beynəlxalq tribunal müstəqil məhkəmə instansiyası kimi BMT-nın dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına uyğun olaraq yaradılmışdır. Tribunal müqavilələrdən doğan mübahisəli məsələləri aidiyyəti çərçivəsində, eləcə də Konvensiyanın müddəalarının düzgün anlaşılmamasından yaranan hər hansı bir mübahisəyə baxmaq səlahiyyətindədir

2013-cü il üçün bu Konvensiyaya beynəlxalq hüququn ümumilikdə 165 subyekti qoşulmuşdur. (164-dən çox ölkə və Avropa İttifaqı). Tribunalın rəsmi dili ingilis və fransız dilləridir. Hamburq şəhərindəki iqamətgahda yerləşən beynəlxalq tribunalın tərkibində beş qitə və ölkələrdən 1 hakim vardır.

Hakimlər gizli səsvermə və yenidən seçilmə yolu ilə 9 il müddətinə seçilir. Buna baxmayaraq, hər üç ildən bir hakimlərin 3/1-i, seçilmiş Tribunalın sədri və onun katibi isə gizli səsvermə yolu ilə sonradan və yenidən seçilməklə hakimlər tərəfindən 3 il müddətinə seçilir.

Dəniz hüququ üzrə Beynəlxalq Tribunalın Statusunun 10-cu maddəsinə müvafiq olaraq, Tribunalın işində iştirak edənlər diplomatik imtiyazlara immunitetlərə malik olmalıdırlar. Tribunala seçilmiş hakimlər maaşlara, əlavə ödənişlərə və kompensasiyalara olan vergilərin bütün növlərindən azad edilmişlər. (Statusun 12-ci maddəsi).

Tribunalın tərkibində dənizin dibinə dair mübahisələr üzrə palata və beş ixtisaslaşdırılmış palata fəaliyyət göstərir. Məhkəmə tribunal baxışında iştirak edən tərəflərin tələbi ilə konkret mübahisənin baxılması çəkişmə prinsipinin gözlənilməsi məqsədi ilə Beynəlxalq Tribunal xüsusi palata təsis edə bilər. Beynəlxalq Tribunalın açılış mərasimi 18 oktyabr 1996-cı ildə baş tutmuşdur.

Tribunal hər bir sadələşdirilmiş məhkəmə icraatı qaydasında işlərin tezliklə baxılması üçün "5" üzvdən ibarət palata formalaşdırır. Dənizin dibinə mübahisələrə dair Tribunal çərçivəsində təsis edilən palata Konvensiyanın müddəalarının tətbiq və təsvirində müstəsna səlahiyyətə malikdir. BMT-nın 1982-ci il Konvensiyası iştirakçı dövlətlər arasındakı mübahisələrin tənzimləməsi üçün xüsusi hissə ayırmışdır. Burada konvensiyanın təfsiri və tətbiqi məsələləri əksini tapmışdır.

Konvensiya iştirakçı dövlətlərin üzərinə mübahisələri BMT Nizamnaməsi çərçivəsində istənilən sülh yolu ilə həll edilmə vəzifəsini öhdəlik kimi qoymuşdur. Eyni zamanda mübahisə yarandığı anda dərhal, təxirə salınmadan onun danışıqlar və sülh yolu ilə tənzimlənməsi məqsədi ilə fikir mübadiləsi aparmaq vəzifəsi də nəzərdə tutulmuşdur. [3, c. 402-403]

Mübahisədə iştirakçı tərəflərdən biri digərinə mübahisənin tənzimlənməsi üçün konvensiyanın 5-ci əlavəsində nəzərdə tutulduğu kimi razılaşdırıcı proseduraya verilməsini də təklif edə bilər. Lakin elə buradaca nəzərdə alınmışdır ki, mübahisə tərəflərin seçdiyi vasitə və üsul ilə tənzimlənməmişsə, bu zaman onlardan hər hansı birinin təklifi ilə mübahisə onu həll etmək səlahiyyətində olan konvensiyaya uyğun olaraq, onun qaydalarına əsasən məhkəməyə və ya arbitraja verilir. Məhkəmə və ya arbitrajda mübahisə edən tərəflər *çəkişmə prinsipinə* əsasən sübutlar təqdim edərək, istinad etdikləri halları sübut etməklə mübahisənin həllini tapırlar. Bu məqsədlə Konvensiya iştirakçısı olan dövlət onun üçün əlverişli olan və 287-ci maddədə sadalanan prosedurlardan hər hansı birini seçməsini yazılı şəkildə bildirə bilər.

Bunlar aşağıdakılardır:

a) 6-cı əlavəyə uyğun olaraq təsis edilmiş dəniz hüququna dair Beynəlxalq Tribunal.

b) Beynəlxalq məhkəmə.

c) 7-cİ əlavəyə uyğun təsis edilmiş arbitraj.

d) 8-ci əlavəyə uyğun yaradılmış xüsusi arbitraj.

Mübahisədə iştirak edən tərəf hər hansı bir fikir bildirmirsə, həmin tərəf 7-ci əlavəyə uyğun olaraq arbitrajla razılaşmış hesab olunur.

Nəhayət, yuxarıda qeyd edilənlər Konvensiya iştirakçı dövlətlərin öhdəliyinə toxunmur. Başqa sözlə desək, Konvensiya tərəflər arasındakı mübahisəni razılaşdırılmış sülh yolu ilə tənzim edə bilmədikdə, onların mübahisəsinin çəkişmə prinsipi əsasında həll edilməsi üçün öz müddəalarının tətbiqi ilə əlaqədar xüsusi orqanlar yaradılmasını nəzərdə tutur.

BMT-nın dəniz hüququ üzrə 1982-ci il Konvensiyası və 1958-ci il dəniz hüququ Konvensiyası dünya okeanında iştirakçı dövlətlərin iştirakı üçün hüquqi qüvvəsini saxlayır. Buna baxmayaraq, müasir beynəlxalq dəniz hüququ üçün əsas mənbə 1982-ci il Konvensiyasıdır.

Yer səthinin 3/2 hissəsini əhatə edən dənizlər və okeanlar – Dünya okeanı onun dərinlikləri və dibləri insanların diqqətini cəlb etmiş, həmişə bəşər cəmiyyətinin elmi fəaliyyətinin, kəşflərinin mühüm tədqiqat obyektlərindən biri olmuşdur. Bununla belə hələ də müxtəlif dövlətlərin bu sahədə əməkdaşlığını zəruri edən amillər mövcud olaraq qalmaqda davam edir.

Elmi-texniki tərəqqinin 21-ci əsrdəki səviyyəsi hətta müasir beynəlxalq dəniz hüququndan Dünya Okeanın çətin və nisbətən məhdud həcmdə öyrənilməsi sahələrinin tədqiq edilməsinə ehtiyac olduğunu labüd edir. Dövlətlərin suveren ərazi başçılığına tabe olan dəniz sahələrindən əlavə xalqların ümumi istifadəsində olan okean və dəniz suları yer üzünün 70%-dən bir az çoxunu təşkil edir. Bu sulardan səmərəli istifadə nəticəsində dövlətlərin əldə etdiyi ümumi illik gəlir təxminən 60-65 milyarda çatır. BMT-nın apardığı demoqrafik araşdırmalar, son statistik məlumatlar onu göstərir ki, yer kürəsinin əhalisi durmadan artmaqda davam edir, hətta beynəlxalq aləmdə hazırda davam edən müxtəlif regionlarda baş verən müharibələr belə əhali artımının qarşısını davamlı şəkildə azalda bilmir. Düzdür, bəzən müəyyən zaman kəsiyində əhali artımının qarşısı nisbətən, sürətli olmasa da alınır, lakin qısa zamandan sonra artım yenidən davam edir. Bu da danılmaz faktdır ki, dünyada mövcud olan ərzaq məhsulları, su mənbələri, təbii qida ehtiyatları, yanacaq vasitələri və s. tükənməz-bitməz deyil. Yəni ərzaq, müxtəlif qida mənbələri, istər yeraltı, istərsə də yerüstü sərvət mənbələrinin kəşf edilərək istifadəyə verilməsi, dövlətlərin, onların xalqlarının elmi fəaliyyətlə məşğul olan şəxslərin, ümumiyyətlə bəşəriyyətin qarşısında duran, həlli vacib və təxirəsalınmaz olan məsələlərdən biridir.

Ölkəmizin timsalında ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında 20.09.1994-cü ildə bağlanmış "Əsrin müqaviləsi" adlanan neft Kontraktları əsasında Qərb dövlətlərinin iştirakı ilə Xəzər dənizinin dərinliklərindən milyon tonlarla neft, milyard kub metrlərlə qaz istehsal edərək yerli istehlakçılara və Avropa ölkələrinə verilməsi kimi faktlar da vardır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəməri Azərbaycan Dövlətinin iftixarı, Xəzərin dərinliklərində mövcud olan, hələ kəşfini və istismarını gözləyən nəhəng karbohidrogen ehtiyatları xalqımızın və dövlətimizin milli sərvəti və qürur mənbəyidir. Dünya dənizlərindən istifadə edilməsinin gəmiçilik, balıqçılıq və s. kimi köhnədən məlum olan ənənəvi sahələrindən başqa, insan fəaliyyətinin yeni sahələrinin yaranması müasir beynəlxalq dəniz hüququnun yaranmasını zəruri etmişdir. Bunun bariz nümunəsi kimi Xəzər dənizinin karbohidrogen ehtiyatlarının beynəlxalq tərkibdə müxtəlif dövlətlərə məxsus olan şirkətlər, konsorsium üzvlərinin birgə fəaliyyəti ilə istismar edilməsini göstərmək lazımdır. [7, c. 487] Azərbaycan Respublikasının Konstitusiyası birmənalı olaraq bütün məsələlərdə dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərə uyğun olaraq qurur (maddə 10). [1]

Müasir beynəlxalq dəniz hüququ ümumi beynəlxalq hüququn bir sahəsi olmaq etibarı ilə yeni tarixi dövrdə bu sahədə mövcud olan və həllini gözləyən müxtəlif ictimai münasibətlərin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edir. Hüququn bu sahəsindəki ictimai münasibətlər, onları doğuran səbəbləri tənzim edən xüsusi hüquq normaları olmadığı üçün bir çox illər ərzində bu münasibətlər adi hüquq normaları ilə nizamlanırdı. Lakin bəşəriyyətin sonrakı təkamülü bu sahədə yeni hüquq normalarının yaradılmasını zəruri etmişdir. Beynəlxalq dəniz hüququnun məcəlləşdirilməsinə ilk dəfə olaraq 1930-cu ildə Haaqa konfransında cəhd edilmişdir. [2, c. 288-289] Bundan sonra BMT-nın Beynəlxalq hüquq komissiyasının bilavasitə rəhbərliyi ilə 1958-ci ildə Cenevrə konfransında 86 dövlətin iştirakı ilə dörd mühüm saziş qəbul edilmişdir:

1.Ərazi dənizi və bitişik zona haqqında saziş;

2.Açıq dəniz haqqında saziş;

3.Balıqçılıq və açıq dənizin canlı ehtiyatlarının mühafizə olunması haqqında saziş;

4.Qitə və dəniz dibi haqqında saziş.

Bu sənədlər zamanın sınağından uğurla çıxmış və daim müxtəlif sazişlərlə (1960-cı il sazişi, 1972-ci il sazişi və s.) zənginləşdirilmişdir.

Açıq dəniz və kontinental şelf rejiminə qarşı yönəlmiş cinayətlər (dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizdə kömək göstərməmək,

kontinental şelf üzərində yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizin zərərli maddələrlə çirkləndirilməsi və s.) 1982-ci il Konvensiyasında müəyyən edilmiş qaydalar daxilində həll edilməklə tərəflərin çəkişmə prinsipini təmin edir.

Müasir beynəlxalq dəniz hüququnda dövlətlər arasında baş verən mübahisələrin həll edilməsi mühüm və əvəzedilməz əhəmiyyətə malikdir. Hər hansı bir məzmunundan asılı olmayaraq baş vermiş mübahisələrin həlli üçün müharibələrə əl atmaq qanunsuz və hüquq qaydalarına zidd olmaqla, dövlətlər arasında, o cümlədən xalqlar arasında dostluq və qarşılıqlı hörmətin, mehriban qonşuluq münasibətlərinin pozulmasına gətirib çıxarır. Məsələn, yaxın keçmişdə Türkiyə Respublikasının hava sərhədlərini beynəlxalq hüquq normalarına əhəmiyyət vermədən kobudcasına pozan, Türkiyə səmasında qanunsuz uçuş həyata keçirən Rusiya Federasiyasına məxsus SU-24 bombardmançı təyyarəyə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, pilot Türkiyənin hava sərhədlərini pozmaqda davam etmiş, nəticədə Türkiyə hərbi qüvvələri tərəfindən bu təyyarə vurulmuşdur. Rusiya hərbi təyyarəsinin pilotunun ölümünə səbəb olan bu xoşagəlməz hadisə Yer kürəsinin bu ərazidə fövqəladə gərginliyini daha da alovlandırmışdır. Hazırda Rusiyaya məxsus hərbi dəniz qüvvələri Aralıq və Qara dəniz sahillərində cəmləşməklə bu regionda gərginliyi pik nöqtəsinə çatdırmışdır. Burada diqqəti cəlb edən mühüm məsələlərdən biri Türkiyə Respublikasının Şimali Atlantika Alyansının üzvü olması və Türkiyənin İncirlik hərbi bazasının hazırlıq vəziyyətinə gətirilməsidir. Bu məsələdə diqqəti çəkən məqam ondan ibarətdir ki, bu insidentdə Beynəlxalq dəniz hüququnun prinsiplərinin, BMT Nizamnaməsinin və 1982-ci il Cenevrə sazişinin şərtləri kobudcasına pozulmuşdur. Belə ki, “bir dövlətin başqa dövlətin suverenliyinə, ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə təcavüzü və ya Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə bir araya sığmayan hər hansı başqa yolla qüvvə tətbiq edilməsi təcavüzkarlıq hesab olunur”. [11, c. 152-153]

Müasir beynəlxalq dəniz hüququ mübahisələrin dinc vasitələrdən istifadə etməklə həll olunması prinsipi məhz BMT Nizamnaməsinin bu müddəasına əsaslanır. Nizamnamənin 33-cü maddəsinin 1-ci bəndinə əsasən, hər hansı bir mübahisədə iştirak edən tərəflər mübahisəni danışıqlar, müayinə, vasitəçilik, barışdırma, məhkəmə əməliyyatı, məhəlli orqanlara və ya sazişlərə müraciət etmək yolu ilə və ya özlərinin seçdikləri başqa dinc vasitələrlə həll etməlidir.

**Mübahisələrin Dəniz hüququ üzrə Beynəlxalq Tribunal**

Mübahisələrin Dəniz hüququ üzrə beynəlxalq Tribunal tərəfindən qəbul edilir. 1996-cı ildən fəaliyyət göstərən dəniz üzrə Beynəlxalq Tribunal Konvensiyasının tətbiqi və təfsiri ilə əlaqədar mövcud olmuş, yaranmış mübahisələrin həlli məqsədi ilə yaradılmışdır. 2001-ci ilin noyabr ayında Tribunal iş qaldırılmasına dair birinci ərizəni qəbul etmişdir. Həmin dövrdən sonra bir neçə iş qaldırılmışdır. Bu işlərin əksəriyyəti həbs edilən gəmi və ekipajın təxirə salınmazdan azad edilməsi ilə əlaqədar idi. Bu işlər təbii resursların qorunub saxlanılması ilə bağlı Yeni Zelandiyanın Yaponiyaya qarşı və Avstriyanın Yaponiyaya qarşı mübahisəli məsələlərində də baxılmışdır. Məsələn, İrlandiyanın Böyük Britaniyaya qarşı dənizin qurudan çirkləndirilməsi işi onlar arasında tribunalda çəkişmə prinsipinin davamlı prosesi nəticəsində həll edilmişdir.

Qeyd etmək lazımdır ki, 51/204 saylı 17 dekabr 1996-cı il tarixli qətnaməyə uyğun olaraq Dəniz hüququ üzrə Beynəlxalq Tribunala Baş Assambleyada müşahidəçi statusu verilmişdir. [5]

BMT ilə Tribunal arasında əməkdaşlıq barəsindəki saziş 18 dekabr 1997-ci il tarixində imzalanmış, Baş Assambleya tərəfindən 8 sentyabr 1998-ci il tarixli qətnamə ilə təsdiq edilmişdir.(№52/251) [6]

Qeyd edilənlərə əsasən demək olar ki, 1957-ci və 1982-ci Dəniz hüququna dair Konvensiyalarının qəbul edilməsi ilə əlaqədar mübahisələrin sülh yolu ilə həll edilməsi üçün tamamilə yeni unikal mexanizm müəyyən edilmişdir. Burada müəyyən edilmiş "Prosedura seçimləri" arasında Dəniz hüququ üzrə Beynəlxalq Tribunal birinci yerdə durur. Tribunalın tərkibindəki 11 hakimdən hər biri hər hansı bir siyasi və ya inzibati vəzifə yerinə yetirə bilməz. Tribunalın üzvlərindən hər hansı biri və ya digəri bu və ya digər səbəbə görə konkret işin həll edilməsində iştirakını qeyri mümkün hesab edirsə, o bu barədə Tribunalın sədrinə məlumat verir.

Qeyd etmək lazımdır ki, Dəniz hüququ üzrə Beynəlxalq Tribunal ancaq Konvensiya üzvləri arasında baş vermiş mübahisəyə baxmaq səlahiyyətinə malikdir. Bundan əlavə, tribunal nəinki dövlətlər arasındakı mübahisələrə eləcə də, sazışin digər iştirakçıları, həm dövlət müəssisələri, həm də fiziki və hüquqi şəxslər arasındakı mübahisələrə baxır. Bu halda şəxslər dedikdə, eləələri nəzərdə tutulur ki, konvensiya iştirakçısı olan dövlətin vətəndaşı sayılsın ya bu dövlətin effektli nəzarəti altında olsun. Beləliklə, hər iki halda dövlətlərin maraqlarının təmin edilməsi üçün ən vacib şərt onların BMT-nın 1982-ci il konvensiyasına üzv olmasıdır. Bütün yuxarıda göstərilən faktları, hüquqi mənbələri, o cümlədən normativ hüquqi aktları, beynəlxalq qanunların dispoziyasından göründüyü kimi, Beynəlxalq dəniz hüququna dair mübahisələrin həlli prosedurasında çəkişmə prinsipinin tətbiqi məsələlərində bir çox analogiyadan hələ də istifadə edilməlidir. Belə olduğu halda isə işlər Dəniz hüququ sahəsində, istərsə də BMT-nın ixtisaslaşdırılmış məhkəmələrin çıxardıqları qəbul etdikləri qanunların icrası ali hüquqi qüvvəyə malik olmaqla həm də üzv dövlətlər üçün məcburidir.

**Nəticə**

Şərh edilənlərdən aydın olur ki, Beynəlxalq Dəniz Hüququ bir çox illər boyu ənənəvi adət normaları ilə tənzim edilən mübahisələrə son qoydu. Belə ki ilk dəfə 1958-ci ildə bu sahədə birinci dəfə məcəllələşdirmə aparılmaqla dəniz konvensiyaları yarandı. Lakin bu konvensiyalar dünyada XX əsrin 60-70-ci illəri ərzində yaranmış yeni müstəqil dövlətlərin mənafeyini əks etdirmirdi. Bundan əlavə, hələ əvvəldən mövcud olan dövlətlərin milli qanunvericiliyi də bu sazişlərlə bəzən ziddiyyət təşkil edir. Ona görə də, dəniz hüququ sahəsi haqqında qanunvericilik təkmilləşməli idi, çünki bir sıra ölkələrdə qanunlar beynəlxalq dəniz hüququnun maddələri ilə ziddiyyət doğururdu. Bu çətinliyi aradan qaldırmaq və bu sahədəki uyğunsuzluğu ləğv etmək məqsədi ilə BMT-nın dəniz hüququ üzrə 1982-ci il Konvensiyası qəbul edildi. Lakin mövcud olan ziddiyyətlər qalmaqda davam edirdi; yeni imzalanmış 1982-ci il Konvensiyası da hətta qüvvəyə mindikdən sonra da iştirakçı dövlətlər hələ də bütünlüklə özlərinin milli qanunvericiliyini Konvensiyanın müddəalarına uyğunlaşdırmamışlar. Bu isə Beynəlxalq dəniz hüququ sahəsində bir sıra mübahisələrin [8, 9, 10] baş verməsinə səbəb olurdu. Bu mübahisələri həll etmək məqsədi ilə 1982-ci il BMT Konvensiyasının 291-ci maddəsinə müvafiq olaraq Dəniz hüququ üzrə Beynəlxalq Tribunal yaradılmışdır. 1982-ci il Konvensiyası isə tənzimlənən bütün məsələlər üzrə mübahisələr Tribunalın yurisdiksiyasında daxil edilmişdi. Beləliklə Beynəlxalq Tribunal həyatı zərurətdən doğan bir qurum oldu.

BMT-nın Beynəlxalq məhkəməsindən fərqli olaraq dəniz hüququ üzrə Tribunal təkcə dövlətlər arasındakı mübahisəyə yox, həmçinin sazişin digər iştirakçıları, həm dövlət müəssisələri, həm də fiziki və hüquqi şəxslər arasındakı mübahisəyə baxır. Tribunalda baxılan mübahisələr təqdim edilən sübutlar çəkişmə prinsipi əsasında araşdırılır. Burada çəkişmə prinsipi mübahisə tərəflərinə qüvvədə olan 1982-ci il Konvensiyasının müddəalarını və eləcə də Konvensiyanın müvafiq əlavələrinin tələblərinə görə uyğun olaraq sübutlar təqdim etməyə, sübutların tam araşdırılmasında iştirak etməyə, qanunun müddəalarının düzgün tətbiq edilməsini tələb etməyə imkan yaradır.

Beynəlxalq Tribunalın hakimləri mübahisənin qanunun tələb etdiyi qaydada həll edilməsi üçün tərəflərin prosedurada hüquq bərabərliyini təmin etməklə onlardan heç birinin digər tərəf qarşısında fövqəladə səlahiyyətə və üstünlüyə malik olmadığını əyani olaraq nümayiş etdirir.

Beynəlxalq Tribunalda mübahisənin həlli ilə əlaqədar olaraq prosedurada tərəflərin çəkişməsi hər biri öz ifadəsini onda tapır ki, tərəflərdən hər biri özünün haqlı olmasını özünəməxsus milli qanunlarına isnad etməklə sübut etməyə çalışır, bu isə mübahisənin həllində nizamsızlıq yaradır, çünki hələ də Konvensiyaya qoşulan dövlətlərin bəziləri özlərinin milli qanunlarını dəniz hüququna dair 1982-ci il Konvensiyasına uyğunlaşdırmamışlar.

## QAYNAQLAR


1. Azərbaycan Respublikasının Konstitusiyası. Qanun, 2017, 46 s.
2. Бирюков П.Н. Международное право. М.: Издательство Юрайт, 2011, 793 с.
3. Ковалёв А.А. Современное международное морское право и практика его применения. Монография. М.: Научная книга, 2003, 416 с.
4. Молодцов С.В. Международное морское право. М.: Международные отношения, 1987, 272 с.
5. Колодкин А.Л. Международный Трибунал ООН по морскому праву // Московский журнал международного права. 1997, 1997, № 2, с. 234–237
6. Колодкин А.Л. Новые тенденции о применение Конвенции ООН по морскому праву. Ежегодник морского права, Москва, 2002, 115 с.
7. Международное право в документах. Учеб. пособие для вузов по спец. "Правоведение". Составитель Н.Т.Блатова, М.: Юрид. лит., 1982, 853 с.
8. Абашидзе А. Х, Арсентьев Ю.А, Лазарев М. И. Международное морское право. Теория и пактика, М, 2005, 189 с.
9. Ndiaye T.M. The Advisory Function of the International Tribunal for the Law of the Sea // Chinese Journal of International Law. 2010. pp. 565–587
10. Belmont K.B.: Blank Rome maritime: Maritime cyber security – a growing threat goes unanswered. New York, NY, 2014. p.12. (http://mlaus.org/wp-content/uploads/bp-attachments/3821/K-Belmont-Maritime-Cybersecurity-Articles-0031.pdf)



***Summary***

***Sameddin Imanov***

***General Provisions for Resolution of Controversies on Maritime Law***

As in the past, as well as nowadays marine problems have always been the subject of controversy in various debates. However, though our society tried to resolve these disputes in the past within the existing customs and norms, at present these issues are usually settled by following the principles of international law; moreover, some of them still need to be referred to the specialized UN norms and conventions governed by the international marine laws. Due to the fact, that all disputes existing in this area cannot be settled by the conventions of 1958 and 1982, the possibilities of the law still remain valid for their further resolution.

Approaches to the question of maritime profession and maritime disputes were different. In the presented scientific article, the International Court of Justice and the International Tribunal for the Law of the Sea consider controversial and other issues arising in this area.

The author sheds light on the questions related to the controversial discussions related to the history of Maritime law and bring some examples from the past about the ways of how the contradictions were resolved when they arose.

Along with these the article illustrates the historical conditions of how some countries did not join to the maritime law convention of 1982 and to which consequences it brought later.

The article also describes the conditions related to the rights and responsibilities of the International Maritime Tribunal in the analyses of the cases, in making appropriate decisions within the frames of settlement and resettlement of the disputes related to maritime law.

The issues related to the structure and perspectives of the International Tribunal on Maritime law refer to the rank of interesting questions brought forward by the author.

Finally, the author denotes that there exist a range of principals pursued by the international law of maritime when the Tribunal may offer some choices of the sides if they cannot come to a general compromise on individual cases.

***Keywords:*** *maritime law, convention, procedure, international tribunal, special arbitration*

***Резюме***

***Самеддин Иманов***

***Общие положения по разрешению споров по морскому праву***

Как и во прошлом, так и в наши дни, морские проблемы всегда были предметом споров и дискуссий разного рода. Однако, хотя во прошлом развитие общества стало решать эти споры и проблемы в соответствии с обычаями и нормами, в настоящее время эти вопросы решаются согласно принципам международного права; при том, некоторые из них тоже решаются путем ссылок на специализированные нормы и конвенции ООН, регулирующие международное морское право. Ввиду того что, все споры в этой области не могут быть разрешены конвенциями 1958 и 1982 годов, возможности закона тоже используются в качестве их дальнейшего разрешения.

Подходы к морским проблемам и морским спорам были различными. В представленной научной статье обсуждаются вопросы о том, что как Международный Суд, Международный трибунал по морскому праву рассматривают спорные и другие вопросы, возникших в этой области.

Автор проливает свет на вопросы, связанные со спорными дискуссиями, связанными с историей морского права, и приводит некоторые примеры из прошлого о путях разрешения противоречий при их возникновении.

Наряду с этим статья тоже иллюстрирует исторические условия того, как некоторые страны не присоединились к Конвенции о морском праве 1982 года, и к каким последствиям это привело позже.

В статье также описываются условия, связанные с правами и обязанностями Международного Морского Трибунала при анализе дел, при принятии соответствующих решений в рамках урегулирования споров, связанных с морским правом.

Вопросы, связанные со структурой и перспективами Международного трибунала по морскому праву, относятся к ряду интересных вопросов, предложенных автором.

Наконец, автор отмечает, что существует ряд принципов, преследуемых международным морским правом, когда Трибунал может предложить какой-то выбор сторон, если они не могут прийти к общему компромиссу по отдельным делам.

***Ключевые слова:*** *морское право, конвенция, процедура, международный трибунал, специальный арбитраж*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**S Ə N Ə T Ş Ü N A S L I Q**

**UOT 73**

# ASİF AZƏRELLİ YARADICILIĞINDA MƏNZƏRƏ JANRI

**Emil AĞAYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 25 aprel 2019; Çapa qəbul edilmişdir: 8 iyul 2019; online-da çap edilmişdir: 25 sentyabr 2019
Received: 25 April 2019; accepted: 8 July 2019; published online: 25 September

***Açar sözlər:*** *Asif Azərelli, Qarabağ, Naxçıvan, Avropa, rəng, kompozisiya*

## Giriş

Təsviri incəsənətdə janr anlayışının termin kimi formalaşması XVII əsrə aid edilir. "Genre" fransız sözüdür, klassisizm estetikası və fəlsəfəsi çərçivəsində müəyyənləşdirilərək, təyin edilib. Janr-bədii yaradıcılığın tarixən formalaşmış, həyatın müxtəlif cəhətlərini əks etdirən, ədəbiyyat və incəsənətdə müxtəlif mövzuların konkretliyidir. Janr hər bir incəsənət növünün əsas tərkib hissəsidir. Təsviri incəsənətin digər amillərindən fərqli olaraq, janr daha işıqlı və dinamikdir.1669-cu ildə Fransa Kral akademiyasının katibi, memar və rəssam Andre Filibyen klassik janrlar nəzəriyyəsini tərtib edir, bu təsnifatda mühüm yer tutan janrlardan biri də mənzərədir. (2, s. 8-9)

Azərbaycan rəngkarlığı tarixinə nəzər yetirsək, bütün rəssamlarımızın yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Özünəməxsus dəst-xətti ilə təsvir etdiyi mənzərələrdə ölkəmizin tarixini, memarlığını və milli mədəni dəyərlərimizi əks etdirən sənətkarlarımızdan biri də Asif Azərellidir.

## Asif Azərelli yaradıcılığına baxış

Asif Hüseyn oğlu Azərelli ( Rzayev) 1946-cı ildə Bərdə rayonunun Uğurbəyli kəndində anadan olmuşdur. Rəssamın əsli isə Şərur rayonunun Qarxun (indiki Qaraxun) kəndindəndir. Babası həmin bu kəndin tanınmış bəylərindən biri olmuşdur, bolşeviklər babasını güllələyəndən sonra, atası ailəsini də götürüb Uğurbəyli kəndinə gedir. Balaca Asifin rəssamlığa meyli orta məktəbdə oxuyarkən üzə çıxır, hətta atası bazara gedəndə hər hansı tanınmış rəssamın əsərinin repraduksiyasını alardı. Rəssam daha sonra təhsilini Əzim Əzimzadə adına Dövlət Rəssamlıq məktəbində alaraq, 1971-ci ildə qrafik rəssam Əliağa Məmmədovun sinfini bitirir. Təhsilini davam etdirmək üçün indiki mədəniyyət və incəsənət universitetinə sənədlərini versə də, onu bir neçə il ardıcıl olaraq haqsız yerə imtahanlardan kəsirlər. 1974-cü ildə Tbilisi Rəssamlıq Akademiyasına daxil olur. Rəssam burada Gürcüstanın tanınmış rəssamları olan Kornelli Sanatze, Uçeçaparidzedən sənətin incəliklərini öyrənir. Beş seriyadan ibarət "Gənclik" adlı diplom işini işləyir. Həmin ildə gənclər yeni şəhərlər tikirdilər. Rəssam onlarla birgə qalaraq yeni şəhər qurucularının həyatlarını öz tablolarına köçürürdü. Kompozisiyalarda "Pikassosayağı" obrazlar yaradılmışdır, dinamika, jestlər, daxili aləmin ifadəsi bütün bu silsilə üçün əsas xarakterik xüsusiyyətdir. Rəssamın yaradıcılığında portret, mənzərə -xüsusilə Qarabağın mənzərəsi və faciəsi mühüm yer tutur. 2015-ci ildə Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür.

* magistrant, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
*e-mail: emilaghayev93@mail.ru*

**Asif Azərelli Qarabağa həsr etdiyi mənzərələr**

Əməkdar rəssam Asif Azərelli yaradıcılığında "Qarabağ" mövzusu qırmızı xətt kimi keçir. Onu ilk tanıdan "Qarabağlı qoca" əsərinin adını xüsusilə vurğulamalıyıq. Rəssamın mənzərələrində isə rəngarəng "Qarabağ"ın tarixi abidələri və mənzərəsi gözümüzün qarşısında canlandırılır.

"Cıdır düzü" (şəkil 1) əsərində rəssam "Şuşa" şəhəri yaxınlığında yerləşən, tarixən cıdır yarışlarının maraqla keçirildiyi və Qarabağ xanlığının türk əhalisinin öz milli bayramlarını keçirdiyi tarixi ərazimiz təsvir edilmişdir. İsti rənglərin kompozisiyada yaratdığı təəssürat tamaşaçının diqqətini cəlb edir. Dağın zirvəsində isə iki sevgili  əyləşərək, Allah tərəfindən yaradılan mənzərəni heyranlıqla seyr edirlər.

"Zəngilan toyu" (2004) (Şəkil 2) – Zəngilanın Avropada birinci, dünyada ikinci olan, məşhur çinar meşəsi təsvir edilmişdir. Kətan üzərində, yağlı boya texnikasıyla, payız fəslinin gözəllikləri əks etdirilən əsərdə, toy karvanı bir-birinin ardınca gedir. Asif Azərelli iki çinar ağacını simvolik olaraq nişan üzükləri formasında həll etmişdir. Qırmızı və qızılı rənglərdən geniş istifadə edilmişdir.




**Şəkil 1**. "Cıdır düzü" (kətan, yağlı boya, 200x300)



**Şəkil 2.** "Zəngilan toyu" (2004) (kətan, yağlı boya, 110x90)

“Musiqi beşiyimiz” (2003) – musiqi və təbiətin qarşılıqlı simfoniyası qurulmuşdur. Topxana meşəsi, Daşaltı çayı, Kis dağı canlandırılmışdır. Arxa fonda qismən xətti prespektivadan istifadə edilmişdir. Məkan, soyuq və isti rənglərin ritmik təkrarlanması bu kompozisiyanın əsas xüsusiyyətləridir. Əsərdə əsas diqqət mərkəzi isə Qarabağın məşhur “Şuşa” xalçası üzərində milli musiqi alətlərimizin təqdim olunmasıdır.

“İsa bulağına gedən yol” bu mövzuya rəssam iki fərqli süjet xətti ilə müraciət etmişdir. Birinci kompozisiyada Şuşanın məşhur İsa bulağı və meşəsinin təsvir metodunda rəssam impressionistlərə xarakterik olan təsvir üsulundan istifadə etmişdir. Bulağa gedən yol blik və işıq-kölgə vasitəsilə vurğulanaraq, sanki insanı həmin yerlərə canlı olaraq aparır. Digər əsərdə isə rəssam “İsa bulağında” öz dostları ilə istirahət edərkən təsvir etmişdir.

“Ovda” – “Keçmişimizdən seriyası”na daxil olan əsərlərdən biridir. Kompozisiyada miniatür ənənələrindən istifadə edilmişdir. Məkanın şərti təsvir edilməsi, ovçuların at belində milli geyimdə əyləşərək, dinamika, mimika və jestləri əsərə canlılıq gətirir.

“Natəvan bulağı” (2018) əsərində rəssam xan qızının evi qarşısında yerləşən, bulağı təsvir etmişdir. Bulağın yanında Natəvanın mozaikalardan qurulmuş obrazı, ümumilikdə əsərin tarixi əhəmiyyətliliyi Asif Azərellinin milli dəyərlərimizə verdiyi dəyərin göstəricisi kimi qiymətləndirilməlidir. İndi isə həmin bulaq ermənilər tərəfindən məhv edilmişdir...

Asif Azərelli yaradıcılığında “Laçın qayası”, “Şuşa qalası”, “Şuşa qalası tele qüllə ilə”, “Əsgəran qalası” və digər əsərlərində Qarabağın tarixi abidələrini öz tablolarında canlandırmışdır.

**Asif Azərelli yaradıcılığında “Naxçıvan” mənzərələri**

Əməkdar rəssamın “Naxçıvan” silsiləsinə bir-birindən maraqlı əsərlər daxildir.

“Batabat” (2007) (şəkil 3) – yağlı boya texnikasıyla yerinə yetirilmiş kompozisiyada Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində uçqun və sürüşmədən sonra yaranan göl təsvir edilmişdir. Günəşli günlərin sayının çox olması, mülayim iqlim və gözoxşayan dağ landşaftı gölə bənzərsiz kolorit verərək, Naxçıvandan, Azərbaycanın başqa bölgələrindən çoxsaylı istirahət edənləri və həm də xarici turistləri özünə cəlb edir. Lokal rənglər təbiətdə rəngarənglik yaradır. Gölün ətrafında atların qaçışı əsərə dinamiklik verir. İntibah dövrü rəssamlarının əsərlərinə xas olan “Əsərin içində əsər” prinsipindən istifadə edilmişdir.



**Şəkil 3**. “Batabat” (2007) (kətan, yağlı boya, 110x90)

"Naxçıvan dağları" əsərində tutqun havanın təsviriylə yanaşı, Türkiyə ilə sərhəddə yerləşən türbə də əks edilmişdir.

"Vətən" əsərində rəssam Naxçıvanın məşhur Əshabi-Kəhf mağarasını təsvir etməklə bərabər bu kompozisiyasında da insan və təbiəti qarşılıqlı vəhdətdə əlaqələndirmişdir. Cavanlar ağacın altında əyləşən qocanın məsləhətlərinə diqqətlə qulaq asırlar.

"Naxçıvan yallısı" – Memar Əcəmi tərəfindən ucaldılan "Möminə Xatun" türbəsinin qarşısında bir qrup gənc milli geyimdə yallı gedirlər. İfaçıların musiqisi təbiətin gözəlliyinə nəğmə kimi həsr edilmişdir. İfaçıların dinamikası, mimika və jestləri əsərdə diqqəti cəlb edir.

"Naxçıvan payızı" – Payız fəslində Naxçıvan təbiətinin gözəlliyi canlandırılmışdır. Bir qrup insan payız meyvələrini yeşiklərə yığaraq sanki söhbət edirlər. Təbiətin qızılı rənglərə boyanması, arxa fonda kənd evlərinin və Əshabi-Kəhf dağının təsviri əsərə xüsusi ifadəlilik gətirir.

"Naxçıvan mənzərəsi"-tablosuna diqqət yetirsək sənətşünas Ziyadxan Əliyevin sözləri ilə desək "Asif Azərellinin əsərlərinə xüsusən də mənzərələrinə tamaşa edəndən sonra fikirləşirsən ki, Səttar Bəhlulzadə qəbrdə rahat yata bilər". Kompozisiyada rəng, məkan quruluşunda, lirik mənzərəsində Səttar Bəhlulzadə ruhunu hiss etmək olar.

Əməkdar rəssam Asif Azərellinin "Kənd yolu", "İlan dağ" (2003), "Naxçıvan dağları", "Naxçıvan baharı", "Naxçıvan. Əshabi-kəhf" və digər əsərlərində Naxçıvanın əzəmətli təbiəti canlandırılmışdır.

**Asif Azərelli yaradıcılığında "Bakı" mənzərələri**

Rəssamın yaradıcılığında Bakıya həsr etdiyi bir-birindən maraqlı silsilə əsərlər mühüm yer tutur.

"İşərişəhərdə" (1995) – qədim şəhərin memarlığı və qoca kişi "Bakı qrupuna" xas olan naxışları ilə seçilən qədim xalçaların qarşısında əyləşərək təsvir edilmişdir.

"Bakının görünüşü" (Şəkil 4) – Azərbaycan Respublikası Sərhəd Xidmətinin keçirdiyi müsabiqədə qalib olmuş əsərdir. Öz həyatinin eyvanından rəssam Bakının ümümi mənzərəsini canlandırmışdır. Şəhərin məşhur bayraq meydanı və inzibati binaları kompozisiyada təsvir edilmişdir.



**Şəkil 4.** "Bakının görünüşü" (kətan, yağlı boya)

"Qayıqlar" (2013) – Xəzər dənizində üzən qayıqlar, suyun üzərində blik və ləkələrin əks edilməsi, qağayıların dövrə vurması tamaşaçının gözü qarşısında doğma Bakımızı canlandırır. Arxa fonda isə müasir Bakının memarlıq vedutası təsvir edilmişdir.

"Rəssamlar" (1883) (şəkil 5) – Bakının plener mənzərəsi önünə çıxan Asif Azərelli öz rəssam dostları Həsənağa və Nağdəli Xəlilov ilə birgə təsvir edilmişdir. Rəssamların tamaşaçıya baxan baxışları, qağayıların dövrə vurması əsərə dinamika və süjetlilik gətirir.



**Şəkil 5**. "Rəssamlar" (1883) (kətan, yağlı boya, 100x70)

**Asif Azərelli yaradıcılığında digər mənzərə janrında işlədiyi əsərlər**

Asif Azərelli yaradıcılığında Azərbaycanın digər bölgələrinin tarixi abidələri, mənzərələri ilə bərabər, xarici ölkələrə getdiyi zaman təsvir etdiyi əsərlərdə mühüm yer tutur.

"Əsrik dərəsi" (2007) (şəkil 6) – öz monumentallığı ilə seçilən əsərdə Tovuzun məşhur məkanı canlandırılmışdır. Tovuz aşıqlarının təbiət önündə saz ifa etmələri, bu musiqidən zövq alan rəssam və əsərin sifarişçisi kompozisiyada yer almışdır.

"Göyçayda nar bayramı" – çoxfiqurlu kompozisiyada, insanlar rəqs edərək, məşhur "Nar bayramı"nı qeyd edirlər. Ön fonda isə narla dolu səbətlərdə körpələrin təsviri tamaşaçının diqqətini cəlb edərək, yüksək abu-hava yaradır. Rənglərin ritmik təkrarlanaraq, məkanda yaratdığı ekspressivlik kompozisiyanın ifadəliliyini artırır.

Əməkdar rəssamın "Quba motivi" (2006), "Çıraqqala", "Gədəbəy. Koroğlu qalası" (2014) və digər əsərlərində rayonlarımızın gözəlliyi və tarixi abidələri təsvir edilmişdir.

"Yaz yağışı" (2000) – təbiətin gözəl bir anı canlandırılmışdır. Gül satan gəncin sevgililərə uzatdığı güllər əsərdə süjetin əsas diqqət mərkəzindən biridir.

"Dənizdən gələnlər", "Sahildə" (2005), "Ağ atlılar", "Qağayılar" və "Dənizin küləyi" əsərlərində Avropa və milli təsviri sənət ənənələrininin qarşılıqlı vəhdətini görə bilərik.

Asif Azərelli yaradıcılığında "İstanbul", "Venesiya", "Ərəbistan" və digər xarici ölkələrə həsr etdiyi kompozisiyaları da mühüm yer tutur.



**Şəkil 6.** "Əsrik dərəsi" (2007) (kətan, yağlı boya)

**Nəticə**

Asif Azərelli yaradıcılığında mənzərə janrı mövzusunun əsas nəticələri aşağıdakılardır:

1.Asif Azərelli yaradıcılığında mənzərə janrında işlədiyi əsərlər özünəməxsus dəst-xətti ilə seçilir.

2. Asif Azərellinin mənzərələrində insan və təbiət qarşılıqlı əlaqədə verilir.

3.Asif Azərelli mənzərə janrında işlədiyi əsərlərdə Qarabağ, Naxçıvan və digər bölgələrimizin tarixi abidələri, gözəl guşələri canlandırılmışdır.

4. Asif Azərelli yaradıcılığında mənzərə janrı mövzusu Azərbaycan sənətşünaslığında ilk dəfə tədqiq edilmişdir.

Əməkdar rəssam Asif Azərelli mənzərə janrında işlədiyi əsərlər ilə Azərbaycan təsviri incəsənət tariximizi zənginləşdirir.

**QAYNAQLAR**

1. Azərelli Asif (Kataloq), Bakı: Təknur, 2007, 48 s.
2. Kərimova Sevil. İncəsənət əsərlərinin təhlili (dərs vəsaiti), Bakı: Şərq-Qərb, 2018, 183 s.

**İnternet resursları**

3. Asif Azərelli yaradıcılığında mənzərə janrı (https://www.pinterest.com/arteldarorudjev/asifaz%C9%99relliasifazerelli%D0%B0%D1%81%D0%B8%D1%84-%D0%B0%D0%B7%D0%B5%D1%80%D0%B5%D0%BB%D0%BB%D0%B8/)

***Резюме***

***Эмиль Агаев***

***Пейзажный жанр в творчестве Асифа Азерелли***

Асиф Азерелли - один из современных художников Азербайджана, придерживающийся национальных традиций. В этой статье дается обзор его работ в жанре пейзажа, который играет важную роль в творчестве заслуженного художника Асифа Азерелли. Этот жанр является исторической формой художественного творчества, отражающей разные стороны жизни и специфику разных тем в литературе и искусстве. Жанр является основным ингредиентом в каждом виде искусства. Жанр более яркий и динамичный, чем любой другой художественный фактор. Художник работал над интересными работами уникальным способом. Он внес особый вклад в отражение природы и исторических памятников в ландшафтах Карабаха. Глядя на историю азербайджанской живописи, жанр играет важную роль в творчестве всех наших художников.

В творчестве заслуженного художника Асифа Азерелли тема «Карабах» проходит красной линией. С самого начала следует особо упомянуть имя «карабахского старика». В пейзажах художника на наших глазах ярко видны исторические памятники и пейзажи красочного «Карабаха».

Асиф Азерелли умело подчеркивал исторические места, людей, обычаи и места Карабаха. В пейзаже Нахчывана образ жизни людей находится на переднем крае. Работы художника также содержат работы, посвященные другим нашим регионам, в которых красоту нашей страны обогащают зрители. В своих композициях о зарубежных пейзажах художник подчеркивал больше архитектуры. Взаимодействие жанров - одна из главных черт творчества художника. В своих работах в жанрах пейзажа художник тесно связал тему человека и природы. Цвет, пространственное разрешение, сочетание холодных и горячих цветов - характерные черты художника. Пейзажи взаимосвязаны с европейским и национальным изобразительным искусством. Использование украшений в национальных костюмах, а иногда и в пейзажах, также использовались украшения художника. Впервые был исследован жанр темы в творчестве Асифа Азерелли.


***Ключевые слова:*** *Асиф Азерелли, Карабах, Нахчыван, Европа, цвет, композиция*


***Summary***

***Emil Aghayev***

***Landscape Genre in the Works of Asif Azerelli***

Asif Azerelli is one of the modern artists of Azerbaijan who adhered to the national traditions. This article gives an overview of his work in the genre of landscape, which plays an important role in the work of Honored artist Asif Azerelli. The genre is a historic form of artistic creativity, reflecting different aspects of life, and the specificity of different themes in literature and art. Genre is the main ingredient in every type of art. The genre is more brighter and more dynamic than any other artistic factor. The artist has worked on interesting works in a unique way. He made a special contribution to the reflection of nature and historical monuments in the landscapes of Karabakh. Looking at the history of Azerbaijani painting, the genre plays an important role in the creativity of all our artists.

In the work of the honored artist Asif Azerelli, the theme of "Karabakh" runs as a red line. From the very beginning, we should especially mention the name of the "Karabakh Old Man". In the artist's landscapes, the historical monuments and scenery of the colorful "Karabakh" are vividly in front of our eyes.

Asif Azerelli skillfully emphasized the historical places, people, customs and places of Karabakh. In the Nakhchivan landscapes, people's lifestyles are at the forefront. The artist's works also contain works dedicated to our other regions. In these compositions, the beauty of our country is enriched in the eyes of the audience. In his compositions on foreign landscapes, the artist emphasized more architecture. The interplay of genres is one of the main features of the artist's creativity. In his works in landscape genres, the artist closely linked the subject of human and nature. Color, spatial resolution, the combination of cold and hot colors are characteristic features of the artist. The landscapes are interconnected with European and national fine arts. The use of ornaments in national costumes, and sometimes in the landscapes, also used the artist's ornaments. For the first time, the theme genre in Asif Azerelli's creativity was explored.


***Keywords:*** *Asif Azerelli, Karabakh, Nakhchivan, Europe, color, composition.*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

## *TƏBRİKLƏR*

*“Sivilizasiya”çılar adından Bakı Avrasiya Universiteti rəhbərliyini Bakı Avrasiya Kollecinin açılması münasibətilə təbrik edirik! Elmi biliklərə yiyələnmə niyyətilə bu kollecə üz tutan gənclərin yoluna işıq salacaq müəllim-professor heyətinə uğurlar arzu edir, bu yeni təhsil müəssisəsinin qısa zamanda uğurları ilə fərqlənənlər sırasında layiqli yerini alacağına ümid edirik.*

***Hörmətlə: “Sivilzasiya”nın redaksiya heyəti***

## BİZİM MÜƏLLİFLƏR

**AĞAYEV Emil**
magistrant, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
*e-mail: emilaghayev93@mail.ru*

**ƏHMƏDLİ Tamerlan**
doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: tamerlanahmadli@yahoo.com*

**ƏYYUBZADƏ Rəşad**
doktorant, AMEA Fəlsəfə İnstitutu
*e-mail: rashad.ayyubzada@gmail.com*

**HÜSEYNLİ Nazim**
fəlsəfə elmləri doktoru, prof., BAAU
*e-mail: hüseynlin1956@rambler.ru*

**HÜSEYNOV İlyas**
doktorant, Bakı Slavyan Universiteti
*e-mail: ilyasdiplomat@gmail.com*

**HƏSƏNOV İlham**
tarix üzrə fəlsəfə doktoru, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
*e-mail: ilham.hesenov60@mail.ru*

**HƏSƏNOVA Kəmalə**
dissertant, Bakı Dövlət Universiteti
*e-mail: kamala.hasanova.02@mail.ru*

**İMANOV Saməddin**
dosent, Azərbaycan Dövlət Dəniz Akademiyası
*e-mail: samed3670@mail.ru*

**QARAYEVA Züriyə**
doktorant, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
*e-mail: zuriye.babayeva@hotmail*

**QƏHRƏMANOV Elgün**
doktorant, Bakı Dövlət Universiteti, Tarix fakültəsi Erməni Araşdırmaları Elmi-Tədqiqat və Tədris Mərkəzi
*e-mail: elgun041@gmail.com*

**QƏŞƏMOĞLU Əhməd**
iqtisad üzrə fəlsəfə doktoru, dosent, AMEA Fəlsəfə institutu
*e-mail: ahmgmm@gmail.com*

**QURBANOVA Kəmalə**
tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti
*e-mail: kamala-qurbanova@mail.ru*

**MƏMMƏDOVA Səadət**
sosiologiya üzrə fəlsəfə doktoru, AMEA Elm Tarixi İnstitutu
*e-mail: saadet.baki@yahoo.com*

**MİRZƏBƏYOVA Röya**
doktorant, AMEA Fəlsəfə İnstitutu; AMEA Elm Tarixi İnstitutu
*e-mail: royamirzabayova@gmail.com*

**NƏZƏROV Müslüm**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti
*e-mail: muslimnazarov@mail.ru*

**ORUCOVA Tərlan**
doktorant, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
*e-mail: terlann.orujova@gmail.com*

## YAZI QAYDALARI:

1. **Məqalələr Times New Roman-la, 1,5 interval və 14 şriftlə yazılmalıdır.**
2. **Parametrlər aşağıdakı qaydada olmalıdır:**

**Aşağı – 2**
**Yuxarı – 2**
**Sağ – 3**
**Sol – 1**

3. Abzas 1 sm. olmalıdır.

4. Başlıq:

**Öncə məqalənin adı, 1 sətir boşluqdan sonra müəllifin adı verilir. Məqalənin adı bütün hərflər böyük olmaqla qara (bold) ilə verilir. Məqalənin adı ortada, müəllifin adı sağda qara ilə olmalıdır. Soyadının bütün hərfləri qara ilə və böyük hərflərlə verilməlidir, məsələn:**

DİDAKTİK VÜCUDNAMƏLƏR

**Elmira MƏMMƏDOVA**

**5.** Məqalənin yazıldığı dildəki açar sözlər müəllifin adından sonra aşağıdakı qaydada 10 şriftlə, 1 sətir öncədən, 1 sətir sonradan ara verilməklə yazılmalıdır:

***Açar sözlər:*** *Türk ədəbiyyatı, vücudnamə, yaşnamə, əlifnamə*

**6.** Müəllifin elmi dərəcəsi, işlədiyi yer və e-mail adresi soyadının qarşısına ulduz (*) işarəsi qoyulmaqla səhifə sonunda **kursivlə** verilir, məsələn,
*filologiya üzrə fəlsəfə doktoru, Bakı Avrasiya Universiteti*
**mamedovaelmira4@gmail.com**

**7.** Məqalələr daxili bölgülərlə verilməlidir: **Giriş, I, II... və Nəticə**. Paraqraflar adlandırılmalıdır, məsələn,
Giriş

1. **Türk ədəbiyyatında vücudnamələr**
2. **“Öyüdnamə” məsnəvisinin arxitektonikası və məzmun özəllikləri Nəticə**

**Bu adlandırmalar qara şriftlə fərqləndirilməli və adlardan öncə 1 sətir ara verilməlidir.**

**8.** Ədəbiyyat kod sistemi ilə verilməlidir: ya istifadə ardıcıllığı və ya əlifba sırası əsas götürülməlidir. Başqa qaydalar qəbul edilməyəcək.

**Mətn içində istinadlar bu qaydada veriləcək: (3, s. 15)**
**Birinci rəqəm istinad edilən ədəbiyyatın kod nömrəsi olmalıdır. Vergül və nöqtədən sonra ara verilməlidir.**

“Qaynaqlar” **sözü qara və kursivlə yazılmalı, öncə bir sətir ara verilməli və ortada olmalıdır, məsələn,**

Qaynaqlar**:**

**Ədəbiyyat siyahısı əllə deyil, avtomatik olaraq, nömrələnməlidir. Ədəbiyyatın sırası 1 sm. sağa doğru çəkilməli və sol sıra çıxıntısız olmalıdır, məsələn,**

Kitab adı:

1. Araslı H. İmadəddin Nəsimi: həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1972, 200 s.

Məqalə adı:

1. **Əliyarlı S. Milli hərəkatımızın ilkin dönəmləri // Azərbaycan, 1992, №9-10, s.138-148.**

Konfrans materialları üçün:

**1. Gender: Demokratiya, Sülh Mədəniyyəti, Təhsil / II Respublika elmi-praktik konfransının materialları. Bakı: Səda, 2005, s.23-25**

9. Xülasələr üç dildə yazılmalıdır. Azərbaycan, rus və ingilis. Öncə müəllifin adı, növbəti sətirdə məqalənin adı qara şriftlərlə verilməlidir. Müəllifin adı qara və sağda, məqalənin adı ortada qara və kursivlə yazılmalıdır. Məsələn,

Saadat Shikhiyeva

Nasimi's hagiographic personality

**Müəllif adından öncə 1 sətir ara verilməlidir.**

10. Mətndə şeirlərdən istifadə olunmuşsa, şeirlər 1 sətir öncə və bir sətir sonra olmaqla mətndən ayrılmalıdır. Şeirlər kursiv və qara ilə verilməli, 2 sm. sağa doğru çəkilməlidir. Məsələn,

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam, Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

**MÜHÜM QEYDLƏR:**

- **Bu qaydalara uyğun yazılmayan, orfoqrafik, imla və ya üslub xətaları olan məqalələr qəbul edilməyəcək.**
- **Elmi dərəcəsi olmayanların məqalələrini elmi rəhbərlərinin oxuyub imza- laması vacibdir.**
- **Bütün məqalələr bir rəy və şöbə müzakirəsinin protokolundan çıxarış ilə ka- ğızda və elektron variantda təqdim edilməlidir.**

## ПРАВИЛА НАПИСАНИЯ:

**1. Статьи должны быть написаны в Times New Roman, с интервалом 1,5 шрифтом 14**

**2. Параметры должны быть в следующем порядке:**

**Внизу – 2**
**Наверху – 2**
**Справа – 3**
**Слева – 1**

3. Абзац – 1 см
4. Название:

**Вначале печатается название статьи, с интервалом через одну строчку – имя автора. Название статьи целиком пишется заглавными буквами, выделяется жир- ным шрифтом (bold). Название статьи размещается посредине, имя автора справа жирным шрифтом. Фамилия целиком пишется заглавными буквами жирным шрифтом, например:**

ДИДАКТИЧЕСКИЕ ВЮДЖУТНАМЕ

**Эльмира МАМЕДОВА**

5. С интервалом в одну строчку до и после имени автора на языке написания статьи представляются ключевые слова шрифтом 10 в нижеследующем порядке:

***Ключевые слова:*** *тюркская литература, вюджутнаме, летопись, алифнаме*

6. Научная степень автора, место работы и e-mail адрес пишутся в конце страницы ***курсивом,*** со звездочкой (*) перед фамилией, например:

*доктор философии по филологии, Бакинский Евразийский Университет*

**mamedovaelmira4@gmail.com**

7. Статья внутри делится на разделы (части): Вступление, **I, II... и Заключение.** Параграфы должны быть названы, например,

Вступление

**1. Вюджутнаме в тюркской литературе**

**2. Особенности архитектоники месневи «Оюдname» и содержания Заключение**

**Эти названия должны быть выделены жирным шрифтом и с интервалом в 1 строчку после названия**

8. Литература должна быть представлена по кодовой системе: за основу берется или порядок использования, или алфавитный порядок. Другие правила не принимаются.

**Ссылки внутри статьи даются в следующем порядке: (3, с. 15)**

**Первая цифра обозначает кодовый номер литературы, на которую делается ссылка. После точки с запятой – пробел.**

**Слово «Источники» должно быть написано курсивом и жирным шрифтом, перед ним и после должен быть пробел в одну строчку, например,**

Источники:

**Список литературы должен быть пронумерован автоматически. Список лите- ратуры располагается со сдвигом 1 см вправо и левый ряд должен быть без отступа, например,**

Название книги:

1. Араслы Г.Имадеддин Насими: жизнь и творчество. Баку: Азернешр, 1972, 200 с.

Название статьи:

**1. Алиярлы С. Первые повороты в национальном движении // Азербайджан, 1992, №9-10, с. 138-148.**

Для материалов конференции:

**1. Гендер: Демократия, Культура Мира. Образование / материалы II научно- практической конференции. Баку: Седа, 2005, с.23-25**

9. Резюме должно быть написано на трех языках: азербайджанском, русском и английском. Вначале имя автора, на следующей строчке название статьи жирным шрифтом. Имя автора пишется справа, жирным шрифтом и курсивом. Например,

Saadat Shikhiyeva

Nasimi's hagiographic personality

**Перед именем автора пробел 1 строчка.**

10. В случае использования в статье стихов, они должны до и после выделяться интервалом в 1 строчку. Стихи должны быть напечатаны курсивом и жирным шрифтом, со сдвигом вправо на 2 см. например,

*Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,*
*Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.*

**ВАЖНЫЕ ЗАМЕТКИ:**

- **Статьи, написанные не в соответствии с этими требованиями, имеющие орфографические и стилистические погрешности, приняты не будут.**
- **Статьи, написанные авторами без научной степени, должны быть прочитаны и подписаны научным руководителем.**
- **Ко всем статьям должны быть представлены один отзыв и выписка из протокола обсуждения в напечатанном и электронном варианте.**

## RULES OF WRITING:

1. **The text must appear in Times New Roman, 1.5 spaced, size 14.**
2. **Settings should be as following:**

**Down – 2**
**Up – 2**
**Right – 3**
**Left – 1**

3. Paragraph should be 1 cm.
4. **Title**

**Title must be written first, after 1 line space author's name. It may appear in bold and all letters uppercase. It must be in the middle, the author's name in bold in the right. All the letters of the last name must be given capitalized and bold, for example:**

DIDACTIC VUJUDNAMES

**Elmira MAMMEDOVA**

5. The keywords written as the same language with the article must follow author’s name: size 10, space 1 line before and 1 line after.

***Keywords:*** *Turkish literature, vujudname, age, elifname*

6. The author’s academic degree, place of work and e-mail address may appear at the end of the page in italic with an asterisk sign (*) in front of the surname, for example,

*PhD, Baku Eurasian University*

**mamedovaelmira4@gmail.com**

7. Articles must be given with internal divisions: **Introduction, I, II... and Summary**. Paragraphs must be given names, for example,

Introduction

3. **Vujudnames in Turkish literature**
4. **The architectonics and content aspects of “Oyudname” masnavi**

**Summary**

**Those nomenclatures must be differentiated by using bold shrift and before the names must appear a line space.**

8. The literature must contain code system: it should be based on either the usage of sequelize or alphabetical order. The other rules will not be accepted.

**In-text citations should be as following: (3, p. 15)**

**The first number should be the code number of the referred literature. It is im- portant to put an interval after the comma and dot.**

"Sources" must be written in bold, italic fonts in the middle, there must be an interval before it, for example,

**Sources:**

**The reference list must be numbered automatically, not by hand. It has to be moved 1 cm to the right and left line should not be protrusion, for example,**

The name of the book:

**2. Araslı H. İmadeddin Nesimi: life and creativity. Bakı: Azerneshr, 1972, 200 p.**

The name of the article:

1. Aliyarlı S. The initial periods of our national movement // Azerbaijan, 1992, №9-10, p.138-148.

**For conference materials:**

1. Gender: Democracy, Culture of Peace, Education / II Republican scientific- practical conference. Baku: Sada, 2005, p. 23-25

**9.** Resumes must be written in three languages: Azerbaijani, Russian and English. First, the author's name, and in the next line title of the article may appear bold. The author's name should be written in the right, in bold, the title of the article in the middle, in bold and italic. For example,

Saadat Shikhiyeva

Nasimi's hagiographic personality

**One line interval before the author's name.**

**10.** If the text includes poetries, there must be one line interval before and after them. They may appear in bold and italic, and must be moved 2 cm to the right. For example,

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.

**IMPORTANT NOTES:**

- **The articles whichdon't match those criterias, with orthographic, writ- ing or stylistic errors, won't be accepted.**
- **The supervisors of the authors without academic degrees have to read and sign the article.**
- **All articles should be submitted as paper and electronic version with one ref- erence and an extract from the department.**

## YAZI KURALLARI:

1. **Makaleler Times New Roman, 1.5 aralık ve 14 punto ile yazılmalıdır**.
2. **Ayarlar aşağıdaki gibi olmalıdır**:

**Aşağı - 2**
**Yukarı - 2**
**Sağ - 3**
**Sol - 1**

3. Paragraflar 1 cm girintiyle başlamalıdır.
4. **Başlık**:

**İlk olarak makalenin başlığı 1 satır boşluktan sonra siyah ve koyu renkte olmalıdır. Makalenin başlığı ortada, yazarın ismi sağa dayalı ve siyah olmalıdır. Soyadın tamamı büyük harflerle ve koyu renkte yazılmalıdır, örneğin:**

AHLAKİ VÜCUTNAMELER
**Elmira MAMMEDOVA**

**5. Makalenin anahtar kelimeleri aşağıdaki gibi 1 satır boşluktan sonra italik yazıl- malıdır:**

***Anahtar kelimeler***: *Türk edebiyatı, vücut, ihtiyar olma, alfabe*

**6.** Yazarın akademik unvanı, çalışma yeri ve e-posta adresi, soyadından sonra bir yıldız işareti (*) koyulmakla ilk sayfanın sonunda italik olarak yazılmalıdır, örne- ğin**,**

*Dr. Doç., Bakü Avrasya Üniversitesi*
**e-mail: mamedovaelmira4@gmail.com**

**7. Makaleler ana metnin bölümleriyle verilmelidir**: Giriş, I, II Paragraflar... ve So- nuç, örneğin;

Giriş

1. **Türk edebiyatında vücutname**
2. **"Öğütname" mesnevisinin strüktürü ve içerik özellikleri Sonuç**

**Bu başlıklar siyah fontla, metinden önce tek satır aralıklı olmakla yazılmalıdır.**

**8.** Edebiyat kod sistemiyle verilmelidir: kullanım sırası veya alfabetik sıraya göre. Diğer kurallar kabullenmeyecektir.
Metindeki referanslar bu biçimde olmalıdır: (3, s. 15)

**İlk rakam, başvurulan literatürün kod numarası olmalıdır. Virgül veya nok- tadan sonra ara verilmelidir.**

"Kaynakça" **kelimesi siyah, ortada, tamamı büyük harflerle ve önceden tek satır aralıklı olmakla yazılmalıdır, örneğin,**

**KAYNAKÇA**

**Literatür listesi manuel olarak değil, otomatik olarak numaralandırılmalıdır. Edebiyat sırası 1 cm. sağa doğru çekilmeli ve çıkıntısız olmalıdır, örneğin,**

Kitap başlığı:
1. Araslı H. İmadeddin Nesimi: hayat ve yaratıcılığı. Bakü: Azerneşr, 1972, 200 s.

Makale Başlığı:
**1. Aliyarlı S. Ulusal Hareketin erken dönemleri // Azerbaycan, 1992, №9-10, s. 138-148.**

Sempozyum metinleri için**:**
**1. Gender: Demokrasi, Barış Kültürü, Eğitim / II Cumhuriyet Bilimsel-Pratik Kon- feransından Materyaller. Bakü: Sada, 2005, s. 23-25.**

**9. Sonuçlar üç dilde yazılmalıdır**: Azerbaycan Türkçesi, Rusça ve İngilizce. Önce ya- zarın ismi, sonra makalenin başlığı siyah renkte verilmelidir. Yazarın adı siyah renkte ve sağda, makalenin başlığı ortada siyah ve italik olmalıdır. Örneğin,

Saadat Shikhiyeva

***Nasimi'nin menkıbevi kişiliği***

**Yazar adı öncesi bir satır aralıklı verilmelidir.**

**10. Metinde şiirler kullanılıyorsa, şiirler metinden önce ve sonra bir satır aralıkla yazılmalıdır.** Şiirler italik, siyah, 2 cm. sağa doğru çekilmekle yazılmalıdır. Örneğin,

Mende sığar iki cahan, men bu cahane sığmazam, Gövheri lamekan menem, kövnü mekane sığmazam.

**ÖNEMLİ NOTLAR:**

- **Bu kurallara uygun olarak yazılmayan, yazım ya da üslup hataları olan makaleler kabul edilmeyecektir.**
- **Akademik unvanı olmayanların makalelerinin danışmanları tarafından okunup imzalanması gerekmektedir.**

**Tüm yazılar, bir hakem önerisi ve bölüm toplantısının protokolünden alıntıyla birlikte basılı ve elektronik versiyonlarda sunulmalıdır.**